AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ISSN 2709-247X (Print)
ISSN 2709-2488 (Online)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

ELMİ-METODİK JURNAL
XÜSUSİ BURAXILIŞ
ELMİ-PEDAQOJİ MƏTBUAT: TARİXİLİK VƏ MÜASİRLİK MÜSTƏVİSİNDƏ

2025

JOURNAL of PRESCHOOL
and PRIMARY EDUCATION

SPECIAL ISSUE

Jurnalın indekslənməsi / Indexed by

Azərbaycan Respublikasının
Prezidenti yanında
Ali Attestasiya Komissiyası

## MƏKTƏBƏQƏDƏR və İBTİDAİ TƏHSİL

Elmi-metodik jurnal. 1970-ci ildən «Azərbaycan məktəbi» jurnalına əlavə kimi nəşr olunmağa başlayıb. Jurnal 2000-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi-metodik nəşri kimi fəaliyyətini davam etdirir. ISSN 2709-247X (Print) lSSN 2709-2488 (Online)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05 may 1997-ci il tarixli Nizamnaməsi ilə təsdiq edilmiş, Ədliyyə Nazirliyində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» adı ilə dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat şəhadətnaməsi № 544. 2009-cu ildə jurnalın adı dəyişdirilərək «Məktəbəqədər və ibtidai təhsil» adlandırılmışdır (AR Ədliyyə Nazirliyinin 11/648 №-li, 20.05.2009-cu il tarixli məktubu).

Jurnal məktəbəqədər və ibtidai təhsil sahəsində elmi-nəzəri məqalələrin, müasir dövrün tələblərinə uyğun milli və xarici təcrübəni praktik və nəzəri baxımdan əks etdirən araşdırma materiallarının nəşrini həyata keçirir. Jurnalda təlimin məzmununu, tərbiyəçi və müəllimlərin, psixoloq və defektoloqların pedaqoji təcrübəsini ümumiləşdirən məqalələrə yer verilir. Müasir təlim texnologiyalarının, pedaqoji innovasiyaların təbliği, ailə-məktəb, müəllim-şagird, tərbiyəçi uşaq münasibətlərinin pedaqoji-psixoloji aspektlərini əks etdirən yazıların dərci jurnalda daim diqqət mərkəzində saxlanılır. Məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc olunur. Müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-metodiki nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

---

## PRESCHOOL and PRIMARY EDUCATION

Scientific and methodological journal. It has been published since 1970 as a supplement to the «Azerbaijan Journal of Educational Studies». The journal has been operating as the scientific-methodical publication of the Ministry of Education of the Republic of Azerbaijan since 2000. ISSN 2709-247X (Print) ISSN 2709-2488 (Online)

The journal «Preschool and primary education» publishes scientific and theoretical articles in the field of preschool and primary education, research materials reflecting national and international experience from a practical and theoretical point of view in accordance with the modern requirements. The journal also publishes articles summarizing the content of training, the pedagogical experience of educators, teachers, psychologists and disability specialists. Promotion of modern learning technologies, pedagogical innovations and articles that reflect pedagogical and psychological aspects of family-school, teacher-student, educator-child relationships are always in the focus of the journal. Articles are published in Azerbaijani, Russian, English and Turkish languages. Articles that reflect the conflict of interests and have no scientific methodological purpose are not accepted. The journal is among the recommended scientific publications of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

---

© Məktəbəqədər və ibtidai təhsil / Preschool and Primary Education, 2025

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
**“Məktəbəqədər və ibtidai təhsil” jurnalı**

# ELMİ-PEDAQOJİ MƏTBUAT: TARİXİLİK VƏ MÜASİRLİK MÜSTƏVİSİNDƏ

## XÜSUSİ BURAXILIŞ

**Baş redaktor əvəzi**
Böyükağa Mikayıllı

**Redaksiya heyəti**

**Almaz Binnətova** (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu)
**Cəlal Allahverdiyev** (Azərbaycan Dövlət İqtisad Universiteti)
**Elnarə Məmmədova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Elşən Həşimov (**Azərbaycan Texniki Universiteti)
**Ənvər Abbasov** (Bakı Slavyan Universiteti)
**Fərrux Rüstəmov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Hümeyir Əhmədov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Xalidə Musayeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**İntiqam Cəbrayılov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Kamal Camalov** (Naxçıvan Müəllimlər İnstitutu)
**Məhəbbət Əliyeva** (“Məktəbəqədər və ibtidai təhsil” jurnalı)
**Müseyib İlyasov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Müjkan Məmmədzadə** ( Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası)
**Surə Seyid** (Naxçıvan Dövlət Universiteti)
**Yeganə Mustafayeva** (Bakı Musiqi Akademiyası)

**Redaksiya**
Məhəbbət Əliyeva, Landa Cəfərova, Aytən Həsənova,
Arzu Nuruzadə, İradə Əsədova, Fəridə Əhmədova, Selcan Heydərova

**Redaksiyanın ünvanı:**
AZ 1118, Bakı şəhəri, Nəsimi küçəsi 37
Telefon: (+994) 50 344 96 76
E-mail: info@ppe-journal.edu.az

## REDAKSİYADAN

Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizin elmi, ictimai və mədəni həyatında mühüm tarixi hadisədir. "Əkinçi" qəzetinin nəşri ilə əsası qoyulan milli mətbuatımız xalqımızın maariflənməsi, milli şüurun formalaşması və elmin inkişafında müstəsna rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 aprel 2025-ci il tarixli "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı bu tarixi hadisəyə dövlət səviyyəsində verilən yüksək dəyərin bariz ifadəsidir. "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalı redaksiyası olaraq milli mətbuat tariximizə ehtiram və minnətdarlıq nişanəsi kimi cari ildə planlaşdırılmış xüsusi buraxılışı Azərbaycan milli mətbuatının yubileyinə həsr etməyi qərara aldıq. Bu xüsusi buraxılış həm də jurnalımızın yaradılmasının 55 illik yubileyi ilə üst-üstə düşür. Elmi-metodik jurnalın 1970-ci ildə həyata vəsiqə qazanmasında o zamankı maarif naziri, akademik Mehdi Mehdizadənin mühüm rolu olmuşdur. Onun təşəbbüsü və dəstəyi ilə Azərbaycanda məktəbəqədər və ibtidai təhsilə dair ilk elmi-pedaqoji nəşr formalaşdırılmışdır. Jurnalın ilk baş redaktoru olmuş və 50 il müddətində ona rəhbərlik etmiş professor Yahya Kərimovun böyük xidmətləri isə həm pedaqoji mətbuat ənənəsinin, həm də elmi-metodik fikrin davamlı inkişafına dərin iz qoymuşdur.

Xüsusi buraxılışda elmi-pedaqoji mətbuatın tarixi-mənəvi kökləri, dil və üslub xüsusiyyətləri, milli mətbuatın formalaşması, elmi-pedaqoji nəşrlərin təhsilin və pedaqoji elmin inkişafına təsir imkanları, müasir media təhlükəsizliyi, uşaq mətbuatının, hərbi mətbuatın inkişaf tendensiyaları, eləcə də klassik pedaqoji nəşrlərin ideya xətti geniş elmi aspektdən araşdırılmışdır. Burada "Məktəbəqədər və ibtidai təhsil" jurnalının tarixi irsinə, "Azərbaycan məktəbi" kimi elmi nəşrlərin məzmun strategiyasına, pedaqoji fikir tarixinin aparıcı müəlliflərinin fəaliyyətinə dair konseptual tədqiqatlar yer almışdır.

Göründüyü kimi, bu buraxılışın məqsədi yalnız tarixə nəzər salmaq deyil, həm də müasir dövrdə elmi-pedaqoji mətbuatın qarşısında duran çağırışları və inkişaf perspektivlərini müəyyənləşdirməkdir. İnformasiya cəmiyyətində elmi nəşrlərin dayanıqlılığı, müəllim və tərbiyəçi hazırlığında elmi mətbuatın rolu, elmi pedaqoji jurnalistikanın müasir konsepsiyası və metodoloji istiqamətləri buraxılışın araşdırma predmetinə çevrilmişdir.

Elmi-pedaqoji mətbuat təkcə məlumat ötürən vasitə deyil, həm də pedaqoji düşüncənin inkişafı, elm və təhsilin qarşılıqlı əlaqəsinin gücləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması, təhsil siyasətinin formalaşması və cəmiyyətin maariflənməsi baxımından strateji platformadır. Bu mənada onun keçmişini öyrənmək bugünün və gələcəyin elmi pedaqoji nəşr modelini müəyyənləşdirmək, eyni zamanda təhsilin və pedaqoji fikrin inkişafı üçün zəngin nəzəri və metodiki bazanın təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycan təhsili və pedaqogikası üçün mühüm əhəmiyyət daşıyan bu xüsusi buraxılışın elmi ictimaiyyət, müəllimlər, tədqiqatçılar və jurnalistlər üçün dəyərli mənbə olacağına inanıram.

Hörmətlə,
Böyükağa Mikayıllı,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
"Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalının baş redaktor əvəzi

İÇİNDƏKİLƏR / 2025

**İntiqam Cəbrayılov**
Elmi-pedaqoji mətbuat tarixinə “Məktəbəqədər və ibtidai təhsil” jurnalından baxış 9-23

.............................................................................................................................

**Ənvər Abbasov**
Elmi-pedaqoji yazıların dili: nəzəri və praktik aspektlər 25-37

.............................................................................................................................

**Hümeyir Əhmədov, Pərvin Əlizadə**
Azərbaycan milli mətbuatının formalaşması və inkişaf xətti: tarixi-mənəvi kontekstdə elmi təhlil 39-52

.............................................................................................................................

**Böyükağa Mikayıllı**
Elmi-pedaqoji nəşrlər: təhsilin və pedaqoji elmin inkişafına təsir imkanları 53-70

.............................................................................................................................

**Müjkan Məmmədzadə**
Hərbi mətbuatın informasiya müharibəsində rolu 71-81

.............................................................................................................................

**Surə Seyid**
Azərbaycanda internet media və informasiya təhlükəsizliyi məsələləri 83-97

.............................................................................................................................

**Elnarə Məmmədova**
“Azərbaycan məktəbi” jurnalının pedaqoji məzmun strategiyası: aparıcı alimlərin elmi irsi kontekstində təhlil 99-116

.............................................................................................................................

**Ləman Məmmədova**
Azərbaycanda uşaq mətbuatının inkişaf tarixi 117-129

.............................................................................................................................

CONTENTS / 2025

**Intigam Jabrayilov**
A view of the history of scientific-pedagogical press through the journal "Preschool and primary education" 9-23

**Anvar Abbasov**
The language of scientific and pedagogical writing: theoretical and practical aspects 25-37

**Humeyir Ahmadov, Parvin Alizade**
Formation and development of the Azerbaijani national press: a scientific analysis in the historical and spiritual context 39-52

**Boyukagha Mikayilli**
Scientific-pedagogical publications: opportunities for impact on the development of education and pedagogical science 53-70

**Mujkan Mammadzade**
The role of military press in the information warfare 71-81

**Sure Seyid**
Internet media and information security issues in Azerbaijan 83-97

**Elnara Mammadova**
Pedagogical content strategy of the "Azerbaijan journal of educational studies": an analysis in the context of leading scholars' scientific heritage 99-116

**Laman Mammadova**
The development history of children's press in Azerbaijan 117-129

# A VIEW OF THE HISTORY OF SCIENTIFIC-PEDAGOGICAL PRESS THROUGH THE JOURNAL "PRESCHOOL AND PRIMARY EDUCATION"

**Intigam Jabrayilov**

Institute of Education of the Republic of Azerbaijan,
Head of the Department of Theory and History of Education,
Doctor of Pedagogical Sciences, professor
E-mail: intiqamcebrayilov@gmail.com
https://orcid.org/0000-0003-2437-5926

**Abstract.** The article analyzes, within a scientific-historical context, the development trajectory of the journal "Preschool and Primary Education", which has played a significant role in the formation and advancement of Azerbaijan's scientific-pedagogical press since 1970. The study identifies structural, thematic, and design-related changes in the journal over time, as well as the gradual renewal and internationalization of its editorial board. It is emphasized that the journal, published under the leadership of Professor Yahya Karimov from 1970 to 2021, and since 2021 led by education researcher and journalist Boyukagha Mikayilli, has contributed to shaping the scientific-theoretical and methodological foundation of Azerbaijani education, particularly in the fields of preschool and primary education. Based on an analysis of materials published in the journal from 1970 to 2025, the study summarizes key trends related to educational reforms, the implementation of subject curricula, pedagogical innovations, teacher–student relations, and methodological advancements in the teaching process.
**Keywords:** scientific-pedagogical press, Preschool and Primary Education journal, educational reforms, history of pedagogical thought, innovative approaches, stages of development.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5019
**To cite this article:** Jabrayilov I. (2025). A view of the history of scientific-pedagogical press through the journal "Preschool and primary education". *Journal of Preschool and Primary Education*, Special issue – "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 9-23.
**Article history:** received – 10.06.2025; accepted – 17.07.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# ELMİ-PEDAQOJİ MƏTBUAT TARİXİNƏ "MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL" JURNALINDAN BAXIŞ

**İntiqam Cəbrayılov**

Azərbaycan Respublikası Təhsil İnstitutu,
Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri,
pedaqogika üzrə elmlər doktoru, professor
E-mail: intiqamcebrayilov@gmail.com
https://orcid.org/0000-0003-2437-5926

**Annotasiya**. Məqalədə Azərbaycan elmi-pedaqoji mətbuatının formalaşma prosesində və inkişafında mühüm rol oynayan "Məktəbəqədər və ibtidai təhsil" jurnalının 1970-ci ildən bu günədək keçdiyi inkişaf yolu elmi-tarixi kontekstdə təhlil olunur. Araşdırma nəticəsində jurnalın struktur, məzmun və tərtibatında baş verən dəyişikliklər, eləcə də redaksiya heyətinin tərkibinin zamanla yenilənməsi və beynəlmiləlləşməsi müəyyənləşdirilmişdir. 1970–2021-ci illərdə professor Yəhya Kərimovun, 2021-ci ildən isə təhsil sahəsi üzrə tədqiqatçı, jurnalist Böyükağa Mikayıllının rəhbərliyi ilə nəşr edilən jurnalın Azərbaycan təhsilinin, xüsusilə məktəbəqədər və ibtidai təhsil sahələrinin inkişafında elmi-nəzəri və metodik baza formalaşdırdığı vurğulanır. Tədqiqatda 1970–2025-ci illər ərzində jurnalda dərc olunmuş materialların təhlili əsasında təhsil islahatları, fənn kurikulumlarının tətbiqi, pedaqoji innovasiyalar, müəllim-şagird münasibətləri və tədris prosesində metodik yeniliklər kimi istiqamətlər üzrə əsas tendensiyalar ümumiləşdirilmişdir.

**Açar sözlər:** elmi-pedaqoji mətbuat, "Məktəbəqədər və ibtidai təhsil" jurnalı, təhsil islahatları, pedaqoji fikir tarixi, innovativ yanaşmalar, inkişaf mərhələləri.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5019
**Məqaləyə istinad:** Cəbrayılov İ. (2025). Elmi-pedaqoji mətbuat tarixinə "Məktəbəqədər və ibtidai təhsil" jurnalından baxış. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində", səh. 9-23.
**Məqalə tarixçəsi:** göndərilib – 10.06.2025; qəbul edilib – 17.07.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Elmi araşdırmalar və tarixi təcrübə göstərir ki, mətbuat hər bir xalqın milli yaddaşının formalaşmasında, intellektual potensialının möhkəmlənməsində və maarifçilik dəyərlərinin inkişafında mühüm rol oynamışdır. Mətbuat təkcə informasiya daşıyıcısı deyil, həm də cəmiyyətin sosial-mədəni təfəkkürünü, ideya dünyasını və mənəvi dirçəlişini əks etdirən mühüm ictimai institut kimi çıxış edir. Azərbaycanda yaranan "Əkinçi", "Ziya", "Kəşkül", "Şərqi-rus", "İrşad", "Molla Nəsrəddin" kimi qəzet və jurnallar milli özünüdərkin formalaşması, maarifçilik ideyalarının yayılması və elm-təhsil həyatının inkişafında əvəzsiz rol oynamışlar. Azərbaycan mətbuatının inkişaf tarixi, eyni zamanda elmi-pedaqoji fikrin təşəkkül tarixidir. Mətbuat vasitəsilə elmi ideyalar ictimaiyyətə çatdırılmış, müəllim və tədqiqatçıların təcrübəsi paylaşılmış, təhsil siyasətinin istiqamətləri formalaşmışdır. Xüsusilə elmi-pedaqoji mətbuat müəllimlərin, alimlərin fikir mübadiləsi platforması kimi maarifçilik proseslərinin sistemləşməsinə və milli təhsil modelinin elmi əsaslarının qurulmasına şərait yaratmışdır. Bu baxımdan, 1970-ci ildən "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 2009-cu ildən isə "Məktəbəqədər və ibtidai təhsil" adı ilə nəşr olunan jurnalın tarixinin araşdırılması mühüm elmi əhəmiyyət kəsb edir. Jurnalın fəaliyyəti Azərbaycan elmi-pedaqoji mətbuatının ümumi inkişaf trayektoriyasını, təhsil siyasətinin dəyişən prioritetlərini və pedaqoji düşüncənin mərhələli inkişafını izləməyə imkan verir.

Tədqiqatın məqsədi "Məktəbəqədər və ibtidai təhsil" jurnalının elmi-pedaqoji mətbuat nümunəsi kimi keçdiyi tarixi inkişaf yolunu sistemli şəkildə araşdırmaq, 1970-ci ildən bu günədək jurnal səhifələrində dərc olunan məqalələrin mövzu və məzmun istiqamətlərini təhlil etmək, jurnalın pedaqogika elminə və təhsil tarixinin inkişafına verdiyi töhfələri faktlarla əsaslandırmaqdan ibarətdir.

Aparılan təhlillər göstərir ki, "Məktəbəqədər və ibtidai təhsil" jurnalında müxtəlif illərdə dərc olunan elmi və metodik məqalələr bu gün də pedaqoji baxımdan aktuallığını saxlayır, təhsilin məzmunu, metodikası və idarəetməsi ilə bağlı müasir yanaşmaların formalaşmasına elmi dayaq rolunu oynayır.

**Problemin qoyuluşu**

Bu gün mətbuat tarixindən bəhs edərkən elmi-pedaqoji mətbuatın cəmiyyətdə oynadığı rolu, xalqın maariflənməsinə, elm və mədəniyyətin inkişafına təsirini diqqətə çatdırmaq vacibdir. Hazırda ölkəmizdə çox sayda mətbu orqanın, elmi və publisistik nəşrlərin mövcudluğu milli mətbuatımızın zəngin tarixə malik olduğunu bir daha təsdiqləyir. Elmi-pedaqoji mətbuat orqanı kimi hər bir jurnalın yarandığı dövrü, keçdiyi tarixi inkişaf yolunu, onun əsas məqsəd və vəzifələrini

araşdırmaq, müvafiq elm sahəsinə verdiyi töhfələri üzə çıxarmaq üçün təhlillər aparmaq mümkündür. Bu kontekstdən yanaşaraq, 1970-ci ildən "İbtidai məktəb və məktəbəqədər tərbiyə" adı ilə nəşr olunmağa başlayan, elmi-pedaqoji rola malik (elmi-nəzəri əsasların yayılması, metodik yeniliklərin təşviqi, təcrübə mübadiləsi platforması, elmi dilin formalaşması), cəmiyyət və təhsil ictimaiyyəti üçün mühüm əhəmiyyət kəsb edən "Məktəbəqədər və ibtidai təhsil" jurnalının araşdırılması zəruridir.

**Tədqiqat metodları**

Araşdırma prosesində ədəbiyyatın öyrənilməsi, tarixi-müqayisəli, nəzəri təhlil, tərkib, ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

## Əsas hissə / Main part

1970-ci ildə "Azərbaycan məktəbi" jurnalının əlavəsi kimi nəşr edilən və metodik məcmuə statusunda olan bu mətbu orqan sonralar – 2000-ci ildən etibarən Azərbaycan Respublikasının Təhsil Nazirliyinin (indiki ETN) elmi-metodik nəşri kimi fəaliyyətini davam etdirmişdir. 2009-cu ildə jurnalın əvvəlki adı ("İbtidai məktəb və məktəbəqədər tərbiyə") dəyişdirilərək "Məktəbəqədər və ibtidai təhsil" adlandırılmışdır. Jurnalın ilk baş redaktoru pedaqogika elmləri doktoru, professor Yəhya Şəfi oğlu Kərimov olmuşdur. Professor Yəhya Kərimovun uzun illər baş redaktor kimi fəaliyyət göstərdiyi bu jurnalda M.Həmzəyev, A.Rəhimov, Ə.Qədimbəyova, M.İsmixanov, N.İsmayılzadə, P.Hacıyev, Z.Osmanov, H.Həsənov, S.Abasova və başqaları redaksiya heyətinə üzv olmuşlar. Sonrakı illərdə jurnalın redaksiya heyətinə A.Əhmədov, A.Abbasov, A.Muradov, A.Zamanov, M.Həsənov, R.Əliyev, A.Adıgözəlov, V.Əmiraslanov, X.Talıbova və başqaları cəlb edilmiş, eyni zamanda jurnalın formatında müəyyən dəyişikliklər aparılmışdır.

2021-ci ildən "Məktəbəqədər və ibtidai təhsil" jurnalının baş redaktoru vəzifəsinin icrası Böyükağa Əlisafa oğlu Mikayıllıya həvalə edilib. Qeyd etməliyik ki, həmin dövrdən geniş tərkibdə formalaşdırılan beynəlxalq redaksiya heyəti və redaksiya şurası "Məktəbəqədər və ibtidai təhsil" jurnalının beynəlxalq aləmdə tanınması, nüfuzunun artırılması, daha çox oxucu marağının yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Hazırda jurnalın yaradıcı heyəti redaksiya üzvləri (redaksiya işçiləri), idarə heyəti və redaksiya şurasından ibarətdir. Redaksiya şurasına və redaksiya heyətinə yalnız ölkə daxilində deyil, ölkə xaricində də fəaliyyət göstərən səriştəli mütəxəssislər də cəlb edilmişlər. Uğurcan Toqay (Türkiyə Milli Təhsil Nazirliyi), Aqşin Əliyev (Pekin Xarici Dillər Universiteti), Natalya Naumova (Rusiya Federasiyası Samara Humanitar Akademiyası), Tran

Mai Uoc (Vyetnam Bank Universiteti) jurnalın beynəlxalq redaksiya heyətində, Buket Akkoyunlu (Çankaya Universiteti, Türkiyə), Doris Bühler-Niederberger (Vuppertal Universiteti, Almaniya), Eve Ayzenşmit (Tallin Universiteti, Estoniya), Güljahon Jumanazarova və Nodira Soatova (Jizzax Dövlət Pedaqoji Universiteti, Özbəkistan), Pavel Luşin və Valeri Kiricuk (Ukrayna Pedaqoji Elmlər Akademiyası), Surayyo Eşenkulova (Alfranaqus Beynəlxalq Universiteti, Özbəkistan) və Vira Remajevskaya ("Levenia" Təhsil və Reabilitasiya Mərkəzi) kimi tanınmış elm xadimləri beynəlxalq redaksiya şurasında təmsil olunmuşlar. Onların təmsilçiliyi jurnalın nəzəri və praktik əhəmiyyətinin artırılmasına, jurnalda nəşr edilən məqalələrin elmi yeniliyinin müasir elmin tələblərinə uyğun daha ciddi əsaslarla şərhinə təsir göstərir.

Nəşrə başladığı dövrdən bu günədək jurnal səhifələrində Azərbaycan təhsilinin, o cümlədən məktəbəqədər və ibtidai təhsilin aktual problemlərini əks etdirən, cəmiyyəti düşündürən, maraq doğuran mövzulara geniş yer verilmişdir. Jurnalın hər nömrəsində çap olunmuş məktəbəqədər və ibtidai təhsilin məzmunu, təlim-tərbiyə işinin təşkili, təhsilin idarə olunması, fənlərin tədrisi, müəllimlərin iş təcrübəsi, məktəb, ailə, müəllim-valideyn əlaqələri, müəllimlərin özünütəhsili və digər məsələlərlə bağlı məqalələr müəllimlərə elmi-metodik dəstək baxımından əhəmiyyətli olmuşdur.

Jurnalın 1970-ci illərdə nəşr olunan nömrələrində məktəbəqədər tərbiyə ilə müqayisədə ibtidai təhsil, ibtidai məktəb problemlərinə daha çox yer verilmişdir. Həmin dövrlərdə Azərbaycan pedaqogika və psixologiya elmlərinin görkəmli nümayəndələri Yusif Talıbov, Yəhya Kərimov, Şəmistan Mikayılov, Muxtar Həmzəyev, Soltansəlim Axundov, Ağarəhim Rəhimov, Vidadi Xəlilov, Camal Əhmədov, Ələddin Qədirov, Məcid İsmixanov və başqaları jurnalın müxtəlif nömrələrində maraq doğuran elmi məqalələrlə çıxış etmişlər. Məsələn, "İbtidai siniflərdə kollektivin təşkili" [Talıbov, Y.R., 1971], "Hər bir şagirdə diqqətlə yanaşmalı" [Axundov, S.H., 1971], "Təlim prosesində hafizə fəaliyyətini təşkil etməyin səmərəli yolları" [Qədirov, Ə.Ə., 1971], "Ev şəraitində şagirdin müstəqil işinin xüsusiyyətləri və onun ibtidai təlimdə yeri" [İsmixanov, M.A., 1976], "Lüğət orfoqrafik işlər" [Kərimov, Y.Ş., 1971], "Dərsə verilən müasir tələblər haqqında" [Kərimov, Y.Ş., 1976], "İbtidai siniflərdə riyaziyyat kursunda nəzəri elementlər" [ Sadıqov, N.A., Həmidov, S.S., 1971], "Cümlə üzərində iş monoloji nitqin inkişafının hazırlıq mərhələsi kimi" [Rəhimov, A.N., 1981] və s. mövzularda məqalələr təhsilin aktual problemlərini əks etdirir.

1970-ci illərdə jurnal səhifələrində altı yaşlı uşaqların məktəbə hazırlanması problemi ölkəmizdə təhsil siyasətinin əsas prioritetlərindən biri kimi qeyd olunur. Bu məsələ ilə bağlı yeni proqramda altıyaşlıların məktəbə hazırlanması işinin cəmiyyət üçün əhəmiyyəti, eyni zamanda onun həyata keçirilməsi yolları göstə-

rilir. Tədqiqatın nəticələrindən məlum olur ki, həmin dövrdə ölkədə məktəbəqədər təhsil müəssisələri və hazırlıq qruplarında uşaqların nitqinin, fonetik eşitmə qabiliyyətinin, təfəkkürünün, öyrənmə marağının inkişafına diqqət artırılmışdır.

1970-ci illərin jurnal səhifələrində ölkəmizdə təhsilin inkişafına, ilk növbədə, məktəbəqədər təhsil müəssisələrinə diqqətin artırılması xüsusilə vurğulanmış, uşaqların məktəb təliminə hazırlanması sahəsində valideynlərin işi ilə bağlı məsələlərə yer verilmiş, onların konkret vəzifələri, öhdəlikləri izah edilmişdir. Bu baxımdan, uşaqların fiziki və əqli tərbiyəsinə diqqət artırmağın məktəbəhazırlıq üçün əhəmiyyəti geniş şərh olunmuşdur [Altı yaşlı uşaqların məktəbə hazırlanması., 1971].

Tərbiyə məsələlərinə ciddi əhəmiyyət verilməsi 1970-ci illərin jurnal səhifələrində diqqət çəkir. Kollektiv vasitəsi ilə tərbiyə, tərbiyə işində fərdi yanaşma, çətin tərbiyə olunan uşaqlarla iş və əqli tərbiyə məsələləri geniş şəkildə verilmişdir. Prof. Y.R.Talıbovun tərbiyə işinin təşkili mövzusuna dair məqaləsində müəllimin rolu ön plana çəkilir. O, haqlı olaraq qeyd edir ki, ibtidai sinif müəllimlərinin uşaq kollektivini təşkil etməsi işi onun uşaqlarla ilk tanışlığından başlayır. İbtidai siniflərdə yenicə təşəkkül etməkdə olan uşaq kollektivi müəllimin ətrafında birləşir və onun daimi rəhbərliyinə ehtiyac duyur [Talıbov, Y.R., 1971]. Ona görə də hər bir müəllim uşaqlara diqqətli yanaşmaqla onların kollektiv ruhda tərbiyəsinə, hər bir uşağın fərd olaraq şəxsiyyətinin inkişafına çalışmalıdır.

Tədqiqatçı alim Soltansəlim Axundov da nəşr etdirdiyi məqalələrində tərbiyə məsələlərinə, o cümlədən kollektivdə tərbiyə, fərdi yanaşma yolu ilə tərbiyə işinə böyük əhəmiyyət verilməsini məqsədəuyğun hesab edir. O, təlimin tərbiyələndirici funksiyasını ön plana çəkməklə, eyni zamanda bütövlükdə tərbiyə işini cəmiyyət üçün xüsusi dəyər kimi qiymətləndirir. Alim, həmçinin hər bir müəllimin öz şagirdlərinin xarakterinə, öyrənmə qabiliyyətlərinə, şəxsi keyfiyyətlərinə dərindən bələd olmasının vacibliyini nümunələrlə əsaslandırır. Müəllimin fərdi yanaşması şagirdin şəxsiyyət kimi inkişafına ciddi şəkildə təsir göstərir [Axundov, S.H., 1971]. 1970-ci illərdə jurnal səhifələrində əks olunmuş məqalələrin mövzusu, məzmunu həmin dövrdə cəmiyyətdə tərbiyə işinə ciddi diqqət yetirildiyinin təzahürü kimi qiymətləndirilə bilər. Jurnalın hər yeni nəşrində aktuallığı ilə diqqəti cəlb edən pedaqoji problemlərin tədqiq edildiyinin şahidi oluruq. Jurnalda həm tədqiqatçı-alimlərin araşdırmalarının nəticələri, həm də qabaqcıl iş təcrübəsi olan müəllimlərin məqalələrinə yer verilir. Ayrı-ayrı nömrələrdə ardıcıl olaraq ibtidai siniflərdə Azərbaycan dili, riyaziyyat, təsviri incəsənət, musiqi və digər fənlərin tədrisinə dair tədqiqat materialları, eləcə də sinifdənxaric iş, qabaqcıl müəllimlərin təcrübələri, məktəbəqədər tərbiyə işinin təşkili məsələləri əhatə olunur.

1980-ci illərdə nəşr olunan məqalələr isə məktəbəqədər və ibtidai təhsil

pedaqogikası, fənlərin tədrisi metodikası və pedaqoji psixologiyanın müxtəlif problemlərini əhatə edir. Bu illərdə dərc olunan yazılarda yeni əlifba dərsliyi ilə işləmək qaydaları [Kərimov, Y.Ş., 1981], ifadə yazılar haqqında [Kərimov, Y.Ş., 1981], monoloji nitq üzrə işlərin linqvistik-didaktik əsasları [Rəhimov, A.N.,1981], metodbirləşmələrin təşkili və onlara rəhbərlik məsələləri [Səlimxanova, X., 1981], qabaqcıl təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması [Məhərrəmova, M., 1981], riyaziyyatdan yoxlama yazı işlərinin təşkili [Osmanov, Z., 1981] ilə bağlı elmi məqalələr jurnalın müxtəlif nömrələrində dərc olunmuşdur. Jurnalın səhifələrində "Proqramlar təkmilləşdirilir", "Abdulla Şaiqin anadan olmasının 100 illiyi münasibətilə", "Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə" verilən yazılar da maarifləndirici əhəmiyyət daşıyır.

Bu dövrdə jurnalın səhifələrində dərc olunan psixologiyaya dair məqalələr mövzu və məzmun baxımından müasir dövr üçün də əhəmiyyətli hesab olunur. "Uşaqlarda diqqətin xüsusiyyətləri və təlim prosesində onun nəzərə alınması" [İbrahimxəlilova, N., 1982], "Kiçik yaşlı məktəblilərdə təxəyyülün inkişafı" [Abdullayeva, Ş., 1986], "Məktəblilərdə təlim materiallarını anlamanın xüsusiyyətləri" [Həmzəyev, M., Məmmədov, M., 1986], "Kiçik yaşlı məktəblilərdə təlimə münasibətin formalaşdırılması haqqında" [Əlizadə, H.Ə., 1987] adlı məqalələrdə elmi-nəzəri və praktik məsələlər vəhdət təşkil edir.

Müasir dövrdə şagirdlərin oxuyub-anlaması, ilk növbədə, ibtidai siniflərdə təlimin mühüm pedaqoji problemlərindən biri kimi dəyərləndirilir. Tədqiqatçılar M.Həmzəyev və M.Məmmədov yazırlar ki, "anlama" çox geniş anlayış olmaqla, struktur etibarilə iki böyük elementdən ibarətdir:

1) şagirdlərin bilik səviyyəsi, dünyagörüşü, həyat təcrübəsi, düşünmə qabiliyyəti;

2) obyektin-mətnin mürəkkəbliyi, çətinliyi və gerçəkliyi inikas etdirmək imkanları sözlər və söz birləşmələri ilə ifadə vasitələri [Həmzəyev, M., Məmmədov, M., 1986].

Məqalədə belə bir fikir əsaslandırılır ki, anlama şagirdlərin təlimdə öyrənmə zamanı düşünmə prosesinin nəticəsi kimi meydana çıxır və bu da, ilk növbədə, təfəkkürün dərinləşməsinə, inkişafına, keyfiyyətcə yeni məzmun kəsb etməsinə gətirib çıxarır. İrəli sürülən bu yanaşma müasir dövr üçün də aktualdır. Təsadüfi deyil ki, oxuyub-anlama hazırda tətbiq olunan Azərbaycan dili fənn kurikulumunda məzmun xətti kimi verilib və fənnin tədrisi keyfiyyətinin yüksəldilməsi, təlim nəticələrinin reallaşdırılması, şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi bu məsələyə diqqətli yanaşmadan xeyli dərəcədə asılıdır. Hazırda məktəblərdə monitorinqlərin bir istiqamətinin oxuyub-anlama məzmun xətti üzrə keçirilməsi də problemin nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləyir.

Tədqiqatçı H.Ə.Əlizadənin kiçik yaşlı məktəblilərdə təlimə münasibətin for-

malaşmasına həsr olunmuş məqaləsində isə təlimin təşkili, onun məzmunu, strukturu, prinsip və metodlarının daha da təkmilləşdirilməsi, idrak fəallığının təmin edilməsi, yeni iş formalarının tətbiqi və digər məsələlərin əhəmiyyətindən bəhs edilir. Qeyd olunur ki, dərs prosesində bu cəhətlərlə bağlı məqsədyönlü işin aparılması bilavasitə təlimə düzgün münasibətin formalaşdırılmasına xidmət edir.

1990–1996-cı illərdə jurnalın nəşrində müəyyən fasilələr yaranır, yalnız bir neçə nömrə çap olunur. 1997-ci ildən jurnal fəaliyyətini əvvəlki qayda ilə yenidən davam etdirir. Jurnalın 1997-ci il 1-ci nömrəsində nəşr sahəsində yaranmış çətinliklərə aydınlıq gətirilir. Oxuculara müraciət olaraq jurnalın 3-cü səhifəsində qeyd edilir ki, bugünkü bazar iqtisadiyyatı şəraitinin çətinliklərinə baxmayaraq, Respublika Təhsil Nazirliyinin Kollegiyası məcmuənin nəşrini bərpa etmək qərarına gəlmişdir. Bu müraciətdə məcmuənin hər bir nömrəsinin altı çap vərəqi olmaqla ildə dörd dəfə (rübdə bir dəfə) nəşr ediləcəyi barədə məlumat verilir, eyni zamanda jurnalın strukturu və hansı mövzulara dair məqalələrin dərc edilməsi haqqında məlumatlar qeyd olunur:

1) məktəbəqədər tərbiyə və ibtidai təlim üzrə proqramlar;

2) dərsliklər, dərs və məşğələ vəsaitlərinin müzakirəsi və təkmilləşdirilməsi istiqamətləri;

3) proqramlara metodik göstərişlər, proqram materiallarının planlaşdırılması (saatlar üzrə bölgü);

4) ana dili və riyaziyyatdan yoxlama yazı işləri;

5) proqramda olan yazıçı, rəssam, bəstəkarların yaradıcılığı barədə yığcam məlumat;

6) şagirdlər üçün sinifdənxaric oxu materialı;

7) ana dili və riyaziyyatdan didaktik oyunlar;

8) suallara cavab;

9) müəllim və tərbiyəçilər üçün yeni kitablar barədə tənqid və biblioqrafiya;

10) ali və orta ixtisas pedaqoji məktəblərində kadr hazırlığı;

11) qabaqcıl məktəb, məktəbəqədər tərbiyə müəssisəsi, pedaqoq və tərbiyəçi-müəllimlərin təcrübəsi və s.

Göründüyü kimi, jurnal əvvəlki ənənələrinə sadiq qalaraq, müstəqillik dövründə ibtidai məktəb və məktəbəqədər tərbiyə problemləri ilə bağlı nəzəri və praktik məsələləri özündə əks etdirən elmi-pedaqoji yazıların nəşrini aktual hesab etmişdir. Bu dövrün nəşrlərində, artıq müstəqil Azərbaycan Respublikasının təhsil siyasətini əks etdirən elmi-pedaqoji məqalələr, milli təhsil sisteminin inkişafına xidmət edən tədqiqat materialları nəşr olunmağa başlayır. Təlim müvəffəqiyyətinin 9 balla qiymətləndirilməsi normaları, Azərbaycan Respublikasının dövlət rəmzlərinin öyrədilməsi, şagirdlərin təlim yükünün müəyyənləşdirilməsi, yeni proqramlarla işin təşkili, altıyaşlıların təlim fəaliyyətinin psixoloji xüsusiy-

yətləri və digər məsələlərlə bağlı jurnal səhifələrində maraq doğuran yazılar və elmi məqalələr dərc olunur.

"Altıyaşlılarla təlimin təşkili" adlı məqaləsində prof. Y.Ş.Kərimov dünya təcrübəsindən çıxış edərək, təlimin altı yaşdan başlanmasının elmi izahını verir. Qeyd edir ki, dünyanın əksər ölkələrində təlimə altı, bir qismində beş, Yaponiyada isə dörd yaşından başlanır. Respublikamızda altı yaşdan təlimlə bağlı müzakirələr XX yüzilliyin 70-ci illərindən başlanmışdı. 1980-ci illərdə bu problem üzrə geniş eksperimental tədqiqatlar aparılmışdır. Bir müddət altı və yeddi yaşdan təlim, yəni üçillik və dördillik ibtidai təlim sistemi paralel fəaliyyət göstərmişdir. Nəhayət, 1992-ci ildən, bütövlükdə, altı yaşdan təlimə başlanmışdır [Kərimov, Y.K., 1998].

Bu məsələ ilə bağlı jurnalın ayrı-ayrı nömrələrində məqalələrin dərc olunması həmin dövrdə ibtidai siniflərdə yeni tələblərə uyğun təlimin daha səmərəli təşkilinə istiqamət vermiş, müəllimlərə metodik dəstək baxımından əhəmiyyətli olmuşdur.

1999-cu ildə Ulu Öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq edildikdən sonra təhsil sahəsində köklü islahatlar başlandı. Bu islahat proqramı təhsilə xidmət edən nəşrlərin də qarşısında ciddi vəzifələr qoyurdu. Təhsilin məzmununun yenilənməsi, müəyyən struktur dəyişiklikləri, idarəetmə sahəsindəki islahatlar bu məsələlərlə bağlı yeni araşdırmaların aparılmasını tələb edirdi. Araşdırmaların nəticələri isə elmi jurnallarda, məcmuələrdə çap olunmaqla elmi-pedaqoji ictimaiyyətə çatdırılmalı idi. Ona görə də yeni tarixi şəraitdə jurnal öz işini yeni tələblər əsasında təşkil etməklə fəaliyyətini davam etdirdi. Bu dövrdə islahatın yeni mərhələsində məktəb həyatında baş verən yeniliklər, təlim-tərbiyə işinə innovativ yanaşmalar, təhsilin dövlət standartlarının müzakirəsi və tətbiqi, 2002–2003-cü tədris ilində beşyaşlıların təlimə cəlb olunması imkanlarının eksperimental yolla müəyyənləşdirilməsi və digər pedaqoji-psixoloji problemlərlə bağlı məqalələr çap olundu. Məqalələr o dövrdə Azərbaycanda məktəbəqədər və ibtidai təhsilin inkişafının aydın mənzərəsini öyrənməyə imkan verirdi.

Jurnaldan beşyaşlıların təlimə cəlb olunmasının nəticələri barədə geniş məlumat əldə etmək mümkündür. Burada göstərilir ki, 2002–2003-cü tədris ilində beşyaşlıların təlimə cəlb olunması imkanlarını müəyyənləşdirmək məqsədilə Bakı şəhərində İ.Əfəndiyev adına Elitar Gimnaziyada və 59 nömrəli məktəbəqədər tərbiyə müəssisəsində (Bakı şəhəri Nizami rayonunda) beşyaşlılardan ibarət bir sinif təşkil olunmuşdur. Eksperiment bir tədris ili müddətində aparılmış və sonra dayandırılmışdır. Bununla yanaşı eksperiment nəticələrinin qənaətbəxş olduğu göstərilmişdir.

XXI yüzilliyin əvvəllərində Azərbaycanda ardıcıl və sistemli təhsil islahatla-

rının aparılması təlimdə inteqrativ yanaşmaların tətbiqinə, yeni məzmunun formalaşdırılmasına əlverişli imkanlar yaratmışdır. 2004-cü ildən dərs ilinin sentyabrın 15-dən başlanması, beşgünlük tədris həftəsinə keçilməsi təlimin yeni yanaşmalar əsasında təşkilini daha da aktuallaşdırdı. Elmi-pedaqoji mətbuat səhifələrində bu məsələ ilə bağlı aparılan müzakirələr, dərc olunan məqalələr təlimin təşkilinin səciyyəvi xüsusiyyətlərinə aydınlıq gətirilməsinə zəmin yaratdı.

Jurnalın səhifələrində əməkdaşlıq pedaqogikası, şagirdlərin təlim marağının artırılması, istedadlı uşaqlarla işin təşkili, uşaqların məktəb təliminə psixoloji hazırlığı, dərslik problemi, şagirdlərin idrak fəallığının inkişaf etdirilməsi, uşaq bağçası ilə məktəb arasında varisliyin təmin olunması, böyüyən nəslin vətənpərvərlik tərbiyəsində Heydər Əliyev irsindən istifadə və digər problemlərə həsr olunmuş elmi məqalələrin çap olunması təlimin yeni yanaşmalar vasitəsilə təşkilində praktik istiqamət baxımından əhəmiyyətli rol oynadığını söyləməyə əsas verir.

XXI yüzilliyin əvvəllərindən baş redaktor Y.Ş.Kərimovla yanaşı, jurnalın səhifələrində Vidadi Xəlilov, Xumara Səlimxanova, Vidadi Bəşirov, Dilarə Dostuzadə, Laləzar Cəfərova, Xalidə Talıbova, Şərafət Baxışova, Emiliya Kərimova, Bibixanım İbadova, Aygün Məcidova, İlhamə Əsədova, Zülfiyyə Vəliyeva, Səlahət Musayeva və başqalarının da mütəmadi olaraq çıxış etdiklərinin, məktəbəqədər təhsil və tərbiyə, ibtidai sinif və təhsil tarixinin problemlərinə dair məqalələrə yer verilməsinin şahidi oluruq.

Y.Ş.Kərimovun təlimin təşkili, dərslik problemi, V.C.Xəlilovun uşaqların musiqi-estetik tərbiyəsi, ibtidai siniflərdə fənlərin tədrisinin elmi-pedaqoji əsasları, L.K.Cəfərova və S.Ş.Musayevanın məktəbəqədər təhsilin məzmunu, D.Ə. Dostuzadənin isə sağlamlıq imkanları məhdud olan uşaqların idrak fəallığının inkişaf etdirilməsi, Ş.A.Baxışovanın məktəbəqədər yaşlı uşaqların təlim yükünün müəyyənləşdirilməsi, X.A.Talıbova və X.A.Həmidovanın şəxsiyyətin formalaşdırılması, A.Ə.Məcidovanın ibtidai siniflərdə riyaziyyatın tədrisi, informasiya texnologiyalarından istifadə, İ.M.Əsədovanın pedaqoji kollektivin peşəkar fəaliyyəti, H.M.Əhmədov və V.P.Bəşirovun təhsil tarixi, B.O.İbadovanın fənn kurikulumları və digər problemlərlə bağlı tədqiqat nəticələri də jurnalın müxtəlif nömrələrində dərc edilmişdir.

Jurnalda dərc edilən məqalələr müxtəlif mövzulara, fərqli problemlərə həsr olunsa da, hər bir məqalənin məzmununda dərs prosesinin təşkilinin aktual məsələlərinə bu və ya digər şəkildə toxunulur, təlim prosesində innovativ yanaşmalara üstünlük verilməsinin vacibliyindən bəhs edilir, təlimin struktur və məzmunu, dərs prosesində müəllimin fəaliyyəti, müəllim-şagird münasibətləri, fənn kurikulumlarının tətbiqi imkanları və digər məsələlər təhlil edilir, ümumiləşdirmələr aparılır, müəllimlərə metodik istiqamətlər verilir. Qeyd edilir ki, dərs prosesində şagirdlər müəllimlə bərabərhüquqlu subyekt kimi fəaliyyət göstərməli,

problem irəli sürülməli, həlli şagirdlərdən tələb edilməli, onların fəallığına şərait yaradılmalı, tədqiqat aparmalı, biliklərə müstəqil yiyələnməli, müsahibə, debat, diskussiya və digər interaktiv metod və texnikalardan istifadə üçün zəmin hazırlanmalıdır.

2021-ci ildən etibarən jurnalın məzmun istiqamətləri müasirləşmiş, innovasiyalara, innovativ yanaşmalara xüsusi diqqət ayrılmış, beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində müəyyən işlər həyata keçirilmişdir. Jurnal səhifələrində təhsil strategiyası, pedaqogika, təhsil tarixi, metodika, ailə və məktəb, dünya təcrübəsi və digər istiqamətlərdə məqalələrin nəşri maraqla qarşılanır. Jurnalın ayrı-ayrı nömrələrində "Məktəbəqədər təhsil sistemində mövcud problemlər və onların həlli yolları" [Cəfərova, L., Nəsibova, Ü., 2021], "Məktəbəqədər təhsil: dünya təcrübəsi-tarixi və müasir aspekt" [Mikayıllı, B., 2022], "Müəllimlərin sertifikasiyası: Amerika Birləşmiş Ştatları təcrübəsindən" [Mikayıllı, B., 2023], "Məktəb və ailə şagirdlərin sosiallaşmasında mühüm amil kimi" [Şahmuradova, G., 2022], "Texnologiyalara əsaslanan təlim fəaliyyətləri" [Muradlı, T., 2023], "Azərbaycanda ibtidai ümumtəhsil məktəblərinin idarə olunması" [Qurbanova, M., 2024], "Azərbaycanda valideynlərin təhsil və iş statuslarının 4-cü sinif şagirdlərinin oxuyub-anlama bacarıqlarına təsiri" [Rəsulova, İ., 2024], "Məktəbəqədər təhsildə uşaqların intizam tərbiyəsi və onun bəzi problemləri" [Həsənova, P., 2025],"Orta məktəbdə nəsr əsərlərinin tədrisi üzrə tövsiyələr" [Soatova, N., 2025], "Məktəbəqədər yaşlı uşaqların nitq ləngiməsinin dilin inkişafı baxımından araşdırılması" [Toqay, U., 2024], "Qeyri-ənənəvi rəsmçəkmə texnikasından istifadə edərək məktəbəqədər yaşlı uşaqların yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi yolları" [Şiryayeva, V., 2024] və digər məqalələr pedaqoji elmlərin, müasir təhsilin aktual problemlərini əks etdirməklə diqqəti cəlb edir.

Son illərdə jurnalın tərtibatında olan yeniliklər də onun nüfuzunu xeyli yüksəltmiş, beynəlxalq nəşrlər sırasında özünəməxsus yer tutması imkanlarını artırmışdır. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nəşrlər sırasındadır. "Məktəbəqədər və ibtidai təhsil" jurnalı beynəlxalq səviyyədə nüfuzlu elmmetrik platformaların, o cümlədən "Web of Science-Publons" (Researcher ID: MTD-9411-2025) sistemində qeydiyyata alınmışdır. Məlumdur ki, "Clarivate Analytics" tərkibində fəaliyyət göstərən "Web of Science" platforması elmi məqalələrin beynəlxalq indeksləşdirilməsi və sitat gətirilməsi üçün ən mühüm bazalardan biri sayılır. Bu platforma təkcə elmi məqalələrə istinadların qeydə alınması, qlobal elmmetrik bazalarda elmi əsərlərə istinadların analizini deyil, eyni zamanda konfrans və simpozium çıxışlarının indeksləşdirilməsi, elmi ekspertiza prosesinin şəffaflığının artırılması, elmi rəyçilərin fəaliyyətinin tanıdılması, redaksiya heyətində iştirak və bütövlükdə, elmi

fəaliyyətin sistemli izlənilməsi və təsdiqlənməsi funksiyalarını yerinə yetirir. Bu baxımdan, "Məktəbəqədər və ibtidai təhsil" jurnalında çap olunan məqalələrin beynəlxalq elmi ictimaiyyətə çatdırılması üçün böyük imkanlar yaranmışdır. Hazırda jurnal ESJI (Eurasian Scientific Journal Index), ERIHPLUS (European Reference Index for the Humanities and Sosial Sciences), DRJI (Directory of Research Journal Indexing), CiteFactor (Academic Scientific Journals), ROOTINDEXING, Idealonline, Calameo və digər elmmetrik bazalarda qeydiyyatdadır. Jurnalda Azərbaycan dili ilə yanaşı, digər dillərdə – türk, rus, ingilis dillərində məqalələrin dərc edilməsi onun dünyada daha çox yayılmasına, jurnalla elmi əməkdaşlıq edənlərin sayının sürətlə artmasına əhəmiyyətli təsir göstərir.

Jurnalın https://ppe-journal.edu.az saytının yaradılması və saytda "Məktəbəqədər və ibtidai təhsil" jurnalının yarandığı tarixdən bu günədək – 55 illik fəaliyyəti dövründə çap olunmuş bütün nömrələrinin yerləşdirilməsi, onun elektron arxivinin formalaşdırılması təqdirəlayiq fəaliyyət kimi qiymətləndirilməlidir. Elektron arxiv materiallarından istifadə etməklə ayrı-ayrı nömrələrdə çap olunmuş məqalələrin məzmunu ilə rahat şəkildə tanış olmaq, tarixilik və müasirlik aspektlərindən tədqiqatlar aparmaq mümkündür. Bu baxımdan, jurnalın arxiv materiallarının əlçatan olması elmi-pedaqoji əhəmiyyət kəsb edir.

Jurnalda dərc edilən məqalələrə struktur və məzmun baxımdan verilən tələblər yenilənərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Məqalə tədqiqatçının apardığı eksperimentlərin, məlumatların analitik xülasəsi əsasında yazılır.

Məqalələrdə mövzu ilə bağlı Azərbaycan və xarici dillərdə açar sözlər və annotasiyanın təqdim olunması, elmi istinadlara diqqətin artırılması, eyni zamanda məqalənin aktuallığı ilə yanaşı, onun elmi yeniliyi və praktik əhəmiyyətinin izah edilməsi tədqiqat işi haqqında daha konkret təsəvvür yaratmağa kömək edir.

## Nəticə / Conclusion

Azərbaycanın elmi-pedaqoji mətbuat tarixinin öyrənilməsi yalnız təhsil sisteminin keçdiyi inkişaf mərhələlərini izləməyə deyil, həm də pedaqoji fikrin formalaşma dinamikasını dəyərləndirməyə imkan verir. Bu kontekstdə "Məktəbəqədər və ibtidai təhsil" jurnalı yarandığı 1970-ci ildən etibarən, təkcə bir elmi nəşr deyil, pedaqoji mədəniyyətin, elmi fikrin və metodik təcrübənin daşıyıcısına çevrilmişdir. Araşdırmalar göstərir ki, jurnal öz tarixinin bütün mərhələlərində Azərbaycan təhsil sisteminin modernləşməsinə, müəllim və tərbiyəçilərin elmi-metodik inkişafına, məktəbəqədər və ibtidai təhsilin məzmununun yenilənməsinə mühüm töhfələr vermişdir. Onun səhifələrində həm görkəmli alimlərin elmi axtarışları, həm də təcrübəli pedaqoqların praktik tövsiyələri sintez olunaraq

pedaqoji fikir tarixində dayanıqlı ənənə formalaşdırmışdır.

"Məktəbəqədər və ibtidai təhsil" jurnalı bu gün artıq bir "məktəb" kimi dəyərləndirilir. O, pedaqoji elmin, metodikanın və maarifçilik ideyalarının ötürülməsi baxımından sistemli elmi platformaya çevrilmişdir. Jurnalın beynəlxalq indekslərdə (Web of Science-Publons, ERIHPLUS, ESJI və s.) qeydiyyatı və çoxdilli nəşr formatı onun qlobal elm məkanında görünürlüyünü artıraraq, Azərbaycan elmi-pedaqoji fikrinin beynəlxalq inteqrasiyasına real imkanlar açmışdır.

Nəticə etibarilə, "Məktəbəqədər və ibtidai təhsil" jurnalı milli təhsil tarixində yalnız bir mətbu orqan deyil, həm də elm, təcrübə və innovasiyanın qovuşduğu intellektual mərkəz kimi çıxış edir. Onun fəaliyyəti Azərbaycan elmi-pedaqoji mətbuatının inkişaf trayektoriyasını müəyyənləşdirən və gələcək nəsil tədqiqatçılar üçün dəyərli mənbə rolunu oynayan mühüm mərhələ kimi qiymətləndirilməlidir.

**Məqalənin aktuallığı.** Azərbaycan elmi-pedaqoji mətbuatının tarixi yalnız maarifçilik ənənələrinin deyil, həm də pedaqoji düşüncənin inkişaf istiqamətlərinin güzgüsüdür. Bu baxımdan, "Məktəbəqədər və ibtidai təhsil" jurnalının tədqiqi pedaqoji fikir tarixinin öyrənilməsi üçün mühüm elmi aktuallığa malikdir. Jurnal uzun illər ərzində təhsilin məzmunu, idarəetmə mexanizmləri, kurikulum islahatları, təlim texnologiyaları, müəllim-şagird münasibətləri və pedaqoji innovasiyalar kimi sahələrdə baş verən dəyişiklikləri ardıcıl şəkildə əks etdirmiş, beləliklə, ölkənin təhsil inkişafının elmi xronikasını formalaşdırmışdır. Araşdırmanın aktuallığı həm də ondan ibarətdir ki, jurnalda dərc olunan məqalələrin sistemli təhlili vasitəsilə müxtəlif dövrlərdə məktəbəqədər və ibtidai təhsilin qarşısında duran problemlərin və onların həlli istiqamətlərinin elmi əsaslarla müəyyənləşdirilməsi mümkün olur. Bu, həm tarixi-pedaqoji proseslərin dinamikasını izləməyə, həm də müasir təhsil siyasətinin elmi təməllərini dəyərləndirməyə imkan yaradır. Beləliklə, "Məktəbəqədər və ibtidai təhsil" jurnalının tarixinin elmi-pedaqoji mətbuatın tərkib hissəsi kimi araşdırılması pedaqogika elminin retrospektiv və perspektiv inkişaf istiqamətlərini aydınlaşdırmaq baxımından xüsusi elmi və praktiki əhəmiyyət daşıyır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, "Məktəbəqədər və ibtidai təhsil" jurnalının 1970-ci ildən, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" adı ilə nəşrə başladığı dövrdən bu günədək keçdiyi inkişaf mərhələləri ilk dəfə sistemli şəkildə araşdırılmışdır. Tədqiqatda arxiv materialları, dövri nəşrlər və faktik mənbələr əsasında jurnalın struktur, məzmun və tematik istiqamətlərində baş verən dəyişikliklər elmi-analitik baxımdan təhlil edilmiş, bu dəyişikliklərin Azərbaycan elmi-pedaqoji mətbuatının ümumi inkişaf tendensiyaları ilə əlaqəsi müəyyənləşdirilmişdir. Bununla yanaşı, jurnalda müxtəlif illərdə çıxış edən alim və tədqiqatçıların elmi fəaliyyətinin, onların pedaqoji fikir

tarixinin formalaşmasındakı rolunun qiymətləndirilməsi aparılmış, tədris, tərbiyə və idarəetmə sahələrində irəli sürülən yenilikçi ideyalar elmi ümumiləşdirmə müstəvisində təqdim olunmuşdur. Elmi yenilik məhz bu kompleks yanaşmada: jurnalın tarixi inkişafının faktoloji əsaslarla izlənməsi, məzmun istiqamətlərinin müqayisəli təhlili və elmi-pedaqoji mətbuatın evolyusiyasının nəzəri əsaslarla sistemləşdirilməsində özünü göstərir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə təqdim olunan elmi-pedaqoji fikirlər, faktoloji materiallar və analitik nəticələr pedaqogika tarixinin, xüsusilə məktəbəqədər və ibtidai təhsil sahəsinin inkişaf mərhələlərinin öyrənilməsi üçün mühüm praktik əhəmiyyət daşıyır. Tədqiqat nəticələri elmi-pedaqoji mətbuatın təkamülünün izlənilməsinə, təhsil islahatlarının elmi əsaslarla təhlilinə və pedaqoji ideyaların müasir dövr üçün adaptasiyasına xidmət edir. Məqalənin praktik dəyəri həm də onun tətbiq imkanları ilə müəyyən olunur. Burada əldə edilən elmi nəticələr və ümumiləşdirmələr: elmi-pedaqoji mətbuatın müxtəlif istiqamətlər üzrə sistemli şəkildə tədqiqində, təhsil tarixi və pedaqogika fənlərinin tədrisində, dərslik, dərs və metodik vəsaitlərin hazırlanmasında, pedaqoji kadrların ixtisasartırma və sertifikasiya proqramlarında, mühazirə və seminar dərslərində istinad mənbəyi kimi istifadə oluna bilər. Məqalədə təqdim olunan elmi nəticələr həm pedaqoji nəzəriyyənin inkişafı, həm də praktik təhsilin təkmilləşdirilməsi baxımından real tətbiq potensialına malikdir və bu da onun elmi-praktik dəyərini artırır.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Abdullayeva, Ş. (1986). Kiçik yaşlı məktəblilərdə təxəyyülün inkişafı. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №3, s.40-44.
2. Axundov, S.H. (1971). Hər bir şagirdə diqqətlə yanaşmalı. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №1, s.29-33.
3. Altı yaşlı uşaqların  məktəbə hazırlanması. (1971). İbtidai məktəb və məktəbəqədər tərbiyə, №1, s.55-.66.
4. Əlizadə, H.Ə. (1987). Kiçik yaşlı məktəblilərdə təlimə münasibətin formalaşdırılması haqqında. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №3, s.62-65.
5. Həmzəyev, M., Məmmədov M. (1986). Məktəblilərdə təlim materiallarını anlamanın xüsusiyyətləri. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №6, s.52-54.
6. İbrahimxəlilova, N. (1982). Uşaqlarda diqqətin xüsusiyyətləri və təlim prosesində onun nəzərə alınması. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №2, s.37-40.

7. İsmixanov, M.A. (1976). Ev şəraitində şagirdin müstəqil işinin xüsusiyyətləri və onun ibtidai təlimdə yeri. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №2, s.31-37.
8. Kərimov, Y.Ş. (1998). Altıyaşlılarla təlimin təşkili. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №1, s.3.
9. Kərimov, Y.Ş. (1976). Dərsə verilən müasir tələblər haqqında. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №1, s.3-11.
10. Kərimov, Y.Ş. (1981). İfadə yazılar haqqında. №2, s.8-11.
11. Kərimov, Y.Ş. (1971). Lüğət orfoqrafik işlər. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №1, s.6-9.
12. Kərimov, Y.Ş. (1981). Yeni əlifba dərsliyi ilə necə işləməli. №6, s.8-12.
13. Qədirov, Ə.Ə. (1971). Təlim prosesində hafizə fəaliyyətini təşkil etməyin səmərəli yolları. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №1, s.38-41.
14. Məhərrəmova, M. (1981). Qabaqcıl təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №3, s.34-37.
15. Osmanov, Z. (1981). Riyaziyyatdan yoxlama yazı işlərinin təşkili. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №3, s.45-48.
16. Rəhimov, A.N. (1981). Cümlə üzərində iş monoloji nitqin inkişafının hazırlıq mərhələsi kimi. İbtidai məktəb və məktəbəqədər tərbiyə jurnalı, №1, s.10-12.
17. Rəhimov, A.N. (1981). Monoloji nitq üzrə işlərin linqvistik-didaktik əsasları. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №5, s.8-12.
18. Sadıqov, N.A., Həmidov, S.S. (1971). İbtidai siniflərdə riyaziyyat kursunda nəzəri elementlər. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №1, s.18-23.
19. Səlimxanova, X. (1981). Metodbirləşmələrin təşkili və ona rəhbərlik məsələləri. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №3, s.48-50.
20. Talıbov, Y.R. (1971). İbtidai siniflərdə kollektivin təşkil. İbtidai məktəb və məktəbəqədər tərbiyə, №2, s.3-8.

# THE LANGUAGE OF SCIENTIFIC AND PEDAGOGICAL WRITING: THEORETICAL AND PRACTICAL ASPECTS

**Anvar Abbasov**

Advisor to the Rector of Baku Slavic University,
Ph.D. in Pedagogy, Associate Professor, Honored Teacher
E-mail: abbasov_anver@mail.ru
https://orcid.org/0000-0002-0811-549X

**Abstract.** Scientific and pedagogical journals play a crucial role in disseminating scholarly knowledge, sharing pedagogical practices, and shaping academic discourse. The language of these journals is not merely a means of transmitting information; it is also a discursive instrument through which scientific thought, methodological approaches, and the author's position are expressed. This article analyzes the language of scientific-pedagogical writing from functional, stylistic, and expressive perspectives, identifies existing problems, and proposes potential solutions. Although the research primarily focuses on journals published in the Azerbaijani language, comparative analysis also incorporates examples from English and Russian academic writing.

The study reveals that the language of scientific-pedagogical writing should function not only as a technical tool but also as a pedagogical instrument. Therefore, continuous development in this field—including the establishment of terminological standards and the enhancement of academic writing skills—remains an essential need.

**Keywords:** Azerbaijani language, scientific style, pedagogical discourse, academic journals, scholarly writing, language and style.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5015
**To cite this article:** Abbasov A. (2025). The language of scientific and pedagogical writing: theoretical and practical aspects. *Journal of Preschool and Primary Education*, Special issue – "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 25-37.
**Article history:** received – 18.07.2025; accepted – 20.08.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# ELMİ-PEDAQOJİ YAZILARIN DİLİ: NƏZƏRİ VƏ PRAKTİK ASPEKTLƏR

**Ənvər Abbasov**

Bakı Slavyan Universiteti, rektor məsləhətçisi,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim
E-mail: abbasov_anver@mail.ru
https://orcid.org/0000-0002-0811-549X

**Annotasiya.** Elmi-pedaqoji jurnallar elmi biliklərin yayılması, pedaqoji təcrübələrin paylaşılması və akademik diskursun formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu jurnalların dili yalnız informasiya ötürmək vasitəsi deyil, həm də elmi düşüncənin, metodoloji yanaşmaların və müəllif mövqeyinin ifadə olunduğu diskursiv alətdir. Məqalədə elmi-pedaqoji yazıların dili funksional, stilistik və üslubi baxımdan təhlil olunur, mövcud problemlər araşdırılır və onların həlli yolları təklif edilir. Tədqiqat Azərbaycan dilində nəşr olunan jurnallara əsaslansa da, müqayisəli təhlil yolu ilə ingilis və rus dillərindəki nümunələr də nəzərdən keçirilir. Araşdırma göstərir ki, elmi-pedaqoji yazının dili yalnız texniki alət deyil, həm də pedaqoji vasitə kimi çıxış etməlidir. Ona görə də bu sahədə davamlı təkmilləşmə, terminoloji standartların formalaşdırılması və akademik yazı bacarıqlarının inkişaf etdirilməsi mühüm ehtiyac olaraq qalır.
**Açar sözlər:** Azərbaycan dili, elmi üslub, pedaqoji diskurs, elmi jurnallar, akademik yazı, dil və üslub.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5015
**Məqaləyə istinad:** Abbasov Ə. (2025). Elmi-pedaqoji yazıların dili: nəzəri və praktik aspektlər. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində", səh. 25-37.
**Məqalə tarixçəsi:** göndərilib – 18.07.2025; qəbul edilib – 20.08.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Zamanın tələbləri dəyişdikcə elmin və təhsilin dili də dəyişir. Bu dəyişikliklər bir tərəfdən cəmiyyətin intellektual inkişafına paralel olaraq yeni kommunikasiya formalarının yaranmasına səbəb olur, digər tərəfdən isə akademik diskursun keyfiyyətinə birbaşa təsir göstərir. Elmi-pedaqoji jurnallar bu diskursun ən mühüm təzahür formalarından biri kimi çıxış edir. Onların dili yalnız məlumat ötürmək vasitəsi deyil, eyni zamanda elmin dərk olunma formasını, tədqiqatçının düşüncə mədəniyyətini və müəllifin öz fikrini təqdimetmə bacarığını əks etdirən güclü bir alətə çevrilir.

Elmi-pedaqoji jurnalların dili bir növ təhsil və elmi düşüncə arasında körpü rolunu oynayır. Bu jurnallar vasitəsilə alimlər, müəllimlər və tədqiqatçılar arasında informasiya axını təmin olunur, ideyalar paylaşılır, metodoloji yanaşmalar yayılır. Məhz bu səbəbdən həmin jurnalların dili yalnız elmi dəqiqliklə deyil, həm də pedaqoji qavrayışla formalaşdırılmalıdır. Yəni dil sadəcə yazılı ünsiyyət vasitəsi deyil, eyni zamanda oxucuya yönəlmiş pedaqoji vasitə funksiyasını yerinə yetirməlidir.

Elmi yazının əsas tələbi obyektivlik, aydınlıq və dəqiqlik olduğu kimi, pedaqoji yazının da özünə xas tələbləri vardır. Bu tələblərdən anlaşıqlılıq, strukturlaşdırılmış və oxucu yönümlü növləri qeyd etmək olar ki, onların da sintezi elmi-pedaqoji jurnalların dilinin formalaşdırılmasının əsasını təşkil edir. Lakin real vəziyyət bu sahədə müəyyən qarışıqlıqların və uyğunsuzluqların olmasını göstərir. Həmçinin üslub pozuntuları və terminoloji dolaşıqlıqlar da müşahidə olunur. Bəzən məqalələrdə dil normativliyi pozulur, fikir ifadəsində qeyri-dəqiqlik yaranır, elmi-pedaqoji üslubun əsas prinsiplərinə əməl edilmir. Bu isə nəticə etibarilə, həm elmi informasiyanın səmərəli ötürülməsinə, həm də tədris mühitində istifadə olunmasına maneçilik törədir.

Tədqiqatın əsas məqsədi elmi-pedaqoji jurnalların dilinin funksional və üslubi xüsusiyyətlərini təhlil etmək, bu sahədə mövcud problemləri üzə çıxarmaq və mümkün həll yollarını təklif etməkdən ibarətdir. Tədqiqatda Azərbaycan dilində nəşr olunan elmi-pedaqoji jurnalların dili əsas araşdırma obyekti kimi götürülmüşdür. Eyni zamanda müqayisəli yanaşmalarla digər dillərdəki nümunələrə də istinad edilmişdir. İşin metodoloji əsasında deskriptiv-linqvistik təhlil, müşahidə və müqayisə üsulları dayanır.

Bu araşdırma həm elmi üslubun inkişafına töhfə vermək, həm də müəlliflərin, tədqiqatçıların və redaktorların yazı prosesində qarşılaşdıqları dilemmaları daha aydın görmələrinə yardımçı olmaq niyyəti daşıyır. Çünki elmi bilik nə qədər dərin olsa da, onu ifadə edən dil aydın olmadıqda, bilik öz gücünü zəiflədir.

## Əsas hissə / Main part

**1.Elmi-pedaqoji jurnalların ümumi xarakteristikası**

Elmi-pedaqoji jurnallar müasir akademik mühitin intellektual sisteminin əsas dayaqlarından biridir. Bu jurnallar elm adamlarının, müəllimlərin, tədqiqatçıların və magistrların yaratdığı bilik məhsullarını sistemləşdirərək elmi ictimaiyyətə təqdim edən vasitə kimi çıxış edir. Onların əsas vəzifəsi, yalnız yeni elmi nəticələri yaymaqla məhdudlaşmır, eyni zamanda bu nəticələri pedaqoji cəmiyyətin istifadəsinə yönəltmək, tədris prosesini linqvistik əsasda gücləndirmək və maarifçilik funksiyasını yerinə yetirməkdən ibarətdir.

Elmi-pedaqoji jurnalların xarakterik xüsusiyyətlərindən biri onların çoxsəviyyəli auditoriyaya ünvanlanmasıdır. Əgər linqvistik jurnallar daha çox dar ixtisas sahəsinə və elmi metodlara əsaslanırsa, pedaqoji jurnallar həm nəzəriyyəni, həm də onun praktik tərəflərini əhatə etməklə daha geniş fəaliyyətə malik olur. Bu səbəbdən onların dili, strukturu və təqdimat forması daha çevik və oxucu yönümlü olmalıdır.

Elmi-pedaqoji jurnalların funksionallığı, ilk növbədə, onun dil, üslub və ifadə tərzi ilə bağlıdır. Hər şeydən əvvəl, bu cəhətlər dilin imkanlarından qaynaqlanmalıdır. Məlumdur ki, dil öz məcrasında inkişaf edir və gündən-günə formalaşır. Dildə yazılan kitablar, meydana gələn mətbuat və dilin yazı qatında olan bütün yaradıcılıq nümunələri onun fəaliyyətini və unikal bir sosial varlıq kimi inkişafını qidalandırır. Təbii olaraq, dilin funksional bölgüləri yaranır. Bu bölgüləri müxtəlif şəkildə qruplaşdırmaq olar. Araşdırmalar göstərir ki, bu gün Azərbaycan dilinin funksionallığını aşağıdakı kimi qruplaşdırmaq daha məqsədəuyğundur:

**elmi informasiya funksiyası:** tədqiqat nəticələrinin yayılması və yeni elmi biliklərin dövriyyəyə daxil edilməsi;

**pedaqoji funksiya:** tədris prosesində istifadə oluna biləcək metodoloji və nəzəri materialların təqdim edilməsi;

**analitik funksiyası:** mövcud təhsil problemlərinin tədqiqi və təhlili, eləcə də yeni yanaşmaların irəli sürülməsi;

**maarifçilik funksiyası:** geniş pedaqoji ictimaiyyətin elmi düşüncəyə cəlb edilməsi və akademik biliklərin populyarlaşdırılması.

Elmi-pedaqoji jurnalların struktur xüsusiyyətlərinə gəldikdə, bu nəşrlərdə məqalələr, adətən, aşağıdakı komponentlərdən ibarət bir sistem üzrə hazırlanır və çap edilir. Burada problemin qoyuluşu, tədqiqatın məqsədi və metodu, əsas hissə (nəticələrin təqdimatı və müzakirəsi), nəticə və ədəbiyyat siyahısı kimi bölmələrin nəzərə alınması ilə bağlı tələblər diqqət mərkəzində saxlanılır. Bəzi jurnallarda əlavə olaraq xülasələr (Azərbaycan, rus və ya ingilis dillərində), açar sözlər və

müəllif haqqında qısa məlumatlar da yer alır.

Məzmun baxımından bu jurnallarda təhsil siyasəti, pedaqoji texnologiyalar, kurikulum tədqiqatları, müəllim hazırlığı, təhsildə innovasiyalar, tədris metodikası və digər aktual istiqamətlər üzrə məqalələrə yer verilir. Elmi səviyyənin təmin olunması üçün məqalələr, adətən ikili və ya üçlü kor-referi sistemi ilə ekspertiza olunur. Bu isə həmin jurnallarda keyfiyyətli və etibarlı bilik mübadiləsinə zəmanət verir.

Elmi-pedaqoji jurnallar, eyni zamanda akademik nitq mədəniyyətinin inkişafı üçün mühüm platformadır. Tədqiqatçı yalnız ideyalarını deyil, həm də yazı üslubunu təkmilləşdirərək intellektual məsuliyyət daşıyır. Bu baxımdan, elmi-pedaqoji jurnallar təkcə məlumat ötürən deyil, həm də akademik yazı bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsinə xidmət edir.

Təəssüf ki, bəzi hallarda bu jurnallarda məqalələrin dili, təqdimat forması və elmi yükü arasında balans gözlənilmir. Bəzi məqalələrdə elmi üslubun normativ qaydaları pozulur, informativlik azalır və ya tədqiqat probleminin aktuallığı zəif əsaslandırılır. Bu kimi hallar elmi-pedaqoji nəşrlərin ümumi keyfiyyətinə mənfi təsir göstərir və akademik diskursun inkişafını ləngidir.

Beləliklə, elmi-pedaqoji jurnallar, yalnız məqalələrin dərc edildiyi bir platforma deyil, həm də elmi və pedaqoji düşüncənin formalaşdırıldığı və yayımına xidmət edən strateji məkandır. Dili, strukturu və məqsədi bu funksiyaları uğurla yerinə yetirməyə yönəlmiş olmalıdır. Məhz bu xüsusiyyətlər elmi-pedaqoji jurnalları digər nəşr növlərindən fərqləndirir və onların unikal elmi-pedaqoji dəyərini müəyyən edir.

**2. Dil – elmi informasiyanın daşıyıcısı kimi**

Elmi-pedaqoji jurnalların əsas məqsədi yeni biliklərin elmi ictimaiyyətə çatdırılmasıdır. Bu məqsədə çatmaq üçün istifadə olunan dil dəqiq, lakonik və sistemli olmalıdır. Ona görə də elmi yazılarda sözlərin mənaca yüklü və funksional cəhətdən məqsədəuyğun olmasına xüsusi olaraq diqqət yetirilir. Akademik yazılarda qəti hökm bildirən, sübuta əsaslanan və arqumentləşdirilmiş fikirlərə üstünlük verilir [Əliyeva, S., 2019]. Məsələn, "Düşünürəm ki..." əvəzinə, "Tədqiqat nəticələri göstərir ki..." formasında təqdimat daha məqbul hesab edilir.

Elmi-pedaqoji jurnallarda təqdim olunan məqalələr yalnız elm adamları üçün deyil, həm də praktik müəllimlər, magistrlar və doktorantlar üçün nəzərdə tutulur. Buna görə də həmin məqalələr həm dil, həm elmi, həm də pedaqoji baxımdan mükəmməl olmalıdır. Yəni dəqiqlik və obyektivlik gözlənilməli, həmçinin anlaşıqlı və izahlı cəhətləri ilə maraq doğurmalıdır. Təcrübə göstərir ki, dildən belə istifadə olunması oxucunun mövzunu daha rahat mənimsəməsinə şərait yaradır.

Elmi-pedaqoji jurnallarda dilin strukturu sistemli düşüncə prosesini əks etdirməlidir. Bu, oxucunun məqaləni ardıcıllıqla izləməsinə və əsas məqamları düz-

gün mənimsəməsinə şərait yaradır. Məqalə daxilində bölmələrin məntiqi əlaqəsi, keçid ifadələri və səbəb-nəticə əlaqələrinin düzgün qurulması diskursun effektiv təşkilinə xidmət edir.

Elmi diskursda tez-tez istifadə olunan strukturlaşdırıcı ifadələr — "Araşdırmanın məqsədi ondan ibarətdir ki…", "Nəticə etibarilə…", "Buradan belə qənaətə gəlmək olar ki…" oxucunu yazının məntiqi quruluşuna istiqamətləndirir [Məmmədova, R., 2020].

Elmi-pedaqoji jurnallarda terminlərin istifadəsi xüsusi diqqət tələb edir. Terminlər elmi dəqiqliyin əsas göstəricisidir. Həmçinin bir çox terminlərin kontekstə uyğun izahı və ya şərhi, xüsusən pedaqoji auditoriya üçün olduqca vacibdir. Məsələn, "formativ qiymətləndirmə", "kompetensiya əsaslı yanaşma", "diaqnostik metod" kimi ifadələr yalnız ad çəkilməklə deyil, həm də izahlı şəkildə, praktik kontekstdə təqdim edilməlidir. Elmi üslubda bu izahlar onun zəruri atributu olmaqla yanaşı, fikri genişləndirmək, informasiyanı sistemləşdirmək və onu digər biliklərlə əlaqələndirərək mənalandırmaq funksiyasını daşıyır [Arzumanlı, V., 2016].

Beləliklə, elmi-pedaqoji jurnallarda dil sadəcə yazı vasitəsi deyil, çoxfunksiyalı rola malikdir. Onun elmi, pedaqoji, diskursiv və üslubi funksiyaları bir-biri ilə sıx əlaqədədir. Tədqiqatçının əsas məqsədi bu funksiyaları ahəngdar şəkildə birləşdirərək həm məzmunu, həm də formanı oxucu üçün əlçatan və faydalı etməkdən ibarət olmalıdır.

**3. Elmi-pedaqoji diskursda üslub məsələləri**

Akademik diskursda üslub sadəcə forma məsələsi deyil, həm də məqalənin elmiliyini, etibarlılığını və funksionallığını müəyyən edən əsas komponentlərdən biri kimi çıxış edir. Elmi-pedaqoji jurnallarda müəllifin dil və üslub seçimi, onun tədqiqat obyektinə və oxucuya yanaşmasının göstəricisidir. Üslubun düzgün seçilməsi, fikirlərin ardıcıl və aydın şəkildə ifadə olunması həm məqalənin qəbul olunma ehtimalını artırır, həm də onun pedaqoji dəyərini yüksəldir.

Elmi-pedaqoji diskursun başlıca üslubi prinsipi obyektivlikdir. Müəllif fərdi emosiyalardan uzaq dayanmalı, subyektiv yanaşmanı deyil, fakt və arqumentləri önə çıxarmalıdır. Burada emosional ifadələrdən, bədii təsvirlərdən, ümumiyyətlə, qeyri-rəsmi üslubdan, çəkinməklə akademik düşüncələrin ifadə imkanlarına uyğun sintaktik və nitq modellərindən istifadə olunmalıdır. Faktlar nə qədər mülahizələrin sübutunda rol oynasa da, məsələnin qayəsini təşkil edən nəticələrə əsaslanan ümumiləşdirmə elmi arqument kimi təqdim edilməlidir [Məmmədova, R., 2020]. Buna görə "fikrimcə", "inanıram ki", "məncə" kimi ifadələrin yerinə "araşdırmalar göstərir ki", "nəticələrə əsasən", "müşahidələr sübut edir ki" tipli neytral, fakt əsaslı ifadələrdən istifadə olunmalıdır.

Doğrudur, elmi üslub obyektivliyi tələb edir və bu, müəllifin öz mövqeyini

gizlətməsi demək deyildir. Sadəcə, bu mövqe şəxsi təəssürat kimi deyil, elmi arqument kimi ifadə olunmalıdır. Yəni müəllif nəticəyə gəldikdə, onu öz subyektiv hissləri ilə deyil, tədqiqatın faktoloji və nəzəri əsasları ilə əsaslandırmalıdır.

İngilis dilində yazılan elmi-pedaqoji məqalələrdə müəlliflər tez-tez "I argue that...", "This study proposes..." kimi aktiv mövqe bildirən ifadələrdən istifadə edirlər. Azərbaycan dilində bu funksiyanı "Bu məqalədə irəli sürülür ki…", "Tədqiqat belə bir nəticəyə gəlməyə imkan verir ki…" tipli ifadələr yerinə yetirir. Bu, müəllifin məsuliyyətli və dəlillərə söykənən mövqeyini göstərir.

Elmi-pedaqoji yazının vacib xüsusiyyətlərindən biri qrammatik ardıcıllıq və sintaktik sabitlikdir. Cümlələrin həddindən artıq uzun, mürəkkəb və dolaşıq olması, fikrin aydınlığını zəiflədir. Buna görə də hər bir fikir əsaslandırılmış, qrammatik baxımdan düzgün qurulmuş və məntiqi cəhətdən bir-biri ilə əlaqəli olmalıdır. Passiv cümlə quruluşlarına, funksional feillərə və mücərrəd ifadələrə üstün yer ayrılmalıdır. Çünki elmi diskursda sintaktik strukturların sabitliyi informasiyanın təkrarsız, lakin sistemli şəkildə təqdimini təmin edir [Nəsibova, T., 2021].

Elmi-pedaqoji diskursda istifadə olunan terminlər müəyyən olunmuş məzmun çərçivəsində sabit qalmalıdır. Eyni anlayış üçün müxtəlif terminlərdən (sinonim məqamda işlənən) istifadə olunması oxucuda çaşqınlıq yarada bilər. Məsələn, "formativ qiymətləndirmə" ilə "diaqnostik qiymətləndirmə" arasındakı fərqi nəzərə almadan bu anlayışlardan eyni mətn daxilində qarışıq şəkildə istifadə etmək düzgün deyildir. Burada ifadə dəqiqliyi də xüsusi əhəmiyyət daşıyır. Akademik diskurs qeyri-müəyyənlikdən uzaq olmalı, hər fikir konkret fakt, metod və ya mənbəyə istinadla əsaslandırılmalıdır. Qeyri-müəyyən ifadələrin ("bəzi alimlər düşünür", "çox vaxt belə olur") əvəzində, istinadlı və ölçülə bilən ifadələr ("Azərbaycan dili üzrə tədqiqat aparan alimlərin araşdırmasına əsasən...", "sorğuda iştirak edən müəllimlərin 65%-i...") işlədilməlidir.

Elmi-pedaqoji diskursda üslub məsələləri, yazının elmi keyfiyyətini və pedaqoji təsir gücünü müəyyən edən mühüm göstəricilərdir. Bu üslubun əsas dayaqları obyektivlik, dəqiqlik, qrammatik ardıcıllıq, terminoloji sabitlik və elmi mövqeyin arqumentləşdirilmiş təqdimatı hesab edilir. Bunlar, öz növbəsində müəllifin məsuliyyətli tədqiqatçılıq mövqeyini ifadə edir.

**4.Azərbaycan dilində nəşr olunan elmi-pedaqoji jurnalların dil xüsusiyyətləri**

Azərbaycan elmi mühitində pedaqoji yönümlü jurnallar, həm ali təhsil müəssisələrinin nəzdində, həm də müstəqil elmi qurumlar tərəfindən nəşr olunur. Bu jurnalların əsas funksiyası pedaqoji biliklərin yayılması, tədqiqat nəticələrinin ictimaiyyətə çatdırılması və elmi diskursun təşkilidir. Onların bu məqsədə çatmaq üçün dil və üslub baxımından müəyyən keyfiyyət göstəricilərinə malik olması mühüm tələblərdəndir.

**Jurnal nümunələri və ümumi müşahidələr.** Azərbaycan dilində fəaliyyət göstərən əsas elmi-pedaqoji jurnallar sırasında aşağıdakılar xüsusilə qeyd edilməlidir:

"Azərbaycan məktəbi"

"Pedaqoji Universitetin Xəbərləri"

"Təhsil İnstitutunun Elmi Əsərləri"

Ümumi müşahidələrə əsasən, demək olar ki, bu jurnalların dil və üslubuna dair onların böyük əksəriyyəti akademik dildə yazılmış, rəsmi və obyektiv üsluba uyğun məqalələr çap edir. Lakin bu yazılarda terminoloji yanaşma, ifadə dəqiqliyi, qrammatik konstruksiya və elmi strukturlaşdırmalardan istifadə baxımından bəzən fərqliliklər və qeyri-sabitliklər müşahidə olunur.

**Üslub və dil normativləri.** Bir çox məqalələrdə elmi üslubun əsas prinsiplərinə əməl edilsə də, bəzən mətndaxili emosional ifadələrə, sosial-məişət üslubuna xas frazeoloji vahidlərə, yaxud mövzuya uyğun olmayan dil konstruksiyalarına rast gəlmək olur. Məsələn, "Bu məsələ artıq çoxdan müəllimlər arasında narahatlıq doğurur və buna bir çarə tapılmalıdır" və ya "Mövzu üzrə aparılmış sorğular göstərir ki, müəllimlərin böyük bir qismi bu sahədə ciddi çətinliklərlə üzləşirlər" [Həsənli, M., 2020]. Göründüyü kimi, əvvəlki cümlədə adi təsvir üstünlük təşkil etdiyindən elmi ifadə tərzi pozulmuşdur. Müəllifin emosional mövqeyi mətnə daxil edilməklə elmi diskurs zəifləmişdir. Təcrübə göstərir ki, adi söz və ifadələrdən istifadə, cümlənin məna yükünü sadələşdirməklə anlaşıqlı olmasını təmin edir və adi danışıq üslubu yaradır, lakin bu, uyğun elmi anlayışların izahında və ifadəsində elmi səviyyənin yaranması baxımından tələbləri ödəyə bilmir. Beləliklə, Azərbaycan dilində olan elmi məqalələrin bəzilərində müşahidə olunan subyektiv dil konstruksiyaları, terminoloji qarışıqlıq və cümlə strukturunda uyğunsuzluqlar əmələ gəlir. Bu isə oxucu üçün olan zəruri elmi məlumatın qəbulunu çətinləşdirir [Nəsibova, T., 2021].

**Terminologiyanın tətbiqi və izahı.** Terminoloji baxımdan bəzi jurnallarda vahidlik və ardıcıllıq prinsipləri pozulur. Eyni anlayış üçün bir neçə termin variantının istifadəsi, yaxud qlobal elmi terminlərin lokallaşdırılmadan, izahsız təqdim olunması oxucunun anlamasını çətinləşdirir.

Məsələn, "formativ qiymətləndirmə" anlayışı bəzən "diaqnostik qiymətləndirmə", "mərhələli qiymətləndirmə" və ya "dəstəkləyici qiymətləndirmə" terminləri ilə əvəz edilir. Halbuki bu anlayışların elmi-pedaqoji kontekstdə fərqli mənaları vardır [Məmmədova, R., 2019].

**Sintaktik struktur və cümlə quruluşları.** Jurnallarda müşahidə olunan ümumi müsbət tendensiya sintaktik sabitlik və konseptual ardıcıllığın qorunmasıdır. Əksər məqalələrdə bölmə-bölmə təqdimat, giriş-nəticə bağlantısının qurulması və məntiqi keçidlər qorunur. Lakin bəzi hallarda qrammatik yüklü uzun

cümlələr, abstrakt ifadələr və fikrin dağınıq təqdimatı nitqin elmiliyinin keyfiyyətini azaldır.

Məsələn, "Qeyd edilənlərlə yola çıxaraq demək olar ki, müəllimlər bu metodlara istinad etməklə şagirdlərə daha asan formada bilik verə bilərlər" və ya "Müəllimlər, göstərilən metodlardan istifadə etməklə, şagirdlərin bilik qazanmasını asanlaşdıra bilərlər" [Əliyeva, S., 2021].

Göründüyü kimi, ikinci cümlədən fərqli olaraq birinci cümlədə fikrin dağınıq və qeyri-dəqiq ifadə tərzi vardır. İkinci cümlə əvvəlkinə nisbətən daha lakonik olmaqla sintaktik sabitlik nümayiş etdirir.

**Strukturun və metodoloji təqdimatın vəziyyəti.** Azərbaycan dilində nəşr olunan bir çox jurnallarda məqalə strukturu – problemin qoyuluşu, məqsəd, metodologiya, nəticə və təkliflər hissələri formal olaraq mövcuddur. Lakin bu hissələrin elmi əsaslandırılması və metod baxımından zənginliyi bəzən kifayət qədər qaneedici olmur. Tədqiqatın məqsədi bəyan edilsə də, onun necə və hansı metodla həyata keçirildiyi aydın göstərilmir.

Bəzi jurnallarda məqalələr bədii esse üslubuna yaxın təqdim olunaraq elmi analizin dərinliyindən uzaq qalır. Bu isə tədqiqatın nəticələrinin praktikada istifadəsini çətinləşdirir.

**Ümumi qiymətləndirmə və nəticə.** Azərbaycan dilində nəşr olunan elmi-pedaqoji jurnalların dili və üslubu, ümumilikdə elmi normativlərə yaxın olsa da, onların müəyyən istiqamətlər üzrə sistemli təkmilləşdirilməsinə ehtiyac duyulur. Yanaşma olaraq bu sistemli təkmilləşdirilmənin aşağıdakı istiqamətlərdə aparılması məqsədəuyğun hesab edilir.

- terminoloji vahidlik və dəqiqliyin gözlənilməsi;
- elmi obyektivlik və neytral üslubun qorunması;
- sintaktik yığcamlığa və məntiqi ardıcıllığa əməl olunması;
- metodoloji şərhin dərinləşdirilməsi.

İlkin olaraq onu söyləmək olar ki, bu aspektlərdə təkmilləşmə elmi-pedaqoji jurnalların həm yerli, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artıra bilər.

**5. Digər dillərdə nəşr edilən elmi-pedaqoji jurnallarla müqayisə (qısa xülasə)**

Qloballaşan dünyada elmi biliklərin sərhədləri artıq yalnız milli deyil, beynəlxalq müstəvidə müəyyən edilir. Bu baxımdan, elmi-pedaqoji jurnalların dili həm lokal (ölkədaxili elmi cəmiyyət üçün), həm də beynəlxalq elmi dairələr üçün uyğun və anlaşıqlı olmalıdır.

Məlum olduğu kimi, ingilis dili müasir dünyada ən geniş yayılmış dillərdən hesab olunur və bu gün beynəlxalq səviyyədə daha çox istifadə edilir. Ona görə də bu dil müasir elmi kommunikasiya sistemində üstünlük qazanmaqla aparıcı

rol oynayır və elmi üslubun inkişafına ciddi təsir göstərir. Eləcə də rus dilində nəşr edilən elmi jurnallar post-sovet məkanında pedaqoji elmin mühüm yayım platformalarından biri olaraq hələ də qalmaqdadır. Azərbaycanda nəşr edilən bu jurnalların elmi-pedaqoji üslubun tələblərinə cavab verə bilməsi elmi səviyyə baxımdan aşağıdakı kimidir:

**İngilis dilində nəşr olunan jurnallarda** (*Teaching and Teacher Education, Journal of Educational Research, Educational Leadership)* aşağıdakı üslub xüsusiyyətləri ön planda dayanır:

- dəqiq struktur və standartlaşdırılmış bölmələrin (IMRAD modeli: Introduction, Methods, Results, and Discussion) olması;
- sistemli terminologiya və qlobal səviyyədə qəbul olunmuş pedaqoji anlayışlardan istifadə edilməsi;
- aydın, yığcam və məqsədyönlü cümlə quruluşlarına istinad olunması;
- aktiv müəllif mövqeyi və elmi arqumentlərə əsaslanan diskussiyaların həyata keçirilməsi.

Bu jurnallarda müəllif öz mövqeyini faktlara əsaslanaraq açıq şəkildə bildirir. Məsələn, araşdırma göstərir ki, formativ qiymətləndirmə üsulları şagirdlərdə müstəqillik bacarığını inkişaf etdirir. Azərbaycan dilində nəşr edilən jurnallarda isə belə açıq fikirli ifadələrə nadir hallarda rast gəlinir, daha çox neytral, bəzən isə passiv üslub istifadə olunur.

**Rus dilində nəşr edilən elmi-pedaqoji jurnallar** (*Pedagogika, Narodnoye obrazovaniye, Psikhologiya*) daha çox klassik elmi üsluba sadiq qalmaqla ənənəni davam etdirir. Eyni zamanda bu təcrübənin daha geniş miqyasda tətbiq edilməsinə cəhd edilir. Jurnalların əldə etdikləri uğurları aşağıdakı kimi ümumiləşdirmək olar:

- fikrin elmi cəhətdən əsaslandırılması, sitatlardan geniş istifadə edilməsi;
- elmi-tədqiqatların fəlsəfi və nəzəri əsaslara söykənməsi;
- daha akademik və sintaktik cəhətdən mürəkkəb cümlələrdən istifadə olunması;
- passiv üslubun üstünlük təşkil etməsi.

Bunlar bəzi hallarda mətnin başa düşülən olmasını çətinləşdirir, lakin elmi dərinlik baxımından keyfiyyətin yüksəlməsinə təsir göstərir. Azərbaycan elmi jurnalları da bəzən bu üslubu tətbiq edir, lakin sintaktik mürəkkəblik və aydınlıq baxımından tarazlıq saxlanılmır.

**Azərbaycan jurnalları və beynəlxalq standartlar arasında nisbət.** Azərbaycan müstəqilliyi dövründə istər siyasi, iqtisadi və istərsə də digər sahələrdə böyük uğurlar əldə etmişdir. O, bu gün dünyada qalib ölkə kimi özünün strateji inkişafını davam etdirməklə böyük quruculuq işləri aparır. Elm və nəşriyyat sahəsində də fəaliyyətini durmadan davam etdirir. Artıq ölkəmizdə nəşr olunan

elmi-pedaqoji jurnallar struktur baxımından beynəlxalq standartlara yaxınlaşmaqdadır. Lakin dilin funksional imkanlarının yüksəlməsi, məqalə dilinin üslub keyfiyyəti, açıq müəllif mövqeyinin bildirilməsi və terminoloji sabitliyin yaradılması hələ tam formalaşmamışdır. Ümumi vəziyyət müqayisəli şəkildə aşağıdakı kimidir:

| **üslub elementi** | **ingilis dilli jurnallar** | **rus dilli jurnallar** | **Azərbaycan dilli jurnallar** |
|---|---|---|---|
| struktur sabitlik | yüksək | yüksək | orta yaxşı |
| elmi obyektivlik | yüksək | yüksək | yaxşı |
| müəllif mövqeyi | aktiv | passiv | passiv/neytral |
| terminoloji vahidlik | standart-laşdırılmış | klassik və geniş | qismən sabit |
| ifadə dəqiqliyi | yığcam və fokuslanmış | mürəkkəb və dərin | bəzən qeyri-dəqiq və yayğın |
| qlobal standartlara uyğunluq | tam uyğunluq | lokal akademik standart-lara uyğunluq | yanaşma mövcud-dur, lakin natamam |

Göründüyü kimi, Azərbaycan dilində elmi-pedaqoji jurnallar beynəlxalq elmi üslub meyarlarına doğru inkişaf etməkdədir. Lakin bu proses dil, üslub və təqdimat formalarının sistemli təkmilləşdirilməsi yolu ilə müşayiət olunmalıdır. Bunun üçün həm müəlliflərin akademik yazı bacarıqları, həm də jurnalların redaksiya siyasəti beynəlxalq standartlara yaxınlaşdırılmalıdır.

## Nəticə / Conclusion

Elmi-pedaqoji jurnallar elmi biliklərin yayılması, pedaqoji təcrübələrin paylaşılması və tədqiqatçıların intellektual diskursuna şərait yaradan mühüm platformalardır. Bu jurnalların uğurlu fəaliyyəti, ilk növbədə, onların üslub səviyyələrindən asılıdır.

Aparılan araşdırma və müqayisələr göstərmişdir ki, Azərbaycan dilində nəşr edilən elmi-pedaqoji jurnallar struktur cəhətdən təkmilləşdirilmiş, elmi yazıların quruluş prinsiplərində vahidlik əldə olunmuş, elmi şərhlərin və izahların mahiyyətini təşkil edən obyektivlik və  reallıq gücləndirilərək qorunub saxlanmış, elmi-pedaqoji tədqiqatlar, öz növbəsində, funksional üslubun inkişaf edərək təkmilləşdirilməsinə təsir göstərmişdir. Bunlarla yanaşı, terminoloji vahidlik, ifadə dəqiqliyi və qrammatik sabitlik sahəsində müşahidə edilən bəzi uyğunsuzluqların aradan qaldırılması, beynəlxalq jurnallarla müqayisədə metodoloji əsaslandırma, diskursun fəallığı və akademik üslubun çevikliyi baxımdan bir sıra vəzifələrin olduğu müəyyənləşdirilmişdir.

Elmi-pedaqoji jurnalların dilinə sadə bir yazı forması kimi baxmaq düzgün olmazdı. O, həm də biliklərin mənalandırılması və paylaşılması üçün bir vasitədir. Bu baxımdan, yazı üslubu həm oxucunun elmi məlumatı mənimsəməsinə, həm də müəllifin elmi şəxsiyyətinin ifadəsinə xidmət etməlidir.

**Məqalənin aktuallığı.** Müasir dövrdə elmi biliklərin yayılması, elmi nəticələrin geniş auditoriyaya çatdırılması və təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından elmi-pedaqoji yazıların dili mühüm əhəmiyyət kəsb edir. Akademik yazıların dilinin aydın, dəqiq, anlaşılan və məqsədəuyğun olması, həm elmi cəmiyyət, həm də təhsil alanlar üçün informasiyanın düzgün mənimsənilməsinə şərait yaradır. Təəssüf ki, bir çox elmi-pedaqoji məqalələrdə, dərs vəsaitlərində və metodik göstərişlərdə dilin ağır, normativlərə uyğun olmaması, terminoloji uyğunsuzluqlar və üslub problemləri müşahidə olunur. Bu isə həm elmi kommunikasiyanı çətinləşdirir, həm də tədris prosesinə mənfi təsir göstərir. Bu baxımdan, mövzu öz aktuallığını qoruyub saxlayır və daha dərindən öyrənilməsinə ehtiyac duyulur.

**Məqalənin elmi yeniliyi.** Mövzu elmi və pedaqoji diskursun dil xüsusiyyətlərini, onların nəzəri əsaslarını və praktik tətbiqini sistemli şəkildə araşdırmaq baxımından yenilik kəsb edir. Əvvəlki araşdırmalar, əsasən, ya elmi dilin, ya da pedaqoji üslubun ayrı-ayrılıqda təhlilinə yönəlmişdir. Halbuki, bu tədqiqat həm nəzəri-praktiki aspektləri birləşdirərək, elmi-pedaqoji yazıların dilində rast gəlinən konkret problemləri müəyyənləşdirir, həm də onların aradan qaldırılması yollarını göstərməklə sahəyə metodoloji töhfə verir, eyni zamanda yeni dövrün tələblərinə uyğun olaraq, rəqəmsal və distant təhsil mühitində yazı dilinin necə dəyişdiyini və hansı adaptasiyalara ehtiyac olduğunu da öyrənmək baxımından da yenidir.

**Məqalənin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri praktik baxımdan həm elmi məqalə və dərs vəsaiti hazırlayan müəlliflər, həm pedaqoqlar, həm də ali və orta təhsil müəssisələrində təhsil alan tələbə və magistrlar üçün faydalıdır. Elmi-pedaqoji yazılarda düzgün dil normalarına əməl olunması, həm yazılı materialların keyfiyyətini artırır, həm də təlim prosesində məlumatların düzgün qavranılmasına xidmət edir. Bundan əlavə, metodik tövsiyələrin hazırlanması və tətbiqi, müəllimlərin və tədqiqatçıların yazı bacarıqlarının inkişaf etdirilməsinə, eyni zamanda akademik üslubda yazının tədrisinə dəstək verir. Bu isə ümumilikdə, təhsildə keyfiyyətin artırılması baxımından əhəmiyyətlidir.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Arzumanlı, V. (2016). Elmi üslub və müasir yanaşmalar. Azərbaycan dili və ədəbiyyat tədrisi, 2(68), s.45–50.
2. Əliyeva, S. (2019). Elmi üslubun leksik-semantik xüsusiyyətləri. Bakı: "Elm və təhsil".
3. Əliyeva, S. (2021). Elmi yazının qrammatik və üslubi xüsusiyyətləri. Bakı: "Elm və təhsil", 3 (15), s.27–32.
4. Həsənli, M. (2020). Müəllimlərin qiymətləndirmə metodlarına münasibəti."Təhsil və Zaman", 2 (10), s.56–61.
5. Həsənli, M. (2022). Elmi-pedaqoji məqalələrin beynəlxalq standartlara uyğunlaşdırılması. "Təhsil və Zaman" 1(11), s.22–27.
6. Məmmədova, R. (2019). Pedaqoji terminlərin istifadəsində problemlər və onların həlli yolları. Azərbaycan məktəbi, 1(89), s.44–48.
7. Məmmədova, R. (2020). Elmi yazı mədəniyyəti və diskursun təşkili. Pedaqoji araşdırmalar jurnalı, 4 (12), s.31–37.
8. Nəsibova, T. (2021). Elmi-pedaqoji diskursun kommunikativ funksiyası. "Dil və cəmiyyət, 3(20), s.18–23.
9. Solovyov, İ. (2020). Osobennosti nauchnogo stilya pedagogicheskikh issledovaniyakh. Pedagogika, 5(24), s.12–18. Galperin, İ.R. (1981). Tekst na obyekt lingvisticheskogo issledovaniya. Moskva: "Nauka".
10. Kozhina, M.N. (2003). O funkthionalnikh stilyakh russkogo yazika. Moskva: "Visshaya shkola".
11. Rozental, D.E., Telenkova, M.A. (2005). Stilistika russkogo yazıka. Moskva: "Ayris-press".
12. Zolotova, G.A. (2004). Kommunikativniye aspekti russkogo sintaksisa. Moskva: "Yaziki slavyanskoy kulturi".
13. Jones, A. (2021). Academic Writing in Education: Structure and Style. Oxford: "Education Press".

# FORMATION AND DEVELOPMENT OF THE AZERBAIJANI NATIONAL PRESS: A SCIENTIFIC ANALYSIS IN THE HISTORICAL AND SPIRITUAL CONTEXT

**Humeyir Ahmadov**
Head of the Department of Training Scientific-Pedagogical Personnel,
Institute of Education of the Republic of Azerbaijan,
Doctor of Pedagogical Sciences, Professor
E-mail: a.humeyir@arti.edu.az
https://orcid.org/0000-0003-0019-4266

**Parvin Alizade**
Leading Specialist, Department of Training Scientific-Pedagogical Personnel,
Institute of Education of the Republic of Azerbaijan
E-mail: alizadapari.16@gmail.com
https://orcid.org/0009-0009-5896-2177

**Abstract.** This article presents a scholarly analysis of the formation and developmental trajectory of the Azerbaijani national press within the historical and spiritual context that emerged alongside the rising enlightenment movement of the nineteenth century. The study systematically highlights the decisive role of the press in awakening public consciousness, consolidating national identity, and expanding political thought. Particular emphasis is placed on the contribution of satirical journalism, which openly articulated socio-political issues and fostered an environment of public criticism. The principles governing the press during the Soviet period, along with the ideological limitations and constraints of information policy in that era, are examined through a scientific lens. In the post-independence period, the article explores the new opportunities that emerged for the media, including the renewal of the information environment, the modernization of the media system, and the structural transformations within mass communication.

**Keywords:** national press, enlightenment, satirical press, information environment, national identity, press history, public thought.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5011
**To cite this article:** Ahmadov H., Alizade P. (2025). Formation and development of the Azerbaijani national press: a scientific analysis in the historical and spiritual context. *Journal of Preschool and Primary Education*, Special issue – "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 39-52.
**Article history:** received – 22.08.2025; accepted – 23.09.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# AZƏRBAYCAN MİLLİ MƏTBUATININ FORMALAŞMASI VƏ İNKİŞAF XƏTTİ: TARİXİ-MƏNƏVİ KONTEKSTDƏ ELMİ TƏHLİL

**Hümeyir Əhmədov**
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri,
pedaqogika üzrə elmlər doktoru, professor
E-mail: a.humeyir@arti.edu.az
https://orcid.org/0000-0003-0019-4266

**Pərvin Əlizadə**
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin aparıcı mütəxəssisi
E-mail: alizadapari.16@gmail.com
https://orcid.org/0009-0009-5896-2177

**Annotasiya.** Bu məqalədə Azərbaycan milli mətbuatının formalaşması və inkişaf xətti XIX əsrdə maarifçilik hərəkatının güclənməsi fonunda tarixi-mənəvi kontekstdə elmi şəkildə təhlil edilir. Burada mətbuatın ictimai şüurun oyanması, milli kimliyin bərqərar olması və siyasi düşüncənin genişlənməsi prosesində oynadığı həlledici rol ardıcıllıqla göstərilir. Tədqiqatda satirik mətbuatın cəmiyyətin sosial-siyasi problemlərini açıq şəkildə ifadə etməklə ictimai tənqid mühitinin formalaşmasına verdiyi töhfələr də xüsusi vurğulanır. Sovet ideoloji çərçivəsində mətbuatın fəaliyyət prinsipləri, bu dövrdə informasiya siyasətinin məhdudiyyətləri və yönləndirmələri elmi yanaşma ilə izah olunur. Müstəqillik mərhələsində medianın qarşısında ortaya çıxan yeni imkanlar, informasiya mühitinin yenilənməsi, media sisteminin modernləşməsi və kütləvi kommunikasiyanın strukturunda baş verən dəyişikliklər araşdırılır. Mətbuatın yeni dövrdəki rolu, cəmiyyətin və dövlətin inkişafında strateji əhəmiyyət daşıyan informasiyanın yaradılması və yayılması prosesinə də təsir göstərir.

**Açar sözlər:** Milli mətbuat, maarifçilik, satirik mətbuat, informasiya mühiti, milli kimlik, mətbuat tarixi, ictimai fikir.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5011
**Məqaləyə istinad:** Əhmədov H., Əlizadə P. (2025). Azərbaycan milli mətbuatının formalaşması və inkişaf xətti: tarixi-mənəvi kontekstdə elmi təhlil. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – “Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində”, səh. 39-52.
**Məqalə tarixçəsi:** göndərilib – 22.08.2025; qəbul edilib – 23.09.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Azərbaycan milli mətbuatının 150 illik tarixi göstərir ki, ölkədə ictimai şüurun formalaşması, maarifçilik hərəkatının güclənməsi və siyasi modernləşmə prosesləri bilavasitə mətbuatın inkişafı ilə bağlı olmuşdur. Bu inkişaf xəttinin ən parlaq istiqamətlərindən biri satirik mətbuatın, xüsusilə "Molla Nəsrəddin", "Kirpi" və onlar ətrafında formalaşan ədəbi məktəblərin ictimai düşüncəyə təsirinin elmi baxımdan araşdırılmasıdır. Problemin aktuallığı həm də bu jurnalistika ənənəsinin müasir dövrdə necə davam etməsi ilə bağlıdır.

Azərbaycan milli mətbuatının təşəkkülü və inkişaf prosesi, təkcə jurnalistikanın tarixi deyil, həm də Azərbaycan cəmiyyəti üçün milli özünüdərk, maarifçilik, modernləşmə, siyasi oyanış və ictimai kimliyin formalaşması baxımından son dərəcə fundamental əhəmiyyətə malikdir. Tarixi materiallar və analitik mənbələr göstərir ki, milli mətbuatımızın formalaşması, xüsusilə də satirik mətbuatın inkişaf xətti, xalqın düşüncə tərzinə, sosial münasibətlərinə, siyasi şüuruna, estetik zövqünə, ictimai tənqid mədəniyyətinə misilsiz təsir göstərmişdir. Bu təsirin miqyasını anlamaq üçün həm XIX əsrin sonu – XX əsrin əvvəllərindəki sosial-siyasi şəraiti, həm də müasir dövrdə medianın çevik transformasiya proseslərini nəzərə almaq vacibdir. Azərbaycan milli mətbuatının tarixi göstərir ki, istər "Əkinçi", "Kəşkül", "Həyat", "İrşad", "Füyuzat", istərsə də "Molla Nəsrəddin", "Kirpi" və digər satirik nəşrlər yalnız zamanın ictimai-siyasi hadisələrinə reaksiya verməklə kifayətlənməyib, eyni zamanda cəmiyyətin ideoloji, bədii, estetik və mənəvi inkişaf trayektoriyasını müəyyən etmişdir. Bu ənənənin kökündə duran ideyalar müasir dövrdə də aktuallığını qoruyur, çünki mətbuat, xüsusilə satirik mətbuat ictimai problemlərin üzə çıxarılmasında, maarifçilik ideyalarının yayılmasında, milli şüurun formalaşmasında və cəmiyyətin daha demokratik mühitə doğru inkişafında hər zaman mühüm vasitə olmuşdur.

**Problemin qoyuluşu**

Azərbaycan milli mətbuatının yaranması və inkişaf xətti təkcə mətbu orqanların tarixini deyil, xalqın ictimai şüurunun formalaşması, milli kimliyinin möhkəmlənməsi və maarifçilik ənənəsinin dərinləşməsi proseslərini də əks etdirən kompleks bir hadisədir. XIX əsrdə iqtisadi, siyasi və mədəni mühitin dəyişməsi Azərbaycan cəmiyyətində informasiya tələbatını artırmış, yazılı sözün ictimai həyatdakı rolu daha da ön plana çıxmışdır. Məhz bu dövrdə milli mətbuat yeni ideoloji platforma kimi meydana çıxmış, cəmiyyətin modernləşməsi, maarifçi dəyərlərin təbliği və sosial problemlərin aktuallaşdırılmasında əsas vasitəyə çevrilmişdir. Lakin milli mətbuatın bu funksiyası hər dövrdə müxtəlif siyasi rejimlərin, sosial quruluşların, ideoloji yanaşmaların təsiri altında dəyişmiş, onun

fəaliyyəti bəzən genişlənmiş, bəzən də məhdudlaşdırılmışdır. Bununla belə, mətbuatın milli şüurun inkişafında oynadığı rol danılmazdır. Bu kontekstdə problemin qoyuluşu milli mətbuatın formalaşması və inkişaf xəttinin tarixi-mənəvi aspektdə elmi təhlilini aparmaq, onun hər bir mərhələsinin cəmiyyətin ideoloji strukturuna, mənəvi-mədəni dəyərlərinə və sosial psixologiyasına təsirini müəyyənləşdirməkdən ibarətdir. Məqalədə əsas məqsəd milli mətbuatın inkişaf dinamikasını ardıcıllıqla araşdırmaq, müxtəlif dövrlərdə daşıdığı funksiyaları sistemləşdirmək və bu funksiyaların müasir medianın formalaşmasında oynadığı rolu üzə çıxarmaqdır.

**Metodologiya**

Tədqiqatın metodoloji əsasını tarixi-müqayisəli, sistemli yanaşma və məzmun təhlilinə əsaslanan elmi metodlar təşkil edir. İlk mərhələdə milli mətbuatın formalaşmasının baş verdiyi ictimai-siyasi şərait, tarixi hadisələr və maarifçilik mühiti kontekstual yanaşma ilə araşdırılır. Bu zaman XIX əsrin sonundan etibarən Azərbaycanda cərəyan edən iqtisadi və mədəni dəyişikliklərin mətbuatın meydana çıxmasına təsiri tarixi faktlar əsasında təhlil edilir. İkinci mərhələdə mətbuatın müxtəlif dövrlərdə daşıdığı funksiyalar sistemli yanaşma ilə qruplaşdırılır — maarifçilik, ideoloji mübarizə, satira, sosial tənqid, dövlətçilik təbliği və informasiya təhlükəsizliyi kimi istiqamətlər üzrə təsnifat aparılır. Üçüncü mərhələdə isə məzmun təhlili üsulu ilə milli mətbuat nümunələrinin cəmiyyətin mənəvi strukturu və ideoloji xətti ilə əlaqəsi öyrənilir. Müasir dövr üçün rəqəmsal media mühitinə dair analitik yanaşma tətbiq olunur və medianın yeni funksiyaları qiymətləndirilir. Hər bir mərhələ üzrə əldə edilən nəticələr qarşılaşdırılaraq milli mətbuatın inkişaf xəttinin ümumi modeli müəyyənləşdirilir. Metodologiya həm tarixi ardıcıllığın qorunmasına, həm də mətbuatın cəmiyyətdə oynadığı çoxölçülü rolun obyektiv şəkildə təqdim olunmasına imkan verir.

## Əsas hissə / Main part

Azərbaycan milli mətbuatının formalaşması və inkişafı ölkənin ictimai-siyasi tarixində baş vermiş əsas dönəmlərin hər birində xüsusi funksiyaya malik olmuş, xalqın kollektiv yaddaşının, milli təfəkkürünün və ictimai davranış mədəniyyətinin bir hissəsinə çevrilmişdir. XIX əsrin ikinci yarısında Azərbaycan cəmiyyəti iqtisadi və mədəni dinamikanın təsiri ilə tamamilə yeni mərhələyə qədəm qoymuşdu. Bakı neftinin dünya bazarlarında xüsusi çəkisinin sürətlə artması, sənaye sektorunda dönüş yaradan kapital axını, şəhərləşmə meylinin güclənməsi və təhsil şəbəkəsinin genişlənməsi ictimai şüurun yeniləşməsi üçün əlverişli şərait yaratdı. Məhz bu mühitdə milli mətbuatın meydana gəlməsi xalqın öz dilində, öz dəyərləri və reallıqları əsasında maariflənməsi üçün ilkin zərurət kimi forma-

laşdı. Azərbaycan ziyalıları həmin dövrdə yalnız siyasi və iqtisadi proseslərin deyil, həm də mənəvi-mədəni yüksəlişin təməlində duran maarifçiliyi milli inkişaf modelinin əsası hesab edirdilər. Yeni nəsillərin yetişməsi, milli kimliyin möhkəmlənməsi, cəmiyyətin dünyagörüşünün genişlənməsi üçün mətbuatın rolu artıq danılmaz idi.

Bu prosesin məntiqi nəticəsi kimi yaranan "Əkinçi" qəzeti milli özünüdərkin ilk sistemli mətbu ifadəsi oldu. Azərbaycan dilində çap olunan bu qəzet xalqın gündəlik həyatına dair aktual məsələləri qaldırmaqla, yalnız informativ deyil, həm də sosial yönümlü platforma rolunu oynayırdı. Qəzetin yaranması sadəcə bir nəşrin işıq üzü görməsi deyildi, eyni zamanda bu, xalqın öz səsini tapması idi. Cəmiyyətin müxtəlif təbəqələrinə aid problemlərin açıq yazı dili vasitəsilə səsləndirilməsi, kənd təsərrüfatından təhsilə, ailə tərbiyəsindən ictimai sağlamlığa qədər mövzuların işıqlandırılması "Əkinçi"ni xalqın danışan dili etdi. Qəzetin maarifçilik xətti insanların dünyagörüşünə təsir göstərir, onların gündəlik həyatında tətbiq etdikləri davranış modellərini dəyişdirirdi. Bu baxımdan "Əkinçi" yalnız mətbuat qəzetinin başlanğıcı deyil, həm də Azərbaycan cəmiyyətinin müasirləşmə modelinin əsas hissəsi idi.

Qəzetin cəmi iki il fəaliyyət göstərməsi onun təsir gücünü azaltmadı. Əksinə, "Əkinçi"nin fəaliyyətinin dayandırılması maarifçi ideyaların boğula bilməyəcəyini bir daha göstərdi. Onun ardınca meydana çıxan nəşrlər cəmiyyətin yeniləşmə prosesini davam etdirmək üçün müxtəlif istiqamətlərdə fəaliyyət göstərdilər. Hər biri müxtəlif ideoloji mövqeyi ifadə etsə də, eyni məqsədə – xalqın tərəqqisinə xidmət edirdi. Bu yeni nəşrlər arasında siyasi publisistikanı, maarifçi düşüncəni, ictimai rəyin formalaşmasını özündə birləşdirən orqanlar meydana çıxdı. Onlar Azərbaycan cəmiyyətində tədricən genişlənən intellektual qatın formalaşmasına töhfə verirdilər.

Azərbaycan milli mətbuatının başlanğıcı olan "Əkinçi" qəzeti yalnız informasiya ötürən qurum deyildi, o, faktiki olaraq cəmiyyətin özünüdərk prosesinin intellektual platformasına çevrildi. Həsən bəy Zərdabinin qəzeti maarifçilik ideyalarını əsas tutaraq xalqın həyatına, təhsilinə, hüquqlarına, etnik kimliyinə, sosial problemlərinə obyektiv baxışı formalaşdırdı. Zərdabinin "qəzet xalqın aynasıdır" fikri yeni mətbuat fəlsəfəsinin formalaşmasını təmin etdi: mətbuat cəmiyyətin özünü görmək, qiymətləndirmək və dəyişmək üçün vasitəsinə çevrildi. "Əkinçi"nin fəaliyyəti sonrakı mətbuat nümunələrinin hamısı üçün ideoloji özül oldu [Zərdabi, H., 2005]. "Əkinçi"nin təsiri ilə yaranan "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" kimi qəzet və jurnallar mətbuata ictimai güc kimi yanaşır, maarifçiliyi və elmə əsaslanan yenilikçiliyi təbliğ edir, türk-müsəlman xalqlarının sosial geriliyinin səbəblərini araşdırırdı.

XX əsrin əvvəlləri milli mətbuatın inkişafında yeni bir mərhələ oldu. Re-

giondakı siyasi proseslər, Çar Rusiyasının böhranları, ideoloji cərəyanların genişlənməsi, yeni düşüncə tərzinin yayılması mətbuat üçün həm çətinliklər, həm də imkanlar yaradırdı. Mətbuat bu dövrdə siyasi kimliyin, ictimai iştirakçılığın, mədəni özünüdərkin mühüm vasitəsinə çevrildi. Məhz belə bir tarixi şəraitdə satirik mətbuat xüsusi rol oynamağa başladı. Satira cəmiyyətə, insanlara və dövlətə tənqidi baxışı gücləndirdi. Cəmiyyətin ağır sosial problemlərini kəskin və obrazlı metaforalarla göstərmək, reallığın ironik təhlilini aparmaq, əhalinin başa düşəcəyi üslubda ciddi ictimai mesajlar vermək satiranı milli düşüncənin yenilənməsi üçün ən səmərəli vasitələrdən birinə çevirdi.

Milli mətbuat tarixində ən güclü tənqidi və analitik xətti yaradan, satira janrına mükəmməl forma qazandıran "Molla Nəsrəddin" oldu. 1906-cı ildə Cəlil Məmmədquluzadənin təşəbbüsü ilə nəşrə başlayan jurnal, təkcə Azərbaycan mətbuatında deyil, bütün Şərq dünyasında analoqu olmayan satirik məktəb yaratdı [Məmmədquluzadə, C., 2004].

Bu dövrdə "Molla Nəsrəddin" jurnalı mətbuat tarixinin misilsiz fenomeninə çevrildi. Jurnal satiradan yalnız gülüş vasitəsi kimi istifadə etmirdi, o, gülüşün gücünü sosial dəyişiklik üçün alətə çevirirdi. C.Məmmədquluzadə və onun ətrafında toplaşan ziyalılar öz fəaliyyətlərində kəskin ictimai məsuliyyət hiss edirdilər. Onların qaldırdığı problemlər cəmiyyətin bütün təbəqələrini birləşdirirdi. Cəhalətə qarşı mübarizə, qadınların hüquqlarının müdafiəsi, təhsilin zəruriliyi, hüquqi savadlanmanın vacibliyi, xalqın öz dilinin qorunması kimi məsələlərin satirik dildə işıqlandırılması mətbuatın təsir dairəsini genişləndirirdi. "Molla Nəsrəddin" beynəlxalq səviyyədə tanınmağa başladıqca jurnalın ideya istiqamətləri region xalqlarının mətbuatına geniş təsir göstərdi. Karikaturalar isə jurnalın mesajlarını daha da gücləndirən təsirli vizual dildir. Bu vizual ünsür sosial mesajın qavranmasını sürətləndirir, düşündürən gülüşün gücünü artırırdı.

"Molla Nəsrəddin" jurnalının uğurunun başlıca səbəbi onun sosial reallığı olduğu kimi təsvir etməsi, cəhalətə, fanatizmə, sosial ədalətsizliyə, qadın hüquqlarının tapdanmasına, təhsilsizliyə, gerilik yaradan stereotiplərə amansız şəkildə hücum etməsi idi. Jurnalın əsas gücü həm də ondan ibarət idi ki, o, sadə xalqın başa düşəcəyi dildə yazırdı. Bu, böyük ictimai kütlələrin mətbuatdan istifadəsini asanlaşdırdı və nəticədə, tənqid və maarifçilik geniş sosial təbəqələrə yayıldı. "Molla Nəsrəddin" təkcə ədəbi-satirik jurnal deyil, sözün əsl mənasında milli düşüncə məktəbi idi.

XX əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalı milli mətbuatın önəmli nümayəndələrindən biri kimi çıxış etmişdir. O, "Həyat", "İrşad", "Tərəqqi" kimi qəzetlərlə, xüsusən də "Füyuzat" jurnalı ilə paralel fəaliyyət göstərmiş və mətbuat sahəsində öz nüfuzunu qoruyub saxlamışdır. Bu mətbuat orqanlarının hər biri fərqli yanaşmalar və üslublar vasitəsilə cəmiyyətə xidmət etmiş, milli şüurun,

maarifçiliyin və ictimai fikrin formalaşmasında bir-birini tamamlamışdır. Nəticədə, həmin dövrün mətbuatı həm informasiya yayımı, həm də sosial maarifləndirmə baxımından Azərbaycan ictimai həyatında mühüm rol oynamışdır [Həbibbəyli, İ., 2017].

Jurnalın ətrafında formalaşan ədəbi məktəb Azərbaycan nəsrini, poeziyasını, publisistikasını, xüsusilə də karikatura sənətini yeni mərhələyə yüksəltdi. Əzim Əzimzadə, Oskar Şmerling, Nəcəfqulu və digər tanınmış rəssamların yaratdığı karikaturalar mətndən daha çox danışırdı. Karikaturalar insan davranışlarını, məmur özbaşınalığını, sosial ədalətsizliyi, qadınların hüquqsuzluğunu, rüşvət bataqlığını, cahil din xadimlərinin fırıldaqlarını, savadsızlığın doğurduğu faciələri təsvir edirdi və geniş kütlələrə təsir gücü göstərirdi. İnsanlar jurnalın karikaturalarını evlərində, dükanlarda, məktəblərdə, çayxanalarda nümayiş etdirirdilər. Bu karikaturalar ictimai qınağın güclənməsi üçün nadir bir vasitə idi.

"Molla Nəsrəddin"in təsiri o qədər geniş idi ki, onun nümunəsi ilə qısa müddətdə "Bəhlul", "Zənbur", "Mirat", "Tuti", "Kəlniyyət", "Babayi-Əmir", "Məzəli", "Lək-lək" kimi çox sayda satirik jurnallar meydana çıxdı. Bunların hər biri öz dövrünün sosial problemlərini əks etdirir, lakin əksəriyyəti cəmi bir neçə il yaşaya bilirdi. Səbəb həm siyasi təzyiqlər, həm də "Molla Nəsrəddin"in güclü ideoloji çəkisi idi.

Azərbaycanda pedaqoji jurnalların yaranması milli mətbuatın inkişafında əhəmiyyətli mərhələni təşkil edir. XX əsrin əvvəllərində müxtəlif pedaqoji nəşrlər işıq üzü görmüşdür. Məsələn, "Dəbistan" (1906–1907), "Rəhbər" (1906–1907), "Məktəb" (1911–1920), "Xalq maarifi" (1920, yalnız bir nömrə) və "Maarif və mədəniyyət" (1923–1927) jurnalları müəllimlərin maariflənməsinə və pedaqoji biliklərin yayılmasına xidmət etmişdir. Bu jurnallar milli mətbuatın pedaqoji istiqamətinin formalaşmasında önəmli rol oynamış və uzunmüddətli pedaqoji nəşrlərin əsasını qoymuşdur. Beləliklə, pedaqoji jurnallar Azərbaycan mətbuatında həm təhsil ideyalarının yayılmasına, həm də müəllimlər və təhsil ictimaiyyətinin maariflənməsinə böyük töhfə vermişdir [Əhmədov, H.H., 2024].

Azərbaycan satirik mətbuatının ənənələri burada formalaşmış məktəblə məhdudlaşmadı, o, zamanla yeni formalar qazanmadan davam etdi. Lakin sovet dövrünə keçid mətbuatın hər bir qolunun funksiyasını dəyişdirdi. Sovet rejimi mətbuatı ideoloji aparata çevirərək onun sərbəst fəaliyyətinə ciddi məhdudiyyətlər tətbiq edirdi. Sovet ideologiyası dövründə satira tamamilə yox olmadı, çünki rejim müəyyən sahələrdə məmur özbaşınalığına qarşı "sistemdən içəri tənqid"i faydalı hesab edirdi. Məhz belə bir ideoloji şəraitdə "Kirpi" jurnalı meydana çıxdı. 1952-ci ildən nəşrə başlayan "Kirpi" sovet senzurasının çərçivələrində olsa da, sosial tənqidin inkişafında çox mühüm rol oynadı. "Kirpi" jurnalının dili daha yumşaq satiraya, rəmzlərə, eyhamlara və dolayı ifadələrə əsaslanırdı. Buna bax-

mayaraq, jurnal cəmiyyətin dərin qatlarında gedən korrupsiya, məmur məsuliyyətsizliyi, bürokratiya, yol çəkilişində, tikintidə, kənd təsərrüfatında baş verən pozuntular, plan göstəricilərinin saxtalaşdırılması kimi ciddi məsələləri gündəmə gətirirdi. Satiranın bu dövrdəki funksiyası həm də psixoloji rahatlıq yaratmaq idi — insanlar gülərək dövlətə yox, "korrupsioner məmura" yönələrək öz narazılıqlarını ifadə etmək imkanı qazanırdılar. Senzura şəraitində fəaliyyəti çətin olsa da, "Kirpi" xalqın mənəvi ehtiyaclarının müəyyən hissəsini qarşılayırdı.

"Kirpi" jurnalının uğurunun əsas səbəblərindən biri də onun kollektiv şəkildə qurulmuş yaradıcı heyəti idi. Burada Süleyman Rüstəm, Sabit Rəhman, Salam Qədirzadə, Mir Cəlal, Seyfəddin Dağlı kimi tanınmış yazıçılar və rəssamlar çalışmışdı. Bu dövrdə karikatura sənəti yenidən güclü inkişaf mərhələsinə çıxmışdı. Hafiz Nəsiroğlu, Hüseyn Əliyev, Adil Elçin kimi rəssamlar "Kirpi"nin vizual satirasını yeni səviyyəyə qaldırdı.

Satiranın 1960–1980-ci illərdəki inkişafı göstərir ki, o, sovet ideoloji sisteminin sərt çərçivələrini tam qıra bilməsə də, cəmiyyətdə müəyyən sosial korreksiya funksiyası daşıyırdı. Jurnalın hər nömrəsi böyük tirajlarla çap olunur, oxucular arasında ciddi rezonans yaradırdı. Qeyd edək ki, "Kirpi"nin bir karikaturasının hədəfinə düşmək bir çox məmur üçün karyera riski demək idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra, mətbuat üzərində nəzarətin aradan qalxması ilə yeni dövr başladı. Satira daha sərbəst oldu, siyasi tənqid genişləndi, lakin bununla yanaşı, iqtisadi və sosial dəyişikliklər, rəqəmsal medianın yüksəlişi, tiraj probleminin yaranması nəticəsində klassik satirik jurnallar kimi ənənəvi nəşrlər tədricən öz mövqeyini itirdi. "Kirpi"nin də fəaliyyətinə təsir edən məhz bu yeni reallıq idi. İqtisadi çətinliklər, reklam bazarının zəifliyi, oxucu zövqünün dəyişməsi, rəqəmsal platformalara keçid jurnalı əvvəlki gücündən məhrum etdi. Buna baxmayaraq, satira yox olmadı – o, yeni formaya keçdi.

Müasir dövrdə satira sosial şəbəkələrdə daha çevik və dinamik şəkildə özünü göstərir: qısa videolar, memlər, onlayn karikatura səhifələri, satirik vloglar, yumorist kanallar yeni dövrün satirik mətbuatının funksiyasını daşıyır. Bununla belə, klassik satirik ənənənin – "Molla Nəsrəddin" və "Kirpi" məktəbinin təsiri bu gün də aydın şəkildə hiss olunur. Çünki həmin məktəbin əsas prinsipləri (cəmiyyətin problemlərini üzə çıxarmaq, milli düşüncəni oyatmaq, insanları düşündürmək və maarifləndirmək) zamanın tələbləri ilə uyğun şəkildə yenidən formalaşır. 2021-ci ildə bu mətbu orqanın orijinal nüsxələri əsasında "Molla Nəsrəddin Ensiklopediyası" çap olunub ["Molla Nəsrəddin" ensiklopediyası., 2020]. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu milli humanitar yaddaşın qorunması və gələcək nəsillərə obyektiv şəkildə çatdırılması məqsədilə bu ensiklopediyanı nəşr etmişdir. Ensiklopediyada jurnalın tarixi, mədəni və ictimai əhəmiyyəti, həmçinin milli mətbuatın inkişafındakı rolu ətraflı şəkildə işıqlandı-

rılmışdır və nəşr institutun elmi şurasının qərarı ilə çap olunmuşdur [Xəlilov, A., 2022].

Azərbaycan satirik mətbuatı milli mətbuat tarixinin inkişaf dinamikasında əsas istiqamətlərdən biri kimi çıxış edir. Onun formalaşdığı tarixi mərhələlər və ideoloji çərçivələr fərqli olsa da, satiranın mahiyyəti dəyişməmişdir: cəmiyyətin aynası olmaq, onun eybəcərliklərini və gözəlliklərini göstərmək, insanları güldürmək, düşündürmək, maarifləndirmək.

Müstəqillikdən sonra milli mətbuat yenidən tam sərbəst ideoloji və informasiya meydanına qayıtdı. 1991-ci ildən sonra mətbuat üzərindəki senzura aradan qaldırıldı, yeni qəzet və jurnallar yarandı, jurnalistikanın struktur və üslub müxtəlifliyi formalaşdı. Bu dövrdə mətbuat demokratik təsisatların inkişafında mühüm rol oynadı. Xalqın dövlət quruculuğu, siyasi plüralizm, bazar iqtisadiyyatına keçid, vətəndaş cəmiyyətinin formalaşması kimi məsələlər mətbuatın gündəmində idi. Jurnalistlər ölkənin yeni reallıqlarını araşdırır, müharibə vəziyyətində informasiya müharibəsinin aparılmasında ön cərgədə dayanırdılar.

XXI əsrin ilk onillikləri rəqəmsal medianın geniş yayılması ilə xarakterizə olunur. İnternet texnologiyalarının inkişafı informasiyanın yayılmasını sürətləndirdi, sosial media platformaları yeni kommunikasiya formaları yaratdı. Lakin bu proseslərlə yanaşı, dezinformasiya, manipulyasiya və saxta xəbərlərin yayılması kimi problemlər də meydana gəldi. Azərbaycan mətbuatı bu yeni çağırışlara uyğunlaşma prosesindən keçdi. Rəqəmsallaşma dövründə mətbuatın funksiyası yalnız fəaliyyətini genişləndirmək deyil, həm də informasiya təhlükəsizliyini təmin etmək idi. Müasir dövrdə mətbuat milli maraqların müdafiəsində mühüm rol oynayır və bu funksiyanın əhəmiyyəti xüsusilə müharibə dövrlərində daha aydın görünür.

Müstəqillik dövründə mətbuat tamamilə yeni mühitlə qarşılaşdı. Media üzərində inzibati nəzarətin azalması, söz azadlığının genişlənməsi yeni mətbuat mədəniyyətinin formalaşmasına imkan yaratdı. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan struktur islahatları media sektorunun yenilənməsi üçün mühiti yaxşılaşdırdı. Jurnalistlərin fəaliyyətini təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi, informasiya azadlığının hüquqi çərçivəyə salınması və medianın maddi-texniki infrastrukturunun yaxşılaşdırılması mətbuatın cəmiyyət üçün strateji əhəmiyyətini bir daha ortaya qoydu. Müasir mərhələdə media dövlət və cəmiyyət arasında körpü funksiyasını daha səmərəli şəkildə həyata keçirməyə başladı.

Ulu Öndərin media sahəsində islahatlarının əsas xüsusiyyəti onun cəmiyyətin sabitliyini qorumaq, siyasi plüralizmi inkişaf etdirmək və informasiya təhlükəsizliyini təmin etmək arasında balans yaratması idi. Bu dövrdə jurnalistika peşəkarlıq səviyyəsinə görə əvvəlki mərhələlərdən fərqli olaraq daha sistemli forma aldı.

Mətbuat milli ideologiyanın daşıyıcısı olmaqla yanaşı, dövlətin müasir inkişaf modelinin təbliğində iştirak edən təsirli institut kimi qəbul edildi. Elə buna görə də müstəqillik dövründə media sahəsinin institusional inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biri oldu.

Azərbaycanın siyasi tarixində həlledici mərhələ olan Vətən müharibəsi media tarixində də yeni dövrün əsasını qoydu. 44 günlük müharibə informasiya müharibəsinin nə qədər əhəmiyyətli olduğunu açıq şəkildə göstərdi. Bu dövrdə Azərbaycan mediası yalnız xəbərləşdirmə funksiyasını yerinə yetirmədi, o, həm də informasiya cəbhəsinin önündə dayanan ideoloji qüvvə rolunu oynadı. Jurnalistlər informasiya manipulyasiyalarının, saxta təbliğatın və psixoloji təsir mexanizmlərinin qarşısını almaqda fəal iştirak etdilər. Xəbərlər, reportajlar, analitik materiallar və sosial media paylaşımları cəmiyyətin ruh yüksəkliyinə dəstək verdi. Mətbuat həm xalqı müharibənin gedişatı barədə məlumatlandırırdı, həm də Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırdı.

2020-ci ildə baş vermiş Vətən müharibəsi Azərbaycan mətbuatının strateji əhəmiyyətini bir daha ortaya qoydu. Bu dövrdə jurnalistlər informasiya cəbhəsində mübarizə apararaq dünya ictimaiyyətinə doğru məlumatların çatdırılmasında mühüm rol oynadılar. Mətbuat yalnız hadisələri qeydə almırdı, həm də xalqın ruh yüksəkliyini qoruyur, cəmiyyətin mənəvi birliyini gücləndirirdi. Xəbərlərin operativliyi, məlumatların dəqiqliyi, beynəlxalq medianın manipulyasiyalarına qarşı aparılan mübarizə mətbuatın milli təhlükəsizlik sisteminin ayrılmaz hissəsi olduğunu göstərdi.

Müasir dövrün ən mühüm çağırışlarından biri süni intellekt və avtomatlaşdırılmış informasiya sistemlərinin informasiya axınına dominant təsir göstərməsi ilə bağlıdır. Bu yeni reallıq jurnalistikanın funksiyalarını yenidən müəyyənləşdirir. Gələcək dövrlərdə milli mətbuat yalnız ənənəvi informasiya vasitəsi kimi fəaliyyət göstərməyəcək, həm də informasiya alqoritmlərini tənzimləyən və onların yaratdığı yeni sosial təsirləri analiz edən elmi platformaya çevriləcək. Eyni zamanda media savadlılığının artırılması cəmiyyətin bu proseslərdən asılılığını azaltmağa kömək edəcək. Bu baxımdan, mətbuatın gələcək inkişaf strategiyası həm texnoloji, həm də mənəvi parametrlər üzrə formalaşdırılmalıdır.

Milli mətbuatın tarixi inkişaf xəttinə nəzər saldıqda aydın olur ki, mətbuat yazılı sözün və informasiya ötürülməsinin bir forması olmaqla yanaşı, həm də milli yaddaşın, mədəni davamlılığın, ideoloji mübarizənin, sosial psixologiyanın və ictimai sabitliyin qoruyucusudur. Bu sistem əsrlər boyu müxtəlif siyasi rejimlərin və sosial mühitin təsirinə məruz qalmış, lakin heç vaxt öz ideoloji mahiyyətini itirməmişdir. Hər dövr mətbuatın üzərinə düşən vəzifəyə yeni məna qatmışdır: maarifçilik dövründə bilik yaymaq, sovet dövründə sosial məsuliyyət, müstəqillik dövründə demokratik dəyərlərin təbliği, müasir dövrdə isə informasiya təh-

lükəsizliyinin qorunması və milli maraqların müdafiəsi.

Azərbaycan milli mətbuatının formalaşması və inkişaf xəttinin tarixi-mənəvi təhlili göstərir ki, mətbuat cəmiyyətin tərəqqisini özündə əks etdirir. Onun inkişaf mərhələləri Azərbaycanda milli şüurun formalaşması, dəyərlər sisteminin yenilənməsi, demokratik proseslərin güclənməsi və müasir texnoloji mədəniyyətə keçidin reallıqları ilə sıx bağlıdır. Bu gün mətbuat qarşısında duran yeni vəzifələr onu əvvəlkindən daha strateji əhəmiyyətli edir. İnformasiya müharibələrinin qlobal miqyas aldığı bir dövrdə milli mətbuat yalnız xəbərlərin daşıyıcısı deyil, həm də milli təhlükəsizliyin, ideoloji bütövlüyün və mədəni dirçəlişin qoruyucu sistemidir. İkinci Qarabağ müharibəsindən sonra media sahəsində yeni islahatların aparılması informasiya mühitinin daha çevik və etibarlı olmasına şərait yaratdı. "Media haqqında" yeni qanun medianın fəaliyyətini müasir texnoloji reallıqlara uyğunlaşdırmaq məqsədi daşıyırdı. Bu qanun informasiya təhlükəsizliyinin təmin edilməsi, peşəkar jurnalistikanın inkişaf etdirilməsi, rəqəmsal platformaların fəaliyyətinin tənzimlənməsi və media subyektlərinin dövlətlə münasibətlərinin şəffaflaşdırılması üçün mühüm hüquqi baza formalaşdırdı [Media haqqında Azərbaycan Respublikasının Qanunu., 2022].

Hazırkı dövrdə media informasiya ötürməklə yanaşı, həm də milli təhlükəsizliyin mühüm bir komponentinə çevrilmişdir. Qlobal rəqəmsal informasiya mühitində saxta xəbərlərin sürətlə yayılması, dezinformasiya kampaniyalarının genişlənməsi, sosial şəbəkələrin təsir gücünün hədsiz artması media təşkilatlarının qarşısında yeni vəzifələr müəyyənləşdirir. Süni intellektin və avtomatlaşdırılmış alqoritmlərin informasiya axınını yönləndirdiyi bir mühitdə peşəkar jurnalistikanın sosial məsuliyyəti daha da artır. Beynəlxalq informasiya rəqabəti fonunda Azərbaycanın öz informasiya məkanını qoruması, milli maraqlarını müdafiə etməsi, dövlətçilik mövqeyini gücləndirməsi üçün güclü medianın olması ən vacib amillərdəndir.

Prezident İlham Əliyevin 2025-ci ildə Azərbaycan milli mətbuatının 150 illik yubileyi ilə bağlı imzaladığı sərəncam mətbuatın milli inkişaf tarixində oynadığı rolun dövlət səviyyəsində yüksək qiymətləndirildiyini göstərir. Bu addım Azərbaycanın müasir dövrdə informasiya müstəqilliyinə nə qədər önəm verdiyini nümayiş etdirir. Yubiley tədbirlərinin keçirilməsi milli mətbuat tarixinin dərin təhlili, jurnalistikanın keçdiyi yolun qiymətləndirilməsi, yeni nəslin maarifləndirilməsi və medianın gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Sərəncam rəqəmsal erada media sisteminin qarşısında duran çağırışlara cavab verən yeni yanaşmaların formalaşması üçün də mühüm siqnaldır [Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı., 2025].

Mütəxəssislər qeyd edirlər ki, medianın inkişafı ölkənin intellektual mühiti-

nin gücünü də müəyyən edir. Cəmiyyətin özünüifadə imkanı genişləndikcə, dövlətlə vətəndaş arasında kommunikasiyanın keyfiyyəti yüksəldikcə, ictimai şüurun formalaşması daha sağlam şəkildə həyata keçirilir. Bu baxımdan, milli mətbuatın 150 illik tarixi yalnız keçmişə nəzər salmaq deyil, həm də gələcək üçün yeni inkişaf perspektivlərini müəyyənləşdirən strateji hadisədir. Media gələcək dövrdə süni intellekt dövrünün reallıqlarına uyğunlaşmalı, innovativ informasiya modellərini tətbiq etməli, rəqəmsal təhlükəsizlik mexanizmlərini gücləndirməli və ictimai maarifləndirmə funksiyasını daha sistemli şəkildə yerinə yetirməlidir.

## Nəticə / Conclusion

Bu gün medianın qarşısında duran əsas vəzifələrdən biri informasiya mübarizəsində effektiv mövqe tutmaqdır. Dünyada baş verən siyasi proseslər informasiyanın yalnız faktların ötürülməsi olmadığını, həm də ictimai emosiyanın, siyasi mövqenin və kütlə psixologiyasının formalaşdırılması prosesinə çevrildiyini göstərir. Buna görə də media müasir çağırışlara adekvat reaksiya verə bilməli, texnoloji yenilikləri mənimsəməli, dezinformasiya ilə mübarizə aparmalı və cəmiyyətin intellektual potensialının gücləndirilməsində fəal rol oynamalıdır. Tədqiqatda Azərbaycan milli mətbuatının formalaşması və inkişaf xətti tarixi-mənəvi kontekstdə araşdırılmışdır. Tədqiqat göstərir ki, milli mətbuat yalnız informasiya vasitəsi kimi deyil, həm də milli şüurun, mədəniyyətin və ictimai fikrin inkişafında mühüm rol oynamışdır. XIX əsrin sonu və XX əsrin əvvəllərində qəzet və jurnallar milli kimliyin təbliğində, maarifçilik ideyalarının yayılmasında və ictimai-siyasi mühitin formalaşmasında həlledici əhəmiyyət kəsb etmişdir. Aparılan təhlillər göstərir ki, milli mətbuatın inkişafı tarixi şəraitdən, ictimai-siyasi dəyişikliklərdən və elmi-mədəni mühitdən birbaşa təsirlənmişdir. Eyni zamanda bu proses Azərbaycan intellektual və maarifçi mühitinin inkişafını sürətləndirmiş və milli özünüdərkdə mühüm mərhələlərdən biri olmuşdur. Tədqiqatın nəticələri göstərir ki, milli mətbuatın formalaşması həm tarixi, həm də mənəvi kontekstdə cəmiyyətin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bu nəticələr həm tarixçilər, həm mədəniyyətşünaslar, həm də media sahəsində çalışan tədqiqatçılar üçün əhəmiyyətlidir.

**Məqalənin aktuallığı.** Azərbaycan milli mətbuatının formalaşması və inkişaf xəttinin araşdırılması müasir dövrdə xüsusi aktuallıq kəsb edir. Qlobal informasiya cəmiyyətində milli mətbuatın rolu daha da önəmlidir, çünki o, xalqın tarixini, mədəniyyətini və ictimai düşüncəsini qoruyub saxlamaqda əsas vasitədir. Eyni zamanda müasir medianın inkişafı ilə bağlı müzakirələrdə milli mətbuatın tarixi köklərinin anlaşılması onun bugünkü rolunu daha yaxşı qiymətləndirməyə imkan yaradır. Bu mövzu tarixçilər, jurnalistlər, eyni zamanda sosial elmlərlə

məşğul olan tədqiqatçılar üçün vacibdir. Azərbaycan milli mətbuatının inkişaf yolunu tarixi və mənəvi kontekstdə öyrənmək, onun milli şüurun formalaşmasında və ictimai identitetin möhkəmlənməsindəki rolunu nümayiş etdirir. Bu, həm də media sahəsində aparılan yeni tədqiqatlara zəmin yaradır.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat Azərbaycan milli mətbuatının formalaşmasını tarixi-mənəvi kontekstdə sistemli şəkildə araşdıraraq elmi baxımdan yenilik təqdim edir. Əvvəlki işlər daha çox konkret dövrlərin və fərdi qəzetlərin tədqiqinə fokuslanmışdır, lakin bu məqalə mətbuatın sosial, mənəvi və tarixi inkişaf xəttini vahid konseptual çərçivədə təqdim edir. Analiz nəticəsində milli mətbuatın ictimai şüurun formalaşması, maarifçilik ideyalarının yayılması və mədəni özünüdərk proseslərindəki rolu elmi sübutlarla dəstəklənmişdir. Eyni zamanda məqalədə milli mətbuatın digər milli və regional mətbuat sistemləri ilə müqayisəsi aparılmış və bu sahədə yeni yanaşma irəli sürülmüşdür. Beləliklə, araşdırma elmi yenilik kimi həm tarixi, həm də mədəni aspektləri birləşdirərək Azərbaycan mətbuatşünaslığında boşluğu doldurur.

**Məqalənin praktik əhəmiyyəti.** Araşdırmanın praktik əhəmiyyəti onun Azərbaycan mətbuatının inkişaf xəttini başa düşmək və müasir media sahəsində tətbiq etmək imkanları ilə bağlıdır. Tədqiqat nəticələri müəllimlər, jurnalistlər və media tədqiqatçıları üçün dərs materialı və metodik vəsait kimi istifadə oluna bilər. Eyni zamanda milli mətbuatın ictimai-siyasi və mədəni rolunu öyrənmək dövlət siyasətinin, media strategiyalarının və maarifçilik layihələrinin hazırlanmasında əhəmiyyətlidir. Məqalədə təqdim olunan təhlil həm də müasir media mühitində milli kimliyin qorunması və inkişafı üçün elmi əsaslar yaradır. Bu, həm dövlət qurumları, həm mətbu orqanlar, həm də akademik dairələr üçün praktik tövsiyələr təqdim edir, milli mətbuatın sosial funksiyalarını daha effektiv şəkildə həyata keçirməyə kömək edir.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2025). 25 aprel. President.az. https://president.az/az/articles/view/68659
2. Əhmədov, H. (2024). “Azərbaycan məktəbi” jurnalı milli-mədəni irsimizin ayrılmaz hissəsidir. Azərbaycan məktəbi, №4, s.127–132. https://as-journal.edu.az/uploads/files/2024/12/s-127-132-humeyir-ehmedov.pdf
3. Xəlilov, A. (2022). Molla Nəsrəddin ensiklopediyası. https://www.researchgate.net/publication/362505310_Molla_Nsrddin_ensiklopediyasi

4. Həbibbəyli, İ. (2017). Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı və Mollanəsrəddinçilik.https://www.mnjurnal.az/pdf/Molla_Nesreddin_Isa_Hebibbeyli_I_cild_on_soz.pdf
5. Media haqqında Azərbaycan Respublikasının Qanunu. (2022). 22 fevral.
6. Məmmədquluzadə, C. (2004). Əsərləri (4 clddə, IV cild). Bakı: "Öndər".
7. "Molla Nəsrəddin" ensiklopediyası.(2020). Bakı: "Elm". https://mnjurnal.az/az.php?go=tarix
8. Zərdabi, H. (2005). Əkinçi (seçilmiş yazılar). Azərbaycan Milli Kitabxanası. https://anl.az/el/Kitab/235231.pdf

# SCIENTIFIC-PEDAGOGICAL PUBLICATIONS: OPPORTUNITIES FOR IMPACT ON THE DEVELOPMENT OF EDUCATION AND PEDAGOGICAL SCIENCE

**Boyukagha Mikayilli**

Deputy Editor-in-Chief of the Scientific-Methodological Journal of "Preschool and Primary Education" Ministry of Science and Education of the Republic of Azerbaijan
E-mail: tehsil.zaman@mail.ru
https://orcid.org/0000-0001-8931-0459

**Abstract.** This article provides a comprehensive analysis of the potential impact of scientific-pedagogical press on the development of education and pedagogical science. The relevance of the topic lies in the fact that, in the modern era, education systems are forced to adapt to rapidly changing social, technological, and ideological contexts. The author demonstrates that scientific journals are not only academic tools of analysis but also crucial resources for the scientific justification of decision-making processes, studying and disseminating practice, and promoting new pedagogical approaches. In the context of evidence-based education policy, scientific-pedagogical publications serve as a theoretical and practical foundation for efficient management and effectiveness. The article analyzes the influence and impact of international journals such as "Educational Research Review," "Journal of Educational Psychology," and "Teaching and Teacher Education." At the same time, it assesses the contributions of local journals, such as "Azerbaijan Journal of Educational Studies" and "Preschool and Primary Education," to the development of pedagogical discourse. As a result, the article presents a scientifically-based approach that highlights the interaction between the dissemination of scientific knowledge, educational policy, and pedagogical practices.

**Keywords:** pedagogical thought, scientific-pedagogical press, "Big Five" academic publishers, pedagogical science, teacher training, philosophy of education, lifelong learning.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5023
**To cite this article:** Mikayilli B. (2025). Scientific-pedagogical publications: opportunities for impact on the development of education and pedagogical science. *Journal of Preschool and Primary Education*, "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 53-70.
**Article history:** received – 15.10.2025; accepted – 20.11.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# ELMİ-PEDAQOJİ NƏŞRLƏR:TƏHSİLİN VƏ PEDAQOJİ ELMİN İNKİŞAFINA TƏSİR İMKANLARI

**Böyükağa Mikayıllı**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalının baş redaktor əvəzi
E-mail: tehsil.zaman@mail.ru
https://orcid.org/0000-0001-8931-0459

**Annotasiya.** Bu məqalədə elmi-pedaqoji mətbuatın təhsilin və pedaqoji elmin inkişafına təsir imkanları kompleks şəkildə təhlil olunur. Mövzunun aktuallığı ondan ibarətdir ki, müasir dövrdə təhsil sistemləri sürətlə dəyişən sosial, texnoloji və ideoloji kontekstlərə uyğunlaşmaq məcburiyyətindədir. Müəllif göstərir ki, elmi jurnallar yalnız akademik təhlil vasitəsi deyil, həm də qərarvermə prosesinin elmi əsaslandırılması, təcrübənin öyrənilməsi və yayılması, yeni pedaqoji yanaşmaların təşviqi baxımından mühüm resursdur. Sübutlara əsaslanan təhsil siyasəti (evidence-based policy) kontekstində elmi-pedaqoji nəşrlər səmərəli idarəetmə və effektivlik üçün nəzəri və praktiki baza rolunu oynayır. Məqalədə "Educational Research Review", "Journal of Educational Psychology", "Teaching and Teacher Education" kimi beynəlxalq jurnalların nüfuzu və təsiri təhlil edilir. Eyni zamanda "Azərbaycan məktəbi", "Məktəbəqədər və ibtidai təhsil" kimi yerli jurnalların da pedaqoji diskursun inkişafına verdiyi töhfələr qiymətləndirilir. Nəticədə, məqalə elmi biliklərin yayımı, təhsil siyasəti və pedaqoji praktikalar arasında qarşılıqlı əlaqəni işıqlandıran elmi əsaslı yanaşma təqdim edir.

**Açar sözlər:** pedaqoji fikir, elmi-pedaqoji mətbuat, "Böyük beşlik", pedaqoji elm, müəllim hazırlığı, təhsil fəlsəfəsi, ömürboyu öyrənmə.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5023
**Məqaləyə istinad:** Mikayıllı B. (2025). Elmi-pedaqoji nəşrlər: təhsilin və pedaqoji elmin inkişafına təsir imkanları. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində", səh. 53-70.
**Məqalə tarixçəsi:** göndərilib – 15.10.2025; qəbul edilib – 20.11.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Indrotuction

Elmi-pedaqoji mətbuat, yəni elmi jurnallar, monoqrafiyalar və digər akademik nəşrlər, biliklərin yayılması, yeni pedaqoji ideyaların təşviqi və təhsil sistemlərinin təkmilləşdirilməsi baxımından mühüm təsir gücünə malikdir. Belə nəşrlər, yalnız nəzəri-pedaqoji biliklərin zənginləşdirilməsinə deyil, eyni zamanda təhsilin praktik inkişafı və təcrübə mübadiləsinin stimullaşdırılmasına xidmət edir.

Tarix boyu bir çox filosof və pedaqoqların Jan Jak Russo, Jan Amos Komenski, İohan Pestalotsi, Fridrix Disterveq, Yanuş Korçak və başqalarının özlərindən əvvəlki mütəfəkkirlərin fikir və təcrübələrindən bəhrələnərək irəli sürdükləri yeni ideyalar sonradan elmi-pedaqoji mətbuat vasitəsilə təhlil edilərək geniş yayılmışdır. Bu baxımdan, elmi-pedaqoji nəşrlər pedaqoji fikrin inkişafında körpü rolu oynayaraq həm qlobal, həm də milli səviyyədə maarifləndirici və istiqamətverici funksiyalar yerinə yetirir.

Hazırkı dövrdə rəqəmsallaşma, təhsil resurslarının qlobal əlçatanlığı, beynəlxalq elmi əməkdaşlıqlar və açıq elm (open science) təşəbbüsləri elmi-pedaqoji mətbuatın təsir imkanlarını daha da genişləndirir. Elmi jurnallar tədqiqat nəticələrinin sürətli yayımını təmin etməklə yanaşı, beynəlxalq elmi diskussiyaların formalaşmasında və müxtəlif pedaqoji yanaşmaların qarşılıqlı təsirində aparıcı rol oynayır. Beləliklə, bu mətbuat pedaqoji elmin dinamik şəkildə inkişafına və təhsilin keyfiyyətinin artırılmasına bilavasitə töhfə verir.

Mövcud ədəbiyyat elmi-pedaqoji mətbuatın təhsil sistemindəki çoxistiqamətli rolunu geniş şəkildə əhatə edir. Xüsusilə elmi nəşrlərin pedaqoji tədqiqatların yayılması, təhsil siyasətlərinin formalaşdırılması və nəzəri biliklərin inkişafı baxımından əhəmiyyəti bir sıra nüfuzlu tədqiqatçılar tərəfindən elmi əsaslarla təhlil olunmuşdur. Məsələn, Anne-Wil Harzinq (2021) elmi nəşrlərin akademik ictimaiyyət üçün “bilgi mübadiləsi platforması” kimi çıxış etdiyini qeyd edir və elmi-pedaqoji mətbuatın təhsildə nəzəri əsaslandırma və praktik qərarların formalaşmasında mühüm rol oynadığını vurğulayır. Altbax və de Vit (2020) akademik nəşrlərin qloballaşan təhsil mühitində ideya dövriyyəsinin və elmi nüfuzun təmin edilməsində strateji vasitə olduğunu qeyd edirlər. Eyni zamanda, Merqa və Mason (2020) pedaqoji tədqiqatların geniş auditoriyaya çatdırılmasında elmi nəşrlərin funksional əhəmiyyətini vurğulayaraq bildirirlər ki, bu mətbuat olmadan təhsil tədqiqatlarının praktikaya inteqrasiyası xeyli məhdudlaşar. Besley və Peters (2019) isə pedaqoji jurnalların təhsildə nəzəri biliklərin strukturlaşdırılmasında, diskursların formalaşmasında və elmi cərəyanların inkişafında aparıcı rolunu xüsusi qeyd edirlər. Bu araşdırmalar elmi-pedaqoji mətbuatın yalnız məlumat ötürmə vasitəsi deyil, həm də tədqiqatların sosial və institusional təsirini

artıran mühüm akademik resurs olduğunu göstərir.

Bu kontekstdə beynəlxalq səviyyədə tanınan bir sıra nüfuzlu elmi-pedaqoji jurnallar *Educational Research Review* (Elsevier), *Teaching and Teacher Education* (Elsevier), *Journal of Educational Psychology* (APA), *Compare: A Journal of Comparative and International Education* (Taylor & Francis), *International Review of Education* (UNESCO) və *British Journal of Educational Studies* (Routledge) qlobal pedaqoji bilik mübadiləsinin və elmi innovasiyaların yayılmasında aparıcı mövqe tutur. Bu jurnalların fəaliyyəti, tematik istiqamətləri və pedaqoji ictimaiyyətə təsir imkanları məqalənin növbəti bölmələrində təhlil olunacaqdır.

Azərbaycanda elmi-pedaqoji mətbuatın formalaşması və inkişafında bir sıra nüfuzlu nəşrlər mühüm rol oynamışdır. Xüsusilə artıq yüz illik fəaliyyəti ilə seçilən "Azərbaycan məktəbi" elmi-nəzəri jurnalı, eləcə də "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalı ölkənin pedaqoji fikir mühitinin təşəkkül tapmasına və davamlı inkişafına əhəmiyyətli töhfələr vermişdir. Bu jurnallar yalnız tədris prosesinin elmi əsaslarda qurulmasına deyil, eyni zamanda pedaqoji biliklərin sistemləşdirilməsinə və tədqiqatçılar arasında elmi dialoqun təşviqinə xidmət etmişdir. Xüsusilə son illərdə bu nəşrlər qlobal elmi-tədqiqat gündəmini yaxından izləyərək beynəlxalq səviyyəli mövzulara yer verir, müasir elmi-pedaqoji problemlərin müzakirəsində fəal iştirak edir və beynəlxalq elmi ictimaiyyətə inteqrasiyanı gücləndirirlər.

Beləliklə, bu tədqiqat həm nəzəri, həm də praktiki baxımdan aktualdır və pedaqoji tədqiqatçılar, müəllimlər, təhsil siyasətçiləri və elmi jurnalistika ilə maraqlanan mütəxəssislər üçün fundamental nəticələr təqdim etməyi hədəfləyir.

## Metodologiya

Bu tədqiqatda elmi-pedaqoji mətbuatın təhsilin inkişafına və pedaqoji biliklərin formalaşmasına təsir imkanlarını araşdırmaq məqsədilə keyfiyyət yönümlü (qualitative) metodoloji çərçivə tətbiq edilmişdir. Keyfiyyət yönümlü yanaşma elmi mətnlərin mənalandırılması, onların mahiyyətindəki konseptual xəttin üzə çıxarılması və pedaqoji diskursun inkişaf dinamikasının interpretativ şəkildə dərk edilməsi üçün əlverişli imkan yaradır.  Araşdırma prosesində beynəlxalq elmi-pedaqoji jurnalların məzmunu sistemli şəkildə analiz edilmiş, onların tematik istiqamətləri, nəzəri çərçivələri, pedaqoji yanaşmaları və elmi ictimaiyyətə təsir mexanizmləri öyrənilmişdir. Tədqiqatın məlumat bazasını müxtəlif dövrlərdə dərc olunmuş elmi, analitik məqalələr, redaksiya siyasətləri, jurnal buraxılışlarının strukturu və pedaqoji diskursda yer alan konseptual vurğular təşkil etmişdir. Eyni zamanda beynəlxalq elmi nəşriyyat sisteminin xüsusiyyətləri ilə Azərbaycan elmi-pedaqoji mətbuatının mövcud vəziyyəti müqayisəli analitik yanaşma əsasında tutuşdurulmuşdur. Bu yanaşma elmi jurnalların rolunu daha geniş kontekstdə qiymətləndirməyə, qlobal elmi ekosistemlə milli akademik ənənələr ara-

sındakı kəsişmə və fərqlilikləri müəyyən etməyə imkan vermişdir.

Tədqiqatın metodoloji çərçivəsi sənədlərin təhlili, struktur-funksional yanaşma, tematik kateqoriyalaşdırma və pedaqoji diskursun interpretativ oxunuşunu özündə birləşdirərək elmi-pedaqoji nəşrlərin çoxölçülü mahiyyətini kompleks şəkildə araşdırmağa şərait yaratmışdır.

## Problemin qoyuluşu

Müasir dövrdə təhsil sistemləri qarşısında duran çağırışlar: qloballaşma, rəqəmsallaşma, sosial dəyişikliklər və 21-ci əsr bacarıqlarının tələbləri pedaqoji elmin və tədris təcrübələrinin davamlı olaraq yenilənməsini zəruri edir. Belə bir şəraitdə elmi-pedaqoji mətbuatın rolu sadəcə bilik ötürən vasitə olmaqdan çıxaraq, təhsil siyasətlərinə, müəllim hazırlığına, pedaqoji metodologiyaya və tədris mühitinə yön verən strateji alətə çevrilmişdir. Lakin bu sahədə nəzərə çarpan problem ondan ibarətdir ki, elmi-pedaqoji mətbuatın təsir imkanları çox zaman yalnız akademik dairələrlə məhdudlaşır, praktik pedaqoqlar və təhsil qərarvericiləri üçün istifadəyə yönəlik əlaqələndirici mexanizmlər zəif inkişaf etmiş qalır. Digər tərəfdən, beynəlxalq elmi jurnalların fəaliyyət istiqamətləri, nəzəri çərçivələri və praktik təsirləri ilə yerli elmi-pedaqoji nəşrlər arasında funksional və məzmun fərqlilikləri mövcuddur. Bu fərqliliklərin sistemli şəkildə təhlil olunmaması elmi mətbuatın təhsilin inkişafında oynadığı rolun bütöv şəkildə dəyərləndirilməsini çətinləşdirir. Xüsusilə Azərbaycan kontekstində yüz ilə yaxın tarixi olan “Azərbaycan məktəbi” və son dövrlər bir çox nəzərəçarpacaq yeniliklərə imza atan “Məktəbəqədər və ibtidai təhsil” kimi jurnalların funksiyaları ilə beynəlxalq nəşrlərin (məs., Educational Research Review, Teaching and Teacher Education, Compare) pedaqoji diskursdakı mövqeləri arasında əlaqələrin və fərqlərin elmi əsaslarla müqayisə olunmasına ehtiyac var. Eyni zamanda açıq elm (open science), rəqəmsal transformasiya və təhsildə sübutlara əsaslanan siyasət anlayışlarının sürətlə yayıldığı indiki mərhələdə elmi-pedaqoji nəşrlərin bu çağırışlara necə cavab verdiyini, bilik istehsalı və yayımı proseslərini necə yenidən təşkil etdiyini araşdırmaq vacibdir. Bu problem təkcə nəzəri deyil, eyni zamanda praktiki əhəmiyyətə malikdir, çünki təhsil sahəsində qərarların elmi əsaslı verilməsi üçün güclü və funksional elmi jurnal sisteminin mövcudluğu əsas şərtlərdən biridir.

Yuxarıda qeyd olunanlar bu tədqiqatın əsas problemini formalaşdırır: elmi-pedaqoji mətbuatın müasir təhsil sistemlərində funksional rolu nədir, bu rol beynəlxalq və milli kontekstdə necə dəyişir və bu mətbuatın təhsil siyasətinə, pedaqoji təcrübəyə və elmi biliklərin yayımına təsir imkanları hansı mexanizmlərlə reallaşır? Problemi elmi əsaslarla araşdırmaq, mövcud elmi jurnalların təhlili, onların funksional və məzmun istiqamətlərinin müqayisəsi, bilik yayımı ilə tətbiq arasındakı əlaqələrin müəyyənləşdirilməsi bu tədqiqatın əsas məqsəd və vəzifələrini müəyyən edir.

**Tədqiqat sualı**

Elmi-pedaqoji mətbuat təhsilin və pedaqoji elmin inkişafında hansı funksional və strateji təsir imkanlarına malikdir?

**Nəticələr və müzakirə**

Beynəlxalq elmi jurnalların nüfuzunun formalaşmasında təkcə məzmunun elmi keyfiyyəti deyil, həm də qlobal akademik nəşriyyat bazarının struktur xüsusiyyətləri həlledici rol oynayır. Mövcud tədqiqatlar göstərir ki, elmi nəşriyyat sahəsi, əsasən, "Böyük beşlik" kimi tanınan aparıcı kommersiya nəşriyyatlarının, *"Elsevier", "Springer Nature", "Wiley", "Taylor & Francis"* və *"SAGE Publications"* nəzarətində cəmləşib. Bu oliqopol strukturu elmi biliklərin istehsalı və yayımının hansı kanallar vasitəsilə həyata keçirildiyini müəyyən etməklə yanaşı, elmi diskursun tematik prioritetlərinə və inkişaf trayektoriyasına da əhəmiyyətli dərəcədə təsir göstərir [Larivière,V., Haustein, S., Mongeon, P., 2015].

Elmi-pedaqoji mətbuatın təhsilin və pedaqoji elmin inkişafında oynadığı rolu dəyərləndirmək üçün onun funksional xüsusiyyətlərini və məzmun istiqamətlərini nüfuzlu beynəlxalq jurnalların timsalında təhlil etmək zəruridir. Bu jurnallar, yalnız biliklərin yayılmasına deyil, həm də pedaqoji təcrübənin zənginləşdirilməsinə, müəllim hazırlığının təkmilləşdirilməsinə və təhsil siyasətlərinin elmi əsaslarla formalaşmasına mühüm töhfə verir. Giriş və metodologiya bölmələrində qeyd olunduğu kimi, bu tədqiqatda seçilmiş jurnallar (*Educational Research Review*, *Teaching and Teacher Education*, *Journal of Educational Psychology*, *Compare*, *International Review of Education* və *British Journal of Educational Studies)* müxtəlif pedaqoji istiqamətləri əhatə etməklə, elmi-pedaqoji mətbuatın qlobal və ölkə miqyasında necə formalaşdığını göstərən təmsilçi nümunələr kimi çıxış edirlər.

Bu bölmədə həmin jurnalların əsas tematik xətləri, fəaliyyət istiqamətləri və pedaqoji diskursdakı yeri təhlil olunacaq, eyni zamanda onların təhsilin keyfiyyətinə və elmi innovasiyalara təsiri kontekstual əsaslarla müzakirə ediləcəkdir. Bu yanaşma, elmi-pedaqoji nəşrlərin yalnız informasiya daşıyıcısı deyil, həm də pedaqoji dəyişikliklərin strateji alətinə çevrildiyini göstərməyi hədəfləyir.

**Educational Research Review (ERR)**

Jurnal "Elsevier" nəşriyyatı tərəfindən 2006-cı ildən nəşr olunur və əsasən, sistematik icmal, meta-analiz, təhlilə əsaslanan nəzəri sintezlər kimi tədqiqat formalarına üstünlük verir. Bu xüsusiyyətlərinə görə nəşr pedaqoji elmin nəzəri əsaslarını gücləndirən və praktik qərarların elmi sübutlara söykənməsini təşviq edən aparıcı platformalardan biridir. Jurnalın təhsilin və pedaqoji elmin inkişafına töhfələrini aşağıdaki kimi sistemləşdirmək mümkündür:

*1. Pedaqoji biliklərin sistemləşdirilməsi və elmi əsaslandırılması*

ERR jurnalının əsas töhfələrindən biri təhsildə sürətlə toplanan, lakin bəzən

parçalanmış şəkildə təqdim olunan biliklərin elmi sintezidir. Sistematik icmallar mövcud tədqiqatları müqayisəli şəkildə təhlil etməklə elm və təcrübə arasında körpü rolunu oynayır. Bu, pedaqoji elmin inkişafında paradiqmaların dəyişməsinə, yeni nəzəri modellərin formalaşmasına və tətbiqə yararlı nəticələrin çıxarılmasına imkan verir.

*2. Təhsil siyasətinin formalaşmasında sübutlara əsaslanan yanaşmaların dəstəklənməsi*

Sübutlara əsaslanan təhsil siyasəti (evidence-based education policy) müasir pedaqogikanın əsas prinsiplərindən biridir. Sübutlara əsaslanan təhsil siyasətinin əsas ideyası ondan ibarətdir ki, qərarlar elmi tədqiqatlara söykənməlidir və təhsildə təcrübəyə tətbiq olunmalı olan strategiyalar bu tədqiqatların nəticələri ilə müəyyən edilməlidir [Slavin, R., 2002]. ERR jurnalında dərc olunan icmallar və meta-analizlər təhsil siyasəti formalaşdırıcıları üçün riskləri azaldan, effektivliyi artıran qərar mexanizmlərinin qurulmasına dəstək verir. Beləliklə, jurnal yalnız akademik deyil, həm də strategiya yönümlü qərarvericilərin diqqət mərkəzində olan resurs rolunu oynayır [Pellegrini, M., Vivanet, G., 2021].

*3. Müəllim hazırlığında tətbiq edilə bilən sübut bazası yaratmaq*

Müəllim hazırlığı və peşəkar inkişaf proqramlarının formalaşmasında ERR jurnalında yayımlanan tədqiqatların təsiri böyükdür. Jurnal müxtəlif tədris strategiyalarının və sinifdaxili müdaxilələrin effektivliyini müqayisə edən elmi məlumat bazası formalaşdırıb [Hattie, J., 2009]. Bu isə müəllimlərin praktik fəaliyyətini daha sistemli və məqsədyönlü etməyə xidmət edir.

*4. Təhsil texnologiyalarının və innovativ metodların elmi qiymətləndirilməsi*

ERR jurnalının yayımladığı icmallar təhsil texnologiyaları, rəqəmsal vasitələrin və distant təhsilin təsirini qiymətləndirən araşdırmaları əhatə etməklə bu sahədəki sürətli inkişafı analitik şəkildə izləyir. Xüsusilə COVID-19 pandemiyası dövründə bu tip tədqiqatların əhəmiyyəti artmışdır [Bond, M., et al., 2021].

*5. Tədris prosesinin təkmilləşdirilməsinə istiqamət verən nəzəri çərçivələr*

Jurnal həm də pedaqoji yanaşmaların nəzəri əsaslarını möhkəmləndirən, məsələn, konstruktivizm, sosiokultural nəzəriyyə, koqnitiv yüklənmə nəzəriyyəsi kimi istiqamətləri izah edən fundamental icmallar təqdim edir. Bu cür tədqiqatlar yalnız praktiki deyil, akademik pedaqoji diskursun da əsas dayaqlarındandır [Kirschner,P., Sweller, J., Clark, R., 2006].

**Teaching and Teacher Education**

***Teaching and Teacher Education (TATE)*** jurnalı 1985-ci ildən "Elsevier" nəşriyyatı tərəfindən nəşr olunur və müəllim hazırlığı, müəllim peşəkarlığı, sinifdaxili təcrübələr və təhsildə müəllim rolu ilə bağlı empirik tədqiqatlara həsr olunmuş aparıcı beynəlxalq elmi platformadır. Jurnalın əsas auditoriyası tədqiqatçılarla yanaşı, müəllim hazırlayan təhsil müəssisələri, pedaqoji fakültələr və təhsil

siyasətçiləridir.

*1. Müəllim hazırlığı və peşəkar inkişafın elmi əsaslandırılması*

TATE jurnalı müəllim hazırlığına dair tədqiqatları sistemli şəkildə təqdim etməklə bu sahədəki təlim proqramlarının nəzəri və metodoloji çərçivəsini formalaşdırır. Müəllimlik təhsili üzrə tədqiqatlarda, məsələn, klinik təcrübənin, refleksiv təlimin və mentorluğun rolu geniş şəkildə analiz olunur [Zeichner, K.,2010]. Bu da pedaqoji elmin praktik əsaslara söykənən inkişafına şərait yaradır.

*2. Tədris təcrübələrinin empirik qiymətləndirilməsi*

Jurnal müxtəlif ölkələrdə tətbiq olunan tədris metodlarını və pedaqoji yanaşmaları empirik məlumatlara əsaslanaraq müqayisə edir. TATE-də yayımlanan araşdırmalar tədris keyfiyyətinin ölçülməsi, müəllim-müəllim və müəllim-şagird münasibətləri, inklüziv təhsil və şagirdlərdə motivasiyanın artırılması kimi sahələri əhatə edir [Korthagen, F., 2017]. Bu, müəllimlik fəaliyyətini yalnız fənn bilikləri üzərində deyil, eyni zamanda pedaqoji səriştə, etika və dəyərlər üzərində də qurmağa imkan verir.

*3. Təhsil siyasətinin formalaşmasına təsir*

TATE-də dərc olunan çoxsaylı tədqiqatlar təhsil siyasətçiləri üçün müəllimlərin ehtiyaclarını və sinifdəki real problemləri daha dərindən anlamağa şərait yaradır. Bu jurnal təhsil siyasətinə "yuxarıdan-aşağı" deyil, "aşağıdan-yuxarı" yanaşmanı təşviq edir, yəni müəllimlərin səsi və təcrübəsi elmi səviyyədə sənədləşdirilərək qərarverici strukturlara çatdırılır [Cochran-Smith, M., et al., 2009].

*4. Qlobal təcrübə mübadiləsi*

Jurnal beynəlxalq müəllim hazırlığı modellərini müqayisəli şəkildə təqdim etməklə təcrübə mübadiləsinə geniş imkan yaradır. TATE-nin müəllifləri və oxucuları dünyanın müxtəlif regionlarından olduğu üçün jurnal qlobal pedaqoji dialoqun mühüm platformasına çevrilmişdir [Darling-Hammond, L., Lieberman, A., 2012].

*5. Pedaqoji təfəkkürün dəyişməsi və nəzəri inkişaf*

TATE təkcə praktikaya deyil, eyni zamanda müəllimlik təfəkkürünün dəyişməsinə yönəlmiş nəzəri çərçivələrin yayılmasına da xidmət edir. Müəllim kimliyi, reflektiv təcrübə, agentlik və təhsil fəlsəfəsi kimi anlayışlar bu jurnalda elmi əsaslarla işlənir [Beauchamp, C., Thomas, L.,2009]. Bu, pedaqoji fikri daha dərin, çoxsəviyyəli və kontekstual şəkildə inkişaf etdirməyə imkan verir.

**Journal of Educational Psychology**

***Journal of Educational Psychology (JEP)*** Amerika Psixologiya Assosiasiyası (APA) tərəfindən 1910-cu ildən nəşr olunur və bu sahənin ən qədim və ən nüfuzlu elmi jurnallarından biridir. Jurnalın əsas məqsədi təhsil mühitində psixoloji prosesləri araşdırmaq və əldə olunan nəticələri pedaqoji yanaşmaların inkişafına yönəltməkdir. Elmi psixoloji tədqiqatların təhsil sahəsinə tətbiqində JEP-in

rolu təkcə nəzəri çərçivələrin gücləndirilməsi ilə məhdudlaşmır, həm də tədris və öyrənmə proseslərinin strukturuna dair dərin anlayış yaradır. Bu proseslərə nəzər salaq:

*1. Təhsil psixologiyasının nəzəri əsaslarının formalaşdırılması*

JEP təhsil psixologiyasına dair bir çox əsas anlayışın elmi şəkildə işlənib yayılmasında aparıcı rol oynamışdır. Bu jurnal vasitəsilə motivasiya nəzəriyyələri, konstruktiv öyrənmə modelləri, koqnitiv yüklənmə, öyrənmə strategiyaları kimi əsas istiqamətlər elmi ictimaiyyətə təqdim olunmuşdur [Pintrich, P., 2003]. Bu çərçivələr pedaqoji elmin inkişafında mühüm nəzəri dayaqlar yaradır.

*2. Şagird davranışları və öyrənmə nəticələrinin psixoloji izahı*

JEP-in yayımladığı tədqiqatlar təhsil mühitində şagird davranışlarının, emosional reaksiyaların və sosial qarşılıqlı əlaqələrin öyrənmə nəticələrinə təsirini ölçür [Wentzel, K., 1998]. Bu tədqiqatlar vasitəsilə müəllimlər və pedaqoji heyət şagird mərkəzli yanaşmaların psixoloji əsaslarını daha dərindən anlaya və tətbiq edə bilirlər.

*3. Müəllim və təhsil liderlərinin psixoloji hazırlığı*

JEP təkcə şagirdləri deyil, həm də müəllimlərin və təhsil rəhbərlərinin emosional rifahı, tükənmə sindromu, özünütənzimləmə, münaqişələrin idarə olunması kimi məsələləri də tədqiq edir. Bu, müəllim hazırlığında yalnız akademik deyil, eyni zamanda psixoloji dayanıqlılıq və peşəkar səriştəlilik kimi amillərin nəzərə alınmasına zəmin yaradır [Jennings, P., Greenberg, M., 2009].

*4. Öyrənmənin fərdiləşdirilməsi və adaptiv təhsil yanaşmaları*

JEP-də fərdi fərqlər (intellekt, sosial status, dili bacarıqları, travma keçmişi və s.) nəzərə alınmaqla öyrənmənin adaptiv modelləri işlənir. Bu jurnal universal dizayn, differensial öyrənmə, inklüziv təlim mühitlərinin elmi əsaslandırılmasında mühüm mənbə rolunu oynayır.

*5. Təhsil texnologiyaları və psixoloji təsir mexanizmləri*

JEP-də son illərdə yayımlanan məqalələr virtual təhsil, gamifikasiya (Gamifikasiya dərsləri oyun elementlərini tədris prosesinə daxil etməklə uşaqlarda öyrənmə motivasiyasını artırır. Bu, həm də öyrənməni əyləncəli edir.), öz sürətində öyrənmə (self-paced learning) kimi müasir texnologiyaların şagirdin emosional və koqnitiv reaksiyalarına təsirini ölçür. Bu, texnologiyanın pedaqoji təcrübəyə düzgün inteqrasiyasının elmi əsaslara söykənməsinə kömək edir [Plass, J., et al., 2015].

Journal of Educational Psychology pedaqoji fikrin psixoloji təməllərinin formalaşmasında və tədris prosesinin fərdiləşdirilməsində misilsiz rol oynayır. Bu jurnal, həm pedaqoji nəzəriyyələrin elmi əsaslandırılmasına, həm də təhsil mühitində tətbiq olunan yanaşmaların psixoloji uyğunluğunun təmin edilməsinə bilavasitə töhfə verir. Müasir təhsildə şagirdyönümlü, inklüziv və adaptiv yanaş-

maların geniş yayılmasında bu jurnalın tədqiqat bazası etibarlı elmi dayaqlardan biri kimi çıxış edir.

**Compare: A Journal of Comparative and International Education**

***Compare: A Journal of Comparative and International Education*** 1975-ci ildən etibarən nəşr olunur və hazırda "Taylor & Francis" nəşriyyatı tərəfindən yayımlanır. Bu jurnal Britaniya Beynəlxalq və Müqayisəli Təhsil Assosiasiyasının (British Association for International and Comparative Education – BAICE) rəsmi nəşr orqanıdır və təhsili müqayisəli, çoxmədəniyyətli və transsərhəd kontekstlərdə araşdıran qabaqcıl elmi platformadır. Bu qlobal elmi-pedaqoji nəşr aşağıda qeyd edəcəyim elmi-pedaqoji istiqamətləri dəstəkləyir:

*1. Təhsilin müqayisəli öyrənilməsi vasitəsilə pedaqoji elmin zənginləşdirilməsi*

*Compare* jurnalının əsas töhfəsi fərqli ölkələrin və regionların təhsil modellərini müqayisə edərək ortaq prinsipləri və lokal fərqlilikləri üzə çıxarmasıdır. Bu müqayisələr yalnız sistemlər arasında texniki fərqləri deyil, kulturoloji, sosial və ideoloji kontekstləri də nəzərə alaraq pedaqoji elmi zənginləşdirir [Crossley, M., Watson, K., 2003]. Nəticədə, pedaqoji tədqiqatlara daha çox kontekstual yanaşma gətirilir.

*2. Qlobal təhsil tendensiyalarının və transformasiyaların təhlili*

Jurnal qloballaşma, beynəlxalq qiymətləndirmə sistemləri (məsələn, PISA, TIMSS), miqrasiya, təhsil bərabərsizliyi və postkolonial yanaşmalar kimi məsələləri araşdırmaqla təhsil sahəsində baş verən qlobal dəyişiklikləri elmi müstəviyə daşıyır. Bu, təhsil siyasəti və pedaqoji modellərin beynəlxalq uyğunlaşma imkanlarını və ya dirəniş mexanizmlərini anlamağa şərait yaradır [Tikly, L., Barrett, A., 2011].

*3. Milli təhsil modellərinin və siyasətlərinin tənqidi analizi*

*Compare* jurnalı yalnız beynəlxalq trendləri deyil, eyni zamanda konkret ölkələrin təhsil siyasətlərini də elmi analizə cəlb edir. Bu təhlillər vasitəsilə yerli təhsil modellərinin güclü və zəif tərəfləri, onların beynəlxalq səviyyədə məqbul və ya problematik cəhətləri aydın şəkildə ortaya qoyulur [Sobe, N., Kowalczyk, J., 2014]. Bu, yerli pedaqoji qərarların qlobal kontekstdə təhlilinə imkan verir.

*4. Təhsil tədqiqatçılarının beynəlxalq əməkdaşlığı və diskursu*

*Compare* jurnalı beynəlxalq tədqiqatçılar üçün əməkdaşlıq platforması rolunu oynayır. Onun məqalələri müxtəlif regionlardan olan müəlliflər tərəfindən hazırlanır və müxtəlif sistemləri eyni nəzəri çərçivədə müqayisə etməyə imkan verir. Bu, təhsilin transmilli inkişafına mühüm töhfə verir.

*Compare* jurnalı pedaqoji elmin yalnız bir ölkənin, bir mədəniyyətin və ya bir sistemin daxilində inkişaf edən fenomen olmadığını göstərir. O, təhsilin sosial, mədəni və ideoloji çoxsəviyyəli dinamikasını açaraq, pedaqoji diskursu qlobal

düşüncə tərzinə yönəldir. Təhsilin inkişafı ilə bağlı daha ədalətli, inklüziv və kontekstual yanaşmaların formalaşdırılmasında bu jurnalın rolu danılmazdır.

**International Review of Education**

International Review of Education – Journal of Lifelong Learning (IRE) UNESCO-nun beynəlxalq nəşr platformasıdır və 1955-ci ildən etibarən çap olunur. "Springer" nəşriyyatında yayımlanan bu jurnal ömürboyu təhsil, qeyri-formal və informal təhsil, yetkinlərin təhsili və sosial ədalət yönümlü pedaqoji siyasətlərin elmi əsaslarını tədqiq edən aparıcı beynəlxalq elmi platformadır. Jurnalın əsas məqsədi təhsili yalnız məktəb dövrü ilə məhdudlaşdırmayan, bütün həyat boyunca davam edən dinamik öyrənmə prosesləri kimi dərk edən yanaşmaların inkişafına töhfə verməkdir. Bu missiya aşağıda qeyd edəcəyim istiqamətlər üzrə reallaşır:

*1. Ömürboyu öyrənmə konsepsiyasının elmi əsaslandırılması*

IRE jurnalı UNESCO-nun təhsil fəlsəfəsinə uyğun olaraq ömürboyu öyrənmənin yalnız iqtisadi yox, eyni zamanda sosial və mənəvi inkişaf üçün də zəruri olduğunu vurğulayır. Bu yanaşma pedaqoji elmi formal təhsil sistemlərinin hüdudlarından kənara çıxarır**,** qeyri-formal və informal öyrənmənin də cəmiyyətin inkişafında rolu olduğunu elmi dəlillərlə əsaslandırır [Aspin, P., Chapman, J., 2000].

*2. Yetkinlərin təhsili və sosial inklüzivlik*

IRE jurnalında yetkinlər üçün təhsil proqramlarının, savadlılıq təşəbbüslərinin və ikinci şans təhsil modellərinin elmi təhlili aparılır. Bu tədqiqatlar vasitəsilə təhsil bərabərsizliyinin aradan qaldırılması, təhsilə çıxış imkanlarının genişləndirilməsi və sosial inklüzivliyin gücləndirilməsi pedaqoji elm müstəvisində daha mərkəzi yer tutur [Milana, M., Nesbit, T., 2015].

*3. Təhsilin insan hüquqları və dayanıqlı inkişafla əlaqələndirilməsi*

IRE təhsili təkcə bilik və bacarıqların ötürülməsi prosesi deyil, həm də demokratiya, sülh, vətəndaşlıq və dayanıqlı inkişaf kimi ümumbəşəri dəyərlərin ötürülməsi vasitəsi kimi təqdim edir. Beləliklə, jurnal pedaqoji yanaşmaların humanist əsaslarını gücləndirir və təhsili cəmiyyətin transformasiyaedici gücü kimi dəyərləndirir [UNESCO.p, 2016].

*4. Qlobal cənubun təhsil problemlərinin elmi diskursda görünməsini təmin etmək*

IRE postkolonial yanaşmaları, inkişaf etməkdə olan ölkələrin təhsil təcrübələrini və resurs çatışmazlığı fonunda təhsilin imkanlarını elmi baxımdan analiz edərək qlobal təhsil diskursunun mərkəzləşməsinə qarşı çıxır**.** Bu jurnalın töhfəsi pedaqoji fikri multiperspektivli və qlobal ədalət yönümlü müstəviyə keçirməkdədir [Torres, C., 2009].

5. Təhsil siyasətində etik və sosial məsuliyyətin təşviqi

IRE jurnalı təhsil siyasətlərinin yalnız texnokratik yanaşmalarla deyil, əxlaqi və sosial məsuliyyət çərçivəsində qiymətləndirilməli olduğunu vurğulayır. Bu da pedaqoji diskursda şəxsiyyətyönümlü və sosial ədalətli yanaşmaların güclənməsinə səbəb olur.

International Review of Education jurnalı pedaqoji elmi məktəb mərkəzli düşüncədən çıxararaq həyat mərkəzli bir istiqamətə yönəldir. O, təhsili bütün yaşlar üçün əlçatan, hüquq yönümlü və sosial baxımdan cavabdeh bir sistem kimi təqdim etməklə təhsilin və pedaqoji elmin konseptual sərhədlərini genişləndirir. Bu jurnalın töhfələri həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün alternativ pedaqoji modellər və siyasət əsasları təqdim edir.

**British Journal of Educational Studies**

British Journal of Educational Studies (BJES) 1952-ci ildən nəşr olunur və "Taylor & Francis" nəşriyyatı tərəfindən yayımlanır. Bu jurnal təhsil sahəsinə əsasən, filosofik, tarixi, ideoloji və sosioloji baxış bucaqlarından yanaşan elmi araşdırmaları özündə birləşdirir. BJES pedaqoji düşüncənin yalnız tətbiqi və texniki tərəflərini deyil, onun dəyərlər, ideyalar, epistemologiya və sosial-mədəni kontekstlə əlaqəsini də tədqiq edən aparıcı akademik platformadır. BJES-in tədqiqat istiqamətlərinə nəzər salaq:

*1. Təhsilin fəlsəfi və ideoloji əsaslarının təhlili*

BJES-in ən güclü tərəflərindən biri təhsil proseslərinə və pedaqoji münasibətlərə fəlsəfi yanaşma gətirməsidir. Bu jurnal vasitəsilə təhsilin məqsədi, mənası, etikası və cəmiyyətlə münasibəti kimi fundamental suallar müzakirə olunur [Winch, C., Gingell, J., 2008]. Beləliklə, pedaqoji fikrin yalnız praktik deyil, həm də konseptual və ideya yönümlü inkişafına təkan verilir.

*2. Təhsil siyasətinə tənqidi və reflektiv yanaşma*

BJES-də yayımlanan məqalələr çox zaman dövlətlərin təhsil siyasətlərini, kurikulum dəyişikliklərini və idarəetmə modellərini tənqidi diskurs müstəvisində təhlil edir. Jurnal, neoliberal təhsil siyasətinin, standartlaşdırmanın və rəqabətyönümlü yanaşmaların təhsilin mahiyyətinə necə təsir göstərdiyini dəyərləndirir [Ball, S., 2003]. Bu, pedaqoji elmin və pedaqoji cəmiyyətin müstəqil və dəyərlərə əsaslanan mövqe tutmasına xidmət edir.

*3. Tarixi və sosioloji yanaşmalarla pedaqoji irsin qiymətləndirilməsi*

BJES təhsilin tarixini, maarifçilik ənənələrini və ictimai transformasiyaların təhsilə təsirini araşdırmaqla pedaqoji fikrin təkamül prosesini daha dərindən anlamağa imkan verir. Jurnalın bu istiqamətdəki məqalələri vasitəsilə tədqiqatçılar tarixi bilikləri müasir təhsil modellərinin yenidən qurulması üçün istinad nöqtəsinə çevirə bilirlər [McCulloch, C., 2002].

*4. Təhsil fəlsəfəsinin müəllim hazırlığına təsiri*

BJES-də yer alan araşdırmalar təhsil fəlsəfəsinin müəllim hazırlığı proqramlarında nəzərə alınmasının vacibliyini əsaslandırır. Bu yanaşma müəllimləri yalnız "tədris edən" deyil, həm də "təfəkkürü inkişaf etdirən" peşəkar kimi formalaşdırmağı hədəfləyir [Carr, W., 2004].

*5. Multidissiplinar yanaşmanın təşviqi*

BJES pedaqogikanı sosiologiya, siyasət elmi, psixologiya, etik nəzəriyyələr və mədəniyyətşünaslıqla birləşdirərək multidissiplinar bir elmi platforma yaradır. Bu yanaşma pedaqoji tədqiqatların sərhədlərini genişləndirir və pedaqoji fikri cəmiyyətin daha geniş kontekstində anlamağımıza şərait yaradır.

British Journal of Educational Studies təhsilin yalnız nəticəyönümlü, ölçüləbilən bir fəaliyyət deyil, həm də mənəvi, ictimai və fəlsəfi mahiyyətə malik kompleks bir proses olduğunu vurğulayır. Bu jurnal pedaqoji fikrin dərinləşdirilməsi, daha ədalətli, şüurlu və məqsədyönlü təhsil modellərinin qurulması üçün müstəsna əhəmiyyətə malikdir.

**"Azərbaycan məktəbi" jurnalı**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Azərbaycan məktəbi" elmi-nəzəri jurnalı 1924-cü ildən nəşr olunur və ölkənin ən uzunömürlü pedaqoji nəşrlərindən biri kimi tanınır. Jurnal pedaqoji elmin inkişafına və təhsil sisteminin elmi əsaslarla təkmilləşdirilməsinə aşağıdakı istiqamətlər üzrə mühüm töhfələr verir:

1. *Pedaqoji fikrin formalaşdırılması və yayılması*

Jurnal Azərbaycan pedaqoji fikrinin formalaşması, klassik pedaqoqların irsinin təbliği və müasir elmi ideyaların yerli kontekstdə tətbiqi baxımından unikal platformadır. Müxtəlif müəlliflər tərəfindən yazılan məqalələr vasitəsilə milli təhsil modelləri, kurikulum islahatları və dil siyasəti məsələləri elmi müstəviyə çıxarılır.

2. *Təhsil təcrübəsi ilə elmi nəzəriyyə arasında əlaqənin qurulması*

"Azərbaycan məktəbi" jurnalında dərc olunan yazılar, əsasən, müəllimlərin tədris təcrübəsinə əsaslanan halları elmi kontekstdə təqdim etməklə təcrübə və nəzəriyyə arasında qarşılıqlı əlaqəni möhkəmləndirir. Bu xüsusiyyət jurnalın pedaqoji innovasiyaların yayılmasında və tətbiqə yönəldilməsində rolunu artırır.

3. *Pedaqoji kadrların elmi-publisistik fəaliyyəti üçün platforma*

Jurnal, müəllimlər, metodistlər və təhsil tədqiqatçıları üçün elmi yaradıcılıq platforması yaradaraq onların pedaqoji fikirlərini və tədqiqat nəticələrini geniş oxucu auditoriyasına təqdim etməyə imkan verir.

4. *Yerli və beynəlxalq təhsil təcrübələrinin qarşılaşdırılması*

Jurnalda zaman-zaman müxtəlif ölkələrin təhsil modellərinə dair təhlillər, müqayisələr və təcrübə mübadiləsinə dair yazılar dərc olunur. Bu da pedaqoji

diskursun qlobal düşüncə ilə əlaqələnməsinə xidmət edir.

5. Azərbaycan dilində elmi diskursun inkişafı

"Azərbaycan məktəbi" jurnalı, pedaqoji elmin Azərbaycan dilində elmi dil və üslubla ifadə olunmasına mühüm töhfə verir. Bu baxımdan, jurnal yalnız pedaqoji məzmun deyil, eyni zamanda elmi yaradıcılıq mədəniyyətinin inkişafı üçün də vacib platformadır.

**"Məktəbəqədər və ibtidai təhsil" jurnalı**

"Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin orqanı kimi nəşr olunur və məktəbəqədər və ibtidai təhsil pillələrinin aktual pedaqoji problemlərinə dair elmi əsaslandırılmış yanaşmaların geniş ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır. Jurnal müasir təhsil sistemində erkən yaş dövrlərinin strateji əhəmiyyətini nəzərə alaraq, təkcə nəzəri deyil, həm də praktik istiqamətdə məqalələrin təqdimatını həyata keçirir. Onun fəaliyyət istiqamətləri aşağıdakı şəkildə daha geniş təqdim oluna bilər:

1. Erkən yaş dövrlərinə dair elmi əsaslandırılmış metodikaların yayılması: Jurnal uşaqların məktəbəqədər dövrdə inkişafı ilə bağlı beynəlxalq tədqiqatlara və yerli təcrübəyə əsaslanan məqalələrin dərcini təmin edir. Bu yazılar oyun əsaslı təlim modelləri, erkən yaşda nitq və dinləmə bacarıqlarının inkişafı, duyğuların tənzimlənməsi və sosial-emosional öyrənmə strategiyaları kimi sahələri əhatə edir. Bu isə təlim-tərbiyə prosesində çalışan pedaqoqlara elmi əsaslandırılmış metodik tövsiyələr təqdim etməklə onların pedaqoji yanaşmalarını daha sistemli və məqsədyönlü etməyə imkan verir.
2. İnklüziv və fərdiləşdirilmiş təhsil modelinin təşviqi:
Məktəbəqədər və ibtidai təhsildə hər bir uşağın fərdi inkişaf trayektoriyasına uyğun yanaşmaların tətbiqi zəruridir. Jurnal bu sahədə inklüziv təhsil prinsiplərinin yerli təcrübədə necə tətbiq olunduğunu, psixoloji-pedaqoji dəstək strategiyalarını, xüsusi təhsil ehtiyaclı uşaqlarla iş prinsiplərini əks etdirən məqalələrlə maarifləndirici rol oynayır. Bu cür yazılar müasir dövrün əsas tələbi olan fərdiləşdirilmiş təhsilin elmi əsaslarını pedaqoqlara təqdim edir.
3. Kurikulum və məzmunun təkmilləşdirilməsi istiqamətində tədqiqatlar: Jurnalda müasir məktəbəqədər və ibtidai təhsil kurikulumlarının məzmunu, fənlərarası inteqrasiya imkanları, bacarıq əsaslı qiymətləndirmə meyarları və müəllim fəaliyyətinin kurikuluma uyğunlaşdırılması kimi məsələlərə dair elmi məqalələr yer alır. Bu, təhsil proqramlarının elmi-nəzəri əsaslarını gücləndirir və praktik tətbiqə istiqamətləndirir.
4. Pedaqoqların və metodistlərin elmi-əməli təcrübələrinin yayılması: "Məktəbəqədər və ibtidai təhsil" jurnalı həm akademik tədqiqatçıların, həm də bu sahədə çalışan praktiki pedaqoqların təcrübələrinin yayılması üçün mühüm tribuna rolunu oynayır. Müəllim və metodistlərin hazırladığı tətbiqi

məqalələr vasitəsilə uğurlu təlim texnologiyaları, innovativ dərs modelləri və diaqnostik qiymətləndirmə üsulları paylaşılır. Bu, biliklərin praktikaya inteqrasiyasını sürətləndirir.

5. Azərbaycan dilində erkən təhsil sahəsində elmi-metodik diskursun təşkili: Jurnalın mühüm funksiyalarından biri də erkən yaş təhsili sahəsində elmi diskursun milli dildə formalaşmasına dəstək verməkdir. Bu fəaliyyət pedaqoji terminologiyanın zənginləşdirilməsi, konseptual təhlil aparmaq bacarığının inkişafı və yerli elmi dilin formalaşmasına mühüm töhfə verir. Nəticə etibarilə, Azərbaycan dilində elmi-metodik düşüncənin inkişafına və təhsil ictimaiyyətinin biliklərlə silahlanmasına xidmət edir.

Beləliklə, "Məktəbəqədər və ibtidai təhsil" jurnalı yalnız metodik tövsiyələrin toplusu deyil, eyni zamanda təhsilin erkən pillələrinin elmi əsaslı inkişafını təmin edən strateji nəşr platformasıdır. Bu jurnal vasitəsilə məktəbəqədər pedaqogika sahəsində elmi nəticələrin yayılması, təhsildə səmərəliliyin artırılması və tədqiqat mədəniyyətinin formalaşması istiqamətində əhəmiyyətli irəliləyişlər əldə olunmaqdadır.

## Nəticə və Tövsiyələr

Tədqiqatın nəticələri göstərdi ki, elmi-pedaqoji mətbuat təhsilin və pedaqoji elmin inkişafında strateji əhəmiyyətə malik olan çoxşaxəli funksiyaları yerinə yetirir. Bu funksiyalar yalnız akademik biliklərin istehsalı və yayımı ilə məhdudlaşmır, həm də pedaqoji təcrübənin təkmilləşdirilməsi, elmi sübutlara əsaslanan təhsil siyasətlərinin formalaşdırılması, müəllim hazırlığının gücləndirilməsi və təhsildə sosial ədalətə xidmət edən ideoloji çərçivələrin qurulması kimi sahələri əhatə edir.

*Beynəlxalq nüfuzlu elmi jurnalların* – Educational Research Review, Teaching and Teacher Education, Journal of Educational Psychology, Compare, International Review of Education *və* British Journal of Educational Studies-*in* təhlili göstərdi ki, bu platformalar müasir pedaqoji biliklərin sistemləşdirilməsi, yeni nəzəri modellərin işlənməsi və təhsil təcrübələrinin elmi əsaslarla dəstəklənməsi baxımından mühüm resurs kimi çıxış edirlər. Hər bir jurnal öz spesifik istiqaməti ilə pedaqoji elmin müxtəlif sahələrinin inkişafına töhfə verir: bəziləri təhsil psixologiyası və öyrənmə nəzəriyyələrinə fokuslanır, digərləri müəllim hazırlığı, inklüzivlik, kurikulum siyasətləri və ya təhsilin fəlsəfi aspektlərini önə çəkir.

Azərbaycan kontekstində isə "Azərbaycan məktəbi" və "Məktəbəqədər və ibtidai təhsil" kimi elmi-pedaqoji jurnallar milli təhsil tarixində önəmli mövqeyə malik olmaqla yanaşı, həm də müasir çağırışlara cavab verməyə çalışan aktiv nəşr platformalarıdır. Bu jurnallar vasitəsilə həm yerli müəllim və tədqiqatçıların elmi fəaliyyəti təşviq olunur, həm də milli təhsil sisteminin yenilənməsi prosesin-

də elmi biliklərin təcrübəyə inteqrasiyası dəstəklənir. Onların Azərbaycan dilində elmi diskursun inkişafında oynadığı rol xüsusilə diqqətəlayiqdir.

Bütün bu təhlillər nəticəsində aşağıdakı əsas qənaətlər və təklifləri irəli sürmək mümkündür:

*1. Elmi-pedaqoji mətbuat təhsilin strateji alətidir*

Elmi-pedaqoji jurnallar təhsilin məqsəd, məzmun, metod və dəyərlər sistemini formalaşdıran, yönəldən və qiymətləndirən əsas vasitələrdən biridir. Bu mətbuat vasitəsilə pedaqoji dəyişikliklər elmi əsaslandırılır, innovasiyalar təhlil olunur və təcrübə ilə elm arasında körpü yaradılır.

*2. Beynəlxalq nəşrlərdən öyrənmə və yerli mətbuatın gücləndirilməsi paralel aparılmalıdır*

Azərbaycan elmi-pedaqoji jurnallarının beynəlxalq standartlara uyğunlaşdırılması, onların "Scopus", "Web of Science" kimi bazalara daxil edilməsi və qlobal elmi ictimaiyyətə çıxışı genişləndirilməlidir. Bu məqsədlə akademik yazı mədəniyyəti, istinad sistemi və etik standartlar təkmilləşdirilməlidir.

*3. Açıq elm və rəqəmsal yayım imkanlarının genişləndirilməsi zəruridir*

Elmi-pedaqoji nəşrlərin daha geniş auditoriyaya çatması üçün açıq giriş (open access), onlayn nəşrlər və rəqəmsal platformalardan istifadə intensivləşdirilməlidir. Bu, həm tədqiqatçıların, həm də praktik pedaqoqların elmi informasiyaya çıxış imkanlarını artıracaq.

*4. Elmi məqalələrin təcrübəyə təsir imkanları artırılmalıdır*

Təhsil sahəsində yazılmış elmi məqalələrin real məktəb və sinif mühitinə təsirini artırmaq üçün onların praktik yönlü tövsiyələrlə tamamlanması, müəllimlər və metodistlər üçün istifadəyə yararlı təlimatlarla dəstəklənməsi məqsədəuyğundur.

*5. Gənc tədqiqatçılar və müəllimlər üçün elmi yazı mədəniyyəti təşviq edilməlidir*

Elmi-pedaqoji jurnalların davamlılığı və keyfiyyətli kontentlə təmin olunması üçün gənc müəllimlər, doktorantlar və praktik pedaqoqlar arasında elmi məqalə yazmaq bacarıqları təşviq edilməli, bu istiqamətdə təlimlər və metodik dəstək proqramları hazırlanmalıdır.

*6. Pedaqoji jurnalistika sahəsində ixtisaslaşma dəstəklənməlidir*

Təhsil sahəsində ixtisaslaşmış jurnalistikanın inkişafı, pedaqoji jurnalistlər üçün etik kodeksin və yazı standartlarının müəyyən olunması, elmi redaktorların hazırlanması və bu sahədə peşəkar fəaliyyətin stimullaşdırılması vacibdir.

Elmi-pedaqoji mətbuat təkcə bilik istehsalçısı deyil, həm də cəmiyyətin maariflənməsi, təhsilin modernləşməsi və elmin dəyərləndirilməsi üçün fundamental intellektual infrastruktur sayılır. Bu mətbuatın davamlı inkişafı və dəstəklənməsi, təhsilin gələcəyinə verilən strateji sərmayə kimi qiymətləndirilməlidir.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Altbach, P.G., de Wit, H. (2020). The Globalization of Academic Publishing. International Higher Education, (100), pp.12–14.
2. Aspin, D.N., Chapman, J.D. (2000). Lifelong learning: Concepts and conceptions. International Journal of Lifelong Education, 19(1), pp.2–19. https://doi.org/10.1080/026013700293421
3. Ball, S.J. (2003). The teacher's soul and the terrors of performativity. Journal of Education Policy, 18(2), pp.215–228. https://doi.org/10.1080/0268093022000043065
4. Beauchamp, C., Thomas, L. (2009). Understanding teacher identity: An overview of issues in the literature and implications for teacher education. Cambridge Journal of Education, 39(2), 175–189. https://doi.org/10.1080/03057640902902252
5. Besley, T., Peters, M.A. (2019). The Role of Journals in Education Research and Theory Building. Educational Philosophy and Theory, 51(14), pp.1425–1437
6. Bond, M., Bedenlier, S., Marín, V.I., Händel, M. (2021). Emergency remote teaching in higher education: Mapping the first global online semester. International Journal of Educational Technology in Higher Education, 18(1), pp.50.
7. Carr, W. (2004). Philosophy and education. Routledge.
8. Cochran-Smith, M., Feiman-Nemser, S., McIntyre, D. J., Demers, K. E. (Eds.). (2009). Handbook of Research on Teacher Education: Enduring Questions in Changing Contexts. Routledge.
9. Crossley, M., Watson, K. (2003). Comparative and international research in education: Globalisation, context and difference. RoutledgeFalmer.
10. Darling-Hammond, L., Lieberman, A. (Eds.). (2012). Teacher education around the world: Changing policies and practices. Routledge.
11. Harzing, A.-W. (2021). Publish or Perish: The role of scientific publishing in academia. Tarma Software Research Papers.
12. Hattie, J. (2009). Visible learning: A synthesis of over 800 meta-analyses relating to achievement. Routledge.
13. Jennings, P.A., Greenberg, M.T. (2009). The prosocial classroom: Teacher social and emotional competence. Review of Educational Research, 79(1), pp.491–525.
14. Kirschner, P.A., Sweller, J., Clark, R.E. (2006). Why minimal guidance during instruction does not work. Educational Psychologist, 41(2), pp.75–86.

15. Korthagen, F.A.J. (2017). Inconvenient truths about teacher learning: Towards professional development 3.0. Teachers and Teaching, 23(4), pp.387–405.
16. Larivière, V., Haustein, S., Mongeon, P. (2015). The oligopoly of academic publishing: Analysis of the Big Five. PLOS ONE, 10(6), e0127502.
17. McCulloch, G. (2002). The RoutledgeFalmer reader in history of education. RoutledgeFalmer.
18. Merga, M.K., Mason, S. (2020). Academic Publishing and its role in educational research dissemination. Educational Review, 72(1), pp.36–48.
19. Milana, M., Nesbit, T. (2015). Global perspectives on adult education and learning policy. Palgrave Macmillan.
20. Pellegrini, M., Vivanet, G. (2020). Evidence-based practice and implementation science in schools. Educational Psychologist, 55(3), pp.155–165.
21. Pintrich, P.R. (2003). A motivational science perspective on student motivation. Journal of Educational Psychology, 95(4), pp.667–686.
22. Plass, J.L., Moreno, R., Brünken, R. (Eds.). (2010). Cognitive load theory. Cambridge University Press.
23. Slavin, R.E. (2002). Evidence-based education policies. Educational Researcher, 31(7), pp.15–21.
24. Sobe, N.W., Kowalczyk, J.A. (2014). Exploding the cube: Revisioning context. Current Issues in Comparative Education, 16(1), pp.6–12.
25. Tikly, L., Barrett, A.M. (2011). Social justice, capabilities and quality of education. International Journal of Educational Development, 31(1), pp.3–14.
26. Torres, C.A. (2009). Globalizations and education: Collected essays on class, race, gender, and the state. Teachers College Press.
27. UNESCO. (2016). Rethinking education: Towards a global common good?
28. Wentzel, K.R. (1998). Social relationships and motivation in middle school. Journal of Educational Psychology, 90(2), pp.202–209.
29. Winch, C., Gingell, J. (2008). Philosophy of education: The key concepts. Routledge.
30. Zeichner, K. (2010). Rethinking the connections between campus courses and field experiences. Journal of Teacher Education, 61(1–2), pp.89–99.

# THE ROLE OF MILITARY PRESS IN THE INFORMATION WARFARE

**Mujkan Mammadzade**

Senior Lecturer, Azerbaijan State Academy of Physical Education and Sport, Doctoral candidate, Military Scientific-Research Institute, National Defense University, Ph.D. in Pedagogy
E-mail: mujkan@mail.ru
https://orcid.org/0000-0001-5693-3748

**Abstract.** This article examines the role of military press in modern information warfare, based on the experience of Azerbaijan. The study analyzes the functions of the Azerbaijani military press during the 2020 Patriotic War, including information policy, social media strategies, and international communication activities. It has been determined that a professional and well-coordinated military information policy ensured superiority not only on the battlefield but also in the information space. At the same time, the study reviews the existing structural and personnel issues in the field and proposes recommendations for their resolution. The research substantiates the importance of the military press as a tool of strategic communication from both theoretical and practical perspectives. The article also discusses the growing role of digital media, social networks, and communication tools in cyberspace within the broader information environment. The paper also analyzes the current challenges in the field of military press—such as the shortage of specialized personnel, digital security risks, and coordination gaps—and proposes prospective directions for strengthening and developing this sphere.

**Keywords:** Patriotic War, military press, information warfare, strategic communication, social media, national security.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5029
**To cite this article:** Mammadzade M. (2025). The role of military press in the information warfare. *Journal of Preschool and Primary Education*, Special issue – "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 71-81.
**Article history:** received – 25.09.2025; accepted – 29.10.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# HƏRBİ MƏTBUATIN İNFORMASİYA MÜHARİBƏSİNDƏ ROLU

**Müjkan Məmmədzadə**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının baş müəllimi, Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı, pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: mujkan@mail.ru
https://orcid.org/0000-0001-5693-3748

**Annotasiya.** Məqalədə hərbi mətbuatın müasir informasiya müharibəsindəki rolu Azərbaycan təcrübəsi əsasında araşdırılır, 2020-ci il Vətən müharibəsi dövründə onun vəzifə və funksiyaları, informasiya siyasəti, sosial media strategiyaları və beynəlxalq kommunikasiya fəaliyyətləri təhlil olunur. Məqalədə peşəkar və koordinasiyalı hərbi informasiya siyasətinin yalnız cəbhədə deyil, həm də informasiya məkanında üstünlüyü təmin etməsindən bəhs edilir, mövcud struktur və kadr problemləri nəzərdən keçirilərək həlli istiqamətində təkliflər irəli sürülür. Tədqiqatda hərbi mətbuatın strateji kommunikasiya aləti kimi əhəmiyyəti elmi və praktiki müstəvidə əsaslandırılır. Eyni zamanda informasiya məkanında rəqəmsal medianın, sosial şəbəkələrin və kibərməkandakı kommunikasiya vasitələrinin artan rolundan bəhs edilir. Məqalədə, həmçinin hərbi mətbuat sahəsində mövcud problemlər – ixtisaslaşmış kadr çatışmazlığı, rəqəmsal təhlükəsizlik riskləri və koordinasiya boşluqları təhlil olunmuş, onların aradan qaldırılması üçün perspektiv inkişaf istiqamətləri irəli sürülmüşdür.

**Açar sözlər:** Vətən müharibəsi, hərbi mətbuat, informasiya müharibəsi, strateji kommunikasiya, sosial media, milli təhlükəsizlik.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5029
**Məqaləyə istinad:** Məmmədzadə M. (2025). Hərbi mətbuatın informasiya müharibəsində rolu. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – “Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində”, səh. 71-81.
**Məqalə tarixçəsi:** göndərilib – 25.09.2025; qəbul edilib – 29.10.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

XXI əsrdə təhlükəsizlik anlayışı yalnız fiziki sərhədlərin qorunması ilə məhdudlaşmır. Araşdırmalar göstərir ki, müasir dövrdə müharibələr daha çox informasiyanın idarə olunması, ictimai rəyin yönləndirilməsi, düşmənin psixoloji zəiflədilməsi və qlobal imic siyasəti ilə bağlı kompleks proseslərə çevrilmişdir. Bu şəraitdə, informasiyanın strateji silaha çevrilməsi dövlətlərin həm daxili, həm də xarici siyasətlərində media vasitələrinin rolunu daha da artırmışdır. Xüsusilə hərbi mətbuat bu prosesin mərkəzində dayanaraq, döyüş meydanlarında əldə edilən uğurların informasiya məkanında da möhkəmlənməsi üçün vacib vasitə funksiyasını yerinə yetirir. İnformasiya müharibəsi – düşmənin informasiya sistemlərinə, ictimai rəyinə və informasiya bazalarına təsir etməklə onun iradəsini zəiflətmək məqsədi daşıyan, diplomatik, psixoloji və texnoloji elementləri özündə birləşdirən hibrid münaqişə formasıdır [Manoylo, A.V., 2005]. Bu mübarizə növündə qələbə yalnız hərbi əməliyyatların effektivliyi ilə deyil, həm də informasiya məkanında üstünlük əldə etmək qabiliyyəti ilə müəyyən olunur. Bu baxımdan, hərbi mətbuat yalnız informativ xarakter daşımır, eyni zamanda milli təhlükəsizlik, milli kimlik və informasiya suverenliyi məsələlərində əsas rol oynayır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında bu anlayış, xüsusilə 2020-ci il İkinci Qarabağ müharibəsi zamanı özünü daha qabarıq şəkildə göstərdi. Azərbaycan tərəfi informasiya müharibəsində planlı, strateji və texnoloji baxımdan müasir metodlarla silahlanaraq, həm yerli, həm də beynəlxalq ictimaiyyət qarşısında informasiya üstünlüyünü qoruyub saxladı. Müdafiə Nazirliyinin və digər rəsmi qurumların mətbuat xidmətləri vasitəsilə yayılan operativ xəbərlər, döyüş görüntüləri, coğrafi xəritələr və vizual sübutlar təkcə cəmiyyətin məlumatlandırılması deyil, eyni zamanda düşmənin təbliğatının neytrallaşdırılması və beynəlxalq dəstəyin formalaşdırılması baxımından da mühüm əhəmiyyət kəsb etdi.

Tədqiqatın əsas məqsədi Azərbaycanın hərbi mətbuat təcrübəsi kontekstində informasiya müharibəsində istifadə olunan strategiyaları, kommunikasiyaların idarə olunması modellərini və bu sahədə qarşıya çıxan çağırışları elmi baxımdan təhlil etmək, informasiya dövrünün reallıqları fonunda hərbi mətbuatın gələcək inkişaf perspektivləri və beynəlxalq təcrübə ilə müqayisəli yanaşmaları nəzərdən keçirməkdir.

### Problemin qoyuluşu

Müasir informasiya müharibələrinin intensivləşməsi şəraitində hərbi mətbuat milli təhlükəsizliyin təmin edilməsində və ictimai rəyin formalaşdırılmasında strateji vasitəyə çevrilmişdir. Lakin bu sahədə informasiya qarşıdurmalarına

effektiv kommunikasiya mexanizmlərinin, ideoloji və psixoloji təsir metodlarının elmi əsaslandırılması tam şəkildə aparılmamışdır. Buna görə də problemin mahiyyəti hərbi mətbuatın informasiya müharibəsində strateji, ideoloji, psixoloji təsir vasitəsi kimi rolunun, təsir imkanlarının və milli təhlükəsizlik konsepsiyası kontekstində, milli maraqların müdafiəsində funksional əhəmiyyətinin, inkişaf istiqamətlərinin elmi əsaslarla kompleks tədqiqi zərurəti ilə şərtlənir.

**Tədqiqat metodları və metodologiya**

Tədqiqatda sistemli yanaşma, tarixi-təhlili və müqayisəli metodlardan istifadə edilmişdir. Bu metodlar vasitəsilə hərbi mətbuatın informasiya müharibəsində rolu, inkişaf mərhələləri və funksional xüsusiyyətləri elmi əsaslarla araşdırılmışdır. Eyni zamanda, empirik müşahidə və məzmun təhlili metodları tətbiq edilərək konkret faktlar və real informasiya nümunələri üzərində təhlil aparılmışdır. Tədqiqat keyfiyyətyönümlü metodologiya əsasında aparılmış, əsasən, sənəd analizi və məzmun təhlili üsullarından istifadə olunmuşdur. Əsas mənbələr kimi Müdafiə Nazirliyinin rəsmi məlumatları, hərbi mətbuat orqanlarının materialları və sosial mediada yayımlanan kontentlər seçilmişdir. Tədqiqat, informasiya müharibəsi dövründə hərbi mətbuatın kommunikativ və ideoloji funksiyalarını təhlil etməyə yönəlmişdir.

## Əsas hissə / Main part

İnformasiya müharibəsi (İM) müasir dövrdə münaqişələrin, böhranların və silahlı qarşıdurmaların əsas komponentlərindən birinə çevrilmişdir. Bu müharibə növü yalnız klassik silahlı mübarizə vasitələrinə deyil, eyni zamanda informasiya texnologiyalarına, kütləvi informasiya vasitələrinə, sosial media platformalarına və psixoloji təsir vasitələrinə əsaslanır. İnformasiya müharibəsinin əsas məqsədi rəqibin qərarvermə mexanizmlərinə, ictimai rəyinə, hərbi və mülki informasiya şəbəkələrinə təsir etməklə onun siyasi, psixoloji və sosial sabitliyini pozmaqdır [Poteptsov, Q.Q., 2000].

İnformasiya müharibəsi klassik döyüş müstəvisindən fərqli olaraq, mülki əhali, beynəlxalq təşkilatlar və media qurumları üzərində hədəflənmiş simvolik və psixoloji təzyiq metodlarından istifadə edir. Bu prosesdə dezinformasiya yaymaq, qeyri-rəsmi məlumatlarla panika yaratmaq, media manipulyasiyası, kiberhücumlar və rəsmi informasiya kanallarının bloklanması əsas silah rolunu oynayır [Baluyev, D., 2013].

XX əsrin sonlarından başlayaraq, informasiya müharibəsinin daha mürəkkəb və çoxşaxəli formaları meydana çıxmışdır. Xüsusilə Yaxın Şərq, Şərqi Avropa və Qafqazda baş verən hərbi-siyasi qarşıdurmalar zamanı informasiya üstünlüyünü əldə edən tərəf, döyüş meydanında olmasa belə, beynəlxalq ictimaiyyətdə və

diplomatik cəbhədə ciddi təsir gücünə malik olmuşdur [Əhmədli, N.A., 2004].

Ümumiyyətlə, hərbi mətbuat dedikdə, silahlı qüvvələrin fəaliyyətini, milli təhlükəsizlik məsələlərini və dövlətin hərbi strategiyasını cəmiyyətə və beynəlxalq ictimaiyyətə çatdıran rəsmi və qeyri-rəsmi informasiya vasitələri nəzərdə tutulur. Bu sahəyə Müdafiə Nazirliyi və digər güc strukturlarının mətbuat xidmətləri, xüsusi hərbi jurnallar, informasiya portalları və elektron media platformaları daxildir. Hərbi mətbuatın əsas vəzifə və funksiyalarına əhalini və orduya bağlı qurumları rəsmi və təsdiqlənmiş məlumatlarla təmin etmək, vətənpərvərlik ruhunu gücləndirmək, cəmiyyətin mənəvi dəstəyini səfərbər etmək, dezinformasiyanın qarşısını almaq, düşmənin psixoloji təsirini neytrallaşdırmaq, beynəlxalq ictimaiyyətə yönəlmiş kommunikasiya strategiyalarını həyata keçirmək və ordunun fəaliyyətini şəffaf, peşəkar şəkildə ictimaiyyətə təqdim etmək və s. aiddir.

Müasir dövrdə informasiya müharibəsində klassik KİV-lə (televiziya, radio, qəzet) yanaşı, rəqəmsal platformalar, xüsusilə sosial media vasitələri əsas döyüş meydanlarından birinə çevrilmişdir. Bu medianın çevikliyi, sürəti və interaktivliyi informasiya silahının təsir gücünü daha da artırır. Hərbi mətbuat isə bu rəqəmsal media resurslarını strateji şəkildə yönləndirərək rəsmi mövqe bildirişi, video materialların yayımı, xarici dillərdə subtitrlarla kontent və operativ xəbər lentləri vasitəsilə ictimai rəyin formalaşdırılmasında fəal rol oynayır [Məmmədli, C.Ə., 2003].

Azərbaycan nümunəsində hərbi mətbuatın informasiya müharibəsindəki effektivliyinin konkret göstəricilərindən biri, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı Müdafiə Nazirliyinin informasiya axınını yüksək koordinasiya ilə idarə etməsi olmuşdur. Rəsmi saytlar, Telegram kanalları, sosial media hesabları vasitəsilə videosübutlar, vizual xəritələr, düşmənin texnikasının məhv edilməsi görüntüləri və şəhidlər haqqında məlumatlar eyni anda həm daxili, həm də xarici auditoriyaya təqdim edilmişdir.

Bu kontekstdə hərbi mətbuat yalnız informator deyil, eyni zamanda strateji kommunikasiya qurumu olaraq çıxış edir. Yəni mətbuat bu sahədə sırf informasiyanı ötürən vasitə deyil, ictimai psixologiya, milli ruh, diplomatik maraqlar və beynəlxalq hüquq çərçivəsində formalaşdırıcı və yönləndirici gücə malik faktordur [Sümərinli, C.M., 2010].

Ümumiyyətlə, hərbi mətbuat informasiya müharibəsinin ən kritik aktorlarından biridir. O, dövlətin informasiya təhlükəsizliyinin qorunmasında, psixoloji müdafiə sisteminin qurulmasında və informasiya cəbhəsində üstünlük əldə etməsində həlledici rol oynayır. Beynəlxalq təcrübələr göstərir ki, peşəkar və sistemli şəkildə qurulmuş hərbi media siyasəti olmadan informasiya məkanında qələbə mümkün deyil.

Danılmaz faktdır ki, 2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44

günlük Vətən müharibəsi, təkcə hərbi sahədə deyil, həm də informasiya müharibəsi cəbhəsində Azərbaycan Respublikasının uğurlu strategiyalar həyata keçirdiyi mühüm bir mərhələ olmuşdur. Münaqişə dövründə Azərbaycan tərəfinin, yalnız cəbhədə deyil, beynəlxalq informasiya məkanında da üstünlük əldə etməsində hərbi mətbuat və rəsmi kommunikasiya kanalları mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Prezident Administrasiyası və digər güc strukturlarının mətbuat xidmətləri müharibənin ilk günündən etibarən operativ, sistemli və strateji informasiya siyasəti həyata keçirmişlər. Müharibə dövründə hər gün, səhər və axşam saatlarında rəsmi məlumatlar, videogörüntülər, vizual xəritələr və ərazi azadlıqları ilə bağlı infoqrafik materiallar ictimaiyyətə təqdim olunurdu. Məqsəd, həm daxili ictimaiyyətin informasiya tələbatını ödəmək, həm də xarici media orqanlarına etibarlı məlumat mənbəyi təqdim etmək idi.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin gündəlik yayımladığı press-relizlər, sosial media paylaşımları və "Zəfər Xronikası" adlanan videomateriallar ictimai rəyin formalaşmasına və xalqda ruh yüksəkliyinin qorunmasına xidmət etmişdir ["Zəfər xronikası", 2024].

Müharibə zamanı Ermənistan tərəfindən yayılan çoxsaylı dezinformasiya kampaniyalarına qarşı Azərbaycan tərəfi çevik və əsaslandırılmış reaksiya göstərmişdir. Düşmən tərəfin uydurma xəbərləri – mülki əhali arasında "kütləvi itkilər", Azərbaycanın öz mövqelərini bombalaması və ya beynəlxalq konvensiyaların pozulması ilə bağlı iddiaları dərhal foto və videosübutlarla təkzib edilmişdir. Bu, yalnız informasiya cəbhəsində deyil, beynəlxalq hüquq müstəvisində də Azərbaycanın mövqeyini möhkəmləndirdi.

Eyni zamanda Ermənistanın informasiya blokadası yaratmaq cəhdlərinə qarşı Azərbaycanın tərcümə edilmiş rəsmi açıqlamaları, subtitrlarla yayımlanan videoları və xarici dillərdə mətbuat konfransları beynəlxalq auditoriyaya birbaşa çıxış imkanı yaratdı.

Vətən müharibəsi dövründə Azərbaycanda ənənəvi KİV-lə yanaşı, sosial media da effektiv şəkildə hərbi kommunikasiya vasitəsinə çevrilmişdi. Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti və digər rəsmi qurumların "Twitter", "Facebook", "Telegram" və "Instagram" səhifələri milyonlarla izləyici tərəfindən real vaxtda izlənilirdi. Xüsusilə "Twitter" platformasında qısa, dəqiq və vizuallaşdırılmış informasiyanın yayılması beynəlxalq medianın da diqqətini çəkdi.

Sosial media üzərindən yayımlanan dron görüntüləri, düşmən texnikasının məhv edilmə anları, azad olunan yaşayış məntəqələrinin videogörüntüləri yalnız hərbi informasiya baxımından deyil, psixoloji üstünlük baxımından da əhəmiyyətli idi. Bu kontentlər, eyni zamanda qlobal auditoriya üçün vizual və inandırıcı

mənbə funksiyası daşıyırdı.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan hərbi mətbuatının uğurlarından biri də xarici jurnalistlərin bölgəyə dəvət edilməsi və şəffaf informasiya mühitinin yaradılması olmuşdur. BBC, CNN, Al Jazeera, TRT, Deutsche Welle və digər nüfuzlu media orqanlarının müxbirləri cəbhə bölgələrində şəxsən müşahidələr aparmaq imkanı əldə etdilər [NATO., 2020]. Bu da Azərbaycanın real vəziyyəti beynəlxalq auditoriyaya çatdırmaqda ciddi üstünlük qazanmasına səbəb oldu.

Media üçün yaradılmış xüsusi informasiya zonaları, brifinqlər və yerlərdə vizual materialların təqdim edilməsi Azərbaycanın informasiya siyasətinin peşəkarlıq səviyyəsini və planlı yanaşmasını nümayiş etdirmişdir.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan hərbi mətbuatının fəaliyyəti informasiya müharibəsi sahəsində mühüm təcrübə nümunəsi kimi çıxış edir. Bu dövrdə əldə edilən uğurlar, informasiya axınının düzgün idarə olunması, dezinformasiyaya qarşı cavab tədbirləri və beynəlxalq medianın cəlb edilməsi göstərdi ki, informasiya məkanında qazanılan üstünlük, artıq müasir müharibələrin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycanın bu sahədə tətbiq etdiyi yanaşma yalnız region üçün deyil, qlobal təhlükəsizlik və informasiya idarəçiliyi sahəsində də model kimi təqdim oluna bilər.

Azərbaycan Respublikasının 2020-ci il Vətən müharibəsi dövründə həyata keçirdiyi uğurlu hərbi informasiya siyasəti göstərdi ki, yüksək peşəkarlıqla təşkil olunmuş hərbi mətbuat informasiya müharibəsində real silaha çevrilə bilər. Lakin bu sahədəki irəliləyişlərə baxmayaraq, mövcud sistemin davamlı inkişafı üçün nəzərəçarpacaq problemlər qalmaqdadır. Bu problemlər yalnız texniki və struktur səviyyədə deyil, həm də insan resursları, hüquqi baza və strateji planlaşdırma baxımından təhlil edilməlidir. Belə ki, Azərbaycanın hərbi informasiya sistemində rast gəlinən başlıca problemlərdən biri ixtisaslaşmış hərbi media kadrlarının çatışmazlığıdır. Müasir informasiya müharibəsində yalnız texniki bilik deyil, həm də psixoloji müharibə, ictimai rəyin yönləndirilməsi və beynəlxalq media ilə işləmək bacarıqları tələb olunur. Hazırda hərbi mətbuat sahəsində çalışanların əksəriyyəti mülki jurnalistika və kommunikasiya sahəsindən gəlmiş şəxslərdir. Bu isə hərbi protokol, təhlükəsizlik tələbləri və məxfi informasiya ilə işləmə mədəniyyətinin tam formalaşmasına təsir göstərir [Ramazanov, Q., 2018]. Hərbi jurnalistika üzrə ixtisaslaşmış akademik proqramların və təlim modullarının olmaması bu sahədə peşəkar təkmilləşmə imkanlarını məhdudlaşdırır. Beynəlxalq təcrübədə, xüsusilə ABŞ, Türkiyə və İsraildə hərbi kommunikasiya üzrə xüsusi kurslar və media-hərbi mərkəzlər fəaliyyət göstərir [Baluyev, D., 2013]. Azərbaycanda bu sahədə ilk addımlar atılsa da, sistemli şəkildə tətbiq edilən institutlaşma prosesi hələ tam formalaşmayıb. Belə ki, müharibə zamanı müxtəlif dövlət

qurumlarının informasiya yayımında bəzən paralel və təkrarlanan məlumatlar müşahidə olunmuşdur. Bu hallar rəsmi informasiya axınının vahid mərkəzdən koordinasiya edilməsinin vacibliyini göstərmişdir [Qaşqay, Z., 2017]. Fərqli mənbələrdən yayılan bənzər informasiyalar bəzən ictimaiyyətin çaşqınlığına və beynəlxalq mediada qeyri-dəqiq interpretasiyalara səbəb olmuşdur. Buna görə Strateji Kommunikasiya Mərkəzinin yaradılması və bütün dövlət orqanlarının informasiya fəaliyyətlərinin bu mərkəz vasitəsilə koordinasiya olunması təklif edilir.

Sosial mediada yayımlanan informasiya əməliyyatları bəzən qarşı tərəfdən kiberhücumlara, səhifələrin bloklanmasına və ya saxta hesablardan yayılan dezinformasiyalara məruz qalır. Azərbaycan hərbi mətbuatının bu sahədə texniki təchizatı və rəqəmsal təhlükəsizlik tədbirləri genişləndirilsə də, kibermüdafiə üzrə ixtisaslaşmış kadrların azlığı və hüquqi mexanizmlərin qeyri-kafi olması ciddi problem olaraq qalır [Ramazanov, Q., 2018].

Kiberinformasiya hücumlarına qarşı proaktiv yanaşmalar, süni intellekt əsaslı analiz sistemləri və bot şəbəkələrinin aşkarlanması üçün texnoloji infrastrukturun qurulması vacib sayılır [Axundov, E., 2006]. Həmçinin sosial platformalarda yayım hüquqları və rəqəmsal media etikasına dair milli normativlərin təkmilləşdirilməsi zəruridir.

Mövcud problemlərə baxmayaraq, Azərbaycanın hərbi mətbuatı üçün gələcək inkişaf perspektivləri genişdir. Bu perspektivlər aşağıdakı istiqamətlər üzrə sistemləşdirilə bilər:

- hərbi jurnalistika ixtisası üzrə ali və əlavə təhsil proqramlarının yaradılması;
- peşəkar hərbi media mərkəzlərinin təşkili və beynəlxalq təcrübənin lokallaşdırılması;
- dövlət qurumları arasında kommunikasiya əməkdaşlığının gücləndirilməsi;
- xarici dillərdə yayımların artırılması və beynəlxalq media ilə koordinasiya;
- süni intellekt, "big data" və analitik platformaların informasiya siyasətinə inteqrasiyası.

Azərbaycanın informasiya təhlükəsizliyini möhkəmləndirmək üçün təkcə reaktiv tədbirlər deyil, həm də strateji kommunikasiya təlimləri, ssenari əsaslı məşğələlər və simulyasiya modelləri tətbiq olunmalıdır.

Azərbaycan hərbi mətbuatının informasiya müharibəsindəki uğurları yeni və daha yüksək tələblərlə müşayiət olunur. Bu səbəbdən sistemli yanaşma, peşəkarlaşma, texnoloji modernləşmə və institusional inkişaf bu sahənin davamlılığı üçün əsas prioritetlər sırasındadır. Problemlərin dəqiq diaqnozu və düzgün strategiyalarla idarə olunması Azərbaycanın informasiya suverenliyinin təminatında həlledici rol oynayacaqdır.

## Nəticə / Conclusion

Tədqiqat nəticələri göstərir ki, müasir dövrdə informasiya məkanında üstünlük əldə etmək və ictimai rəyə təsir göstərmək bacarığı, silahlı münaqişələrin gedişatına və nəticələrinə birbaşa təsir edən strateji faktor olaraq çıxış edir. Bu kontekstdə hərbi mətbuat yalnız informasiya yayımı funksiyasını yerinə yetirməklə kifayətlənmir, həm də dövlətin informasiya təhlükəsizliyinin təminatçısı, psixoloji müqavimət aləti və beynəlxalq mediada rəsmi mövqenin ifadə vasitəsi kimi fəaliyyət göstərir.

Azərbaycan Respublikasının 2020-ci ildə apardığı 44 günlük Vətən müharibəsi dövründə həyata keçirdiyi kommunikasiya siyasəti bu yanaşmanın əyani nümunəsi olmuşdur. Müharibə zamanı Müdafiə Nazirliyi və digər dövlət qurumları tərəfindən həyata keçirilən koordinasiyalı informasiya fəaliyyəti nəticəsində ölkə informasiya cəbhəsində həm yerli, həm də beynəlxalq auditoriyalara qarşı effektiv təsir mexanizmləri formalaşdırmağa nail olmuşdur. Operativ informasiya axını, vizual materiallardan istifadə, sosial mediada fəal iştirak və beynəlxalq media ilə əməkdaşlıq Azərbaycan tərəfinin informasiya müharibəsində strateji üstünlüyünü təmin etmişdir.

Bununla yanaşı, araşdırma bu sahədə bəzi institusional və funksional boşluqların da mövcud olduğunu aşkara çıxarmışdır. İxtisaslaşmış hərbi media kadrlarının çatışmazlığı, informasiya koordinasiyasında bəzən müşahidə olunan qeyri-bərabərliklər, kiberinformasiya təhlükəsizlik mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac və xarici dillərdə kontent istehsalının hələ tam sistematik olmaması kimi problemlər düzgün şəkildə həll olunmalı məsələlər kimi qeyd edilir.

Nəticə olaraq demək olar ki, hərbi mətbuat müasir dövrdə yalnız informasiya ötürücüsü deyil, həm də strateji təhlükəsizlik aləti və geosiyasi kommunikasiyanın mühüm aktoru kimi fəaliyyət göstərir. Təcrübə göstərdi ki, peşəkar və planlı şəkildə qurulmuş hərbi informasiya siyasəti yalnız müharibə dövründə deyil, həm də sülh şəraitində dövlətin mövqeyinin qorunması və gücləndirilməsi baxımından həlledici əhəmiyyət daşıyır. Bu səbəbdən informasiya müharibəsində üstünlük qazanmaq üçün hərbi mətbuatın institusional inkişafı, texniki və insan resurslarının gücləndirilməsi, eləcə də beynəlxalq standartlara uyğunlaşdırılması dövlət siyasətində prioritet istiqamət kimi müəyyənləşdirilməlidir.

**Məqalənin aktuallığı.** Müasir müharibələrin informasiya müstəvisində aparılması hərbi mətbuatın strateji əhəmiyyətini artırmışdır. Xüsusilə 2020-ci il Vətən müharibəsi zamanı Azərbaycan hərbi mətbuatının rolu, informasiya cəbhəsində üstünlük əldə etmək baxımından həlledici olmuşdur. İnformasiyanın operativ, düzgün və məqsədyönlü şəkildə yayılması milli təhlükəsizlik və ictimai

rəyin formalaşmasında əsas vasitəyə çevrilmişdir. Bu səbəbdən mövzu müasir dövrdə xüsusi aktuallıq daşıyır.

**Məqalənin elmi yeniliyi.** Bu tədqiqatda hərbi mətbuatın informasiya müharibəsində rolu ilk dəfə olaraq milli təhlükəsizlik, strateji kommunikasiya və informasiya siyasəti kontekstində kompleks şəkildə araşdırılmışdır. Araşdırmada hərbi mətbuatın ictimai rəyin formalaşmasında, ideoloji sabitliyin qorunmasında və psixoloji təsir mühitinin idarə olunmasında oynadığı funksional rol elmi əsaslarla müəyyənləşdirilmişdir. Hərbi media vasitələrinin informasiya qarşıdurmalarında tətbiq olunan təsir mexanizmlərinin effektivliyini artıran yeni elmi yanaşmalar təqdim edilmişdir. Tədqiqatda, həmçinin milli informasiya təhlükəsizliyinin təminində hərbi mətbuatın inteqrativ model kimi nəzərdən keçirilməsinə yönəlmiş metodoloji baza təklif olunmuşdur. Nəticə etibarilə, iş hərbi mətbuatın müasir informasiya müharibələrinin strukturunda strateji resurs kimi elmi-nəzəri statusunun müəyyənləşdirilməsinə xidmət edir. İlk dəfə mövzu üzrə milli və beynəlxalq təcrübələr müqayisəli kontekstdə araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti.** Əldə olunan nəticələr hərbi mətbuatın informasiya müharibəsində effektiv istifadəsi məqsədilə strateji kommunikasiya modellərinin formalaşdırılmasına töhfə verə bilər. Təklif edilən yanaşmalar həm müharibə, həm də sülh dövründə informasiya təhlükəsizliyinin təmin olunması, ictimai rəyin idarə edilməsi və beynəlxalq media ilə əlaqələrin qurulması sahəsində praktik rəhbərlik kimi istifadəsi mümkündür .

## İstifadə olunmuş ədəbiyyat / References


1. Axundov, E. (2006). Azərbaycanın aparması zəruri olan Elektron İnformasiya Müharibəsi (EİM) haqqında. “Qarabağ dünən, bu gün və sabah” 5-ci elmi-əməli konfransının materialları. http://soft.tusi.biz/ts_general/azl/kitabxana/article/art-9.htm
2. Əhmədli, N.A. (2004). Kütləvi informasiya vasitələri xaricə siyasi təbliğat sistemində. Bakı, BDU nəşriyyatı.
3. Məmmədli, C.Ə. (2003). Müasir jurnalistika. Bakı, BDU nəşriyyatı.
4. NATO. (2020). Media access and information transparency in conflict zones. NATO Reports.
5. Qaşqay, Z. (2017). Müharibə zamanı KİV-də obyektivlik problemləri. Strategiya.az. https://az.strategiya.az/news.php?id=94630
6. Ramazanov, Q. (2018). XX əsrin birinci yarısında Azərbaycanda hərbi mətbuatın inkişafı. Hərbi Bilik, (5), s.101–104.

7. Sümərinli, C.M. (2010). Hərbi sahədə informasiya əldə etmək mədəniyyəti: Azərbaycan və dünya təcrübəsi. Bakı, Apostrof nəşriyyatı.
8. Zəfər xronikası – Vətən müharibəsinin 19-cu günü. (2024). Modern.az. https://modern.az/qarabag/490692/zefer-xronikasi-veten-muharibesin-19-cu-gunu/javascript()
9. Baluyev, D. (2013). Politika v voyne postindustrialnoy epoxi. Mezhdunarodnii protsessi: Zhurnal teorii mezhdunarodnikh otnosheniy i mirovoy politiki, 11(3–4).
10. Manoylo, A.V. (2005). İnformatsionno-psikhologicheskaya voyna: faktori, opredelyayushiye format sovrenennogo vooruzhyonnogo konflikta. V materialakh V Mezhdunarodnoy nauchno-prakticheskoy konferentsii "İnformatsionniye tekhnologii i bezhopasnost" (vip. № 8, s.73–80). Kiyev.
11. Pocheptsov, Q.Q. (2000). İnformatsionniye voyni. Moskva: "Refl-Buk".

# INTERNET MEDIA AND INFORMATION SECURITY ISSUES IN AZERBAIJAN

**Sure Seyid**

Nakhchivan State University,
Ph.D. in Philology, Associate Professor
E-mail: seyidsura@yahoo.com
https://orcid.org/0000-0002-5628-0959

**Abstract.** This research is devoted to examining the problems of internet media and information security in Azerbaijan. In the context of globalization, ensuring information security and cybersecurity at both national and international levels constitutes the central theme of the study. It is emphasized that the primary goal in this field is the protection of the interests of individuals, society, and the state. In recent years, technologically complex and multidimensional attacks targeting Azerbaijan's information space—including the information resources and infrastructures owned by state bodies, private and non-governmental organizations, as well as individuals—have been expanding. These attacks also affect the lifecycle of data stored in these resources, the material and non-material objects used in related processes, and the interconnections among them. The study analyzes the purposeful measures carried out in Azerbaijan following the restoration of independence, focusing on the protection of state sovereignty in cyberspace, safeguarding national interests, improving a unified state policy on information security, and developing the technological infrastructure components necessary for ensuring information security.
**Keywords:** mass media, information security, cybersecurity, media, technology.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5025
**To cite this article:** Sure Seyid. (2025). Internet media and information security issues in Azerbaijan. *Journal of Preschool and Primary Education,* Special issue – "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 83-97.
**Article history:** received – 03.10.2025; accepted – 05.11.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# AZƏRBAYCANDA İNTERNET MEDİA VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ

**Surə Seyid**

Naxçıvan Dövlət Universiteti,
Filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: seyidsura@yahoo.com
https://orcid.org/0000-0002-5628-0959

**Annotasiya.** Tədqiqat Azərbaycanda internet media və informasiya təhlükəsizliyi problemlərinin araşdırılmasına həsr olunub. Qloballaşan dünyada istər milli, istərsə də beynəlxalq səviyyədə informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması məsələsi tədqiqatın müzakirə mövzusudur. Qeyd olunur ki, bu istiqamətdə fəaliyyətin başlıca məqsədi insan, cəmiyyət və dövlət maraqlarının qorunmasıdır və son zamanlar Azərbaycanın informasiya məkanına, o cümlədən dövlət, özəl və qeyri-hökumət təşkilatlarının, fiziki şəxslərin sahib olduğu informasiya ehtiyatlarına və infrastrukturlarına, bu ehtiyatlarda olan məlumatların həyat boyu proseslərinə, həmin proseslər üçün istifadə olunan maddi və qeyri-maddi obyektlərə və onlar arasında əlaqələrə qarşı – texnoloji cəhətdən çoxşaxəli hücumlar genişlənməkdədir. Tədqiqatda Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə kibermakanda dövlət müstəqilliyinin, milli maraqların qorunması, informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin təkmilləşdirilməsi və informasiya təhlükəsizliyinin texnoloji infrastruktur komponentlərinin yaradılması istiqamətində aparılan məqsədyönlü işlər təhlil edilir.

**Açar sözlər**: KİV, informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, media, texnologiya.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5025
**Məqaləyə istinad:** Surə Seyid. (2025). Azərbaycanda internet media və İnformasiya təhlükəsizliyi məsələləri. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində", səh. 83-97.
**Məqalə tarixçəsi:** göndərilib – 03.10.2025; qəbul edilib – 05.11.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Indrotuction

Azərbaycan Respublikasında söz və informasiya azadlığının əldə edilməsi, azad informasiya mühitinin formalaşması siyasəti Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Heydər Əliyev bu sahədə dünya təcrübəsinə yaxşı bələd olan bir rəhbər kimi bilirdi ki, hər bir ölkənin informasiya məkanı, informasiya ehtiyatları və texnologiyaları cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafı səviyyəsini və dinamikasını müəyyənləşdirir. Məhz onun rəhbərliyi dövründə ölkədə azad, müstəqil, beynəlxalq rəqabətədavamlı, demokratik milli kütləvi informasiya vasitələrinin formalaşması və hərtərəfli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü siyasətin həyata keçirilməsinə başlanmışdır. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV üzərində hər hansı senzuranın yolverilməzliyi birmənalı şəkildə təsbit edilmişdir. XX əsrin sonlarından başlayaraq, Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaradılmışdır. Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən Baş İdarə ləğv edilərək [Azərbaycan Respublikası Prezidentinin Fərmanı., 1998] senzuraya birdəfəlik son qoyulmuşdur. Fərmanda nəzərdə tutulan digər tədbirlər müstəqil KİV-in inkişafını, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmişdir. Azərbaycan Jurnalistlərinin I Qurultayında, 2003-cü ildə mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən müstəqil Mətbuat Şurası yaranmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın müasir informasiya təminatı və təhlükəsizliyi siyasəti hüquqi, təşkilati-texniki və iqtisadi metodlarla təmin olunur. Burada hüquqi metodlar dedikdə, "informasiya sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktların, informasiya təminatı və təhlükəsizliyi ilə bağlı normativ-metodiki sənədlərin işlənib hazırlanması və qəbulu nəzərdə tutulur. Təşkilati-texniki metodlara informasiya-telekommunikasiya sistemlərinin normal fəaliyyətinə təhlükə yaradan texniki qurğuların, proqramların aşkarlanması və digər oxşar tədbirlər daxildir. İqtisadi metodlar isə informasiya təminatı və təhlükəsizliyinin təmin olunması sahəsində iqtisadi tədbirlərin görülməsi və onların maliyyələşdirilməsi ilə əlaqədardır" [Həsənov, Ə., 2015].

1999-cu ilin dekabrında "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu yeni formatda qəbul olunmuşdur [Nazirlər Kabine-

tinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında İlham Əliyevin yekun nitqi., 2012]. Mütəxəssislərin fikrinə görə, bu yeni qanun bütün demokratik tələblərə: söz və məlumat azadlığına, KİV-lərin və jurnalistlərin müstəqilliyinə və sərbəst fəaliyyətinə tam təminat verir. Bundan başqa, 2002-ci ildə Avropa Şurası ilə əməkdaşlıq şəraitində, beynəlxalq standartlara tam cavab verən "Televiziya və radio yayımı haqqında" Qanun işlənib hazırlanmış və qəbul edilmiş, 2003-cü ildə elektron KİV sahəsində fəaliyyətinin demokratik normalara uyğun qurulmasını təmin edəcək, öz fəaliyyətində yalnız qanuna tabe olan bir qurum – Milli Televiziya və Radio Şurası yaradılmışdır. 2004-cü ildə "İctimai Televiziya və radio yayımı haqqında" Qanun layihəsi işlənib hazırlanmış və qəbul edilmişdir ["İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu., 1998].

Qeyd etmək lazımdır ki, qanunun hazırlanmasında Avropa Şurasının ekspertləri, bilavasitə iştirak etmiş, əksər prinsipial müddəalar onlarla razılaşdırılmışdır. Bundan başqa, 2004-cü ildə "Dövlət sirri haqqında", 2005-ci ildə jurnalistlərin informasiya almaq azadlığının tam reallaşdırılması məqsədilə "İnformasiya əldə etmək haqqında" Qanun təsdiq olunmuşdur ["İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu., 2005].

Qeyd olunan qanunların hazırlanıb qəbul olunması Azərbaycanın informasiya sahəsindəki dövlət siyasəti baxımından çox mühüm addımlar oldu. Belə ki, təkcə bu faktı qeyd etmək kifayətdir ki, "İnformasiya əldə etmək haqqında" Qanun qəbul edildikdən sonra dövlət orqanlarında ictimaiyyətlə əlaqələr idarələrinin və mətbuat xidmətlərinin formalaşdırılmasına başlanmışdır. Qanunla müəyyən edilmiş bütün informasiya sahibləri, mərkəzi və yerli hakimiyyət qurumları onlara məxsus internet informasiya resursları yaradaraq jurnalistlərin istifadəsinə təqdim etmişlər. Hazırda həmin resursların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Müstəqillik əldə etdikdən sonra bütün sahələrdə özünün inkişaf dövrünü yaşayan Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsi, KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul edilmiş, müvafiq fərman və sərəncamlar imzalanmışdır. 2003-cü il, yanvarın 9-da Azərbaycan Prezidentinin Sərəncamı ilə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları 3 il müddətinə dondurulmuş, 2006-cı ilin martında isə onların 450 min ABŞ dolları həcmində borcunun dövlət büdcəsi hesabına ödənilməsi qərara alınmışdır [Həsənov, Ə., 2015]. Qeyd edilməlidir ki, 2000-ci ildən etibarən Azərbaycan milli mətbuatının yubileyləri dövlət səviyyəsində qeyd edilir və hər il jurnalistlər fəxri adlar və dövlət mükafatları ilə təltif olunurlar. Artıq ardıcıl olaraq hər il ölkənin aparıcı qə-

zet redaksiyaları və informasiya agentliklərinə dövlət tərəfindən birdəfəlik maliyyə yardımı ayrılır. Bu sahədə görülən davamlı işlərin nəticəsi kimi 2008-ci il, iyul ayının 30-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilmişdir [Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası., 2008]. Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğu prosesində KİV-in rolunu nəzərə almaqla fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, redaksiyalara yardım mexanizmini təkmilləşdirmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və KİV-lə səmərəli əməkdaşlığı gücləndirmək, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində KİV-in potensialından səmərəli istifadə etməkdən ibarətdir. 2009-cu il, aprel ayının 3-də Konsepsiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır ["Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı., 2009]. Fondun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi üçün Konsepsiyada nəzərdə tutulmuş müddəaların həyata keçirilməsini, habelə KİV-lərin proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir. Azərbaycan Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" 2010-cu il, 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün yaşayış binasının tikilməsi məqsədi ilə xüsusi vəsait ayrılmış, 2013-cü il, iyulun 22-də jurnalistlər üçün tikilmiş binanın açılış mərasimi keçirilmişdir. 156 KİV əməkdaşına yeni mənzillər paylanmış və elə həmin gün Azərbaycan Prezidenti "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncam imzalayaraq jurnalistlər üçün yeni – 240 mənzilli binanın tikintisinə vəsait ayırmışdır. Beləliklə, 2017-ci il, 22 iyul tarixli sərəncamda göstərilən mənzillər "Milli mətbuat günü" münasibətilə jurnalistlərə təqdim olunmuşdur. Xüsusi vurğulamaq lazımdır ki, müstəqillik illərindən sonra Azərbaycanda bütün sahələrdə özünü göstərən inkişaf prosesi elektron KİV sahəsindən də yan keçməmiş, yeni özəl televiziya və radio kanalları açılmışdır. Son illər isə kabel televiziyasının miqyası genişlənmişdir. 2005-ci ildə Azərbaycan Dövlət Televiziyasının bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Elə həmin il İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır. İctimai Televizi-

yanın maddi-texniki təminatı və faktiki olaraq fəaliyyətə başlaması üçün bütün zəruri tədbirlər görülmüşdür.

Hazırda Azərbaycanda 10 ümumrespublika, 14 regional, 17 kabel, 15 internet, 1 peyk televiziyası, 13 ümumrespublika və 3 regional radio fəaliyyət göstərir. Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli qərarına, əsasən, ölkə ərazisində rəqəmsal yayımın tətbiqinə də başlanılmışdır.

**Problemin qoyuluşu**

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasından, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir. Ölkəmizin informasiya sahəsində təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. Son illər informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişaf etdirilməsi istiqamətində bir çox mühüm tədbirlər görülmüşdür. Bu kontekstdən yanaşdıqda informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin təkmilləşdirilməsi və informasiya təhlükəsizliyinin texnoloji infrastruktur komponentlərinin yaradılması istiqamətində aparılan məqsədyönlü işlərin araşdırılması internet medianın kompleks tədqiqində zəruridir.

**Tədqiqat metodları**

Araşdırma prosesində internet medianın öyrənilməsi, informasiyalı cəmiyyət anlayışının mərhələli və tarixi-müqayisəli təhlili və informasiya təhlükəsizliyi sahəsində qanunvericilik sisteminin ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

## Əsas hissə / Main part

Azərbaycanda inkişafın prioritet istiqamətlərindən biri olan İKT sahəsi bu gün keyfiyyətcə yeni və daha yüksək inkişaf mərhələsinə daxil olmuşdur [Niyazov, X., 2016]. Azərbaycan Prezidenti tərəfindən "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)", "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005–2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" və s. mühüm sənədlər təsdiq olunmuşdur. Strategiya çərçivəsində "Elektron Azərbaycan – 2005-2008-ci illər" və "Elektron Azərbaycan – 2010–2012-ci illər" dövlət proqramları qəbul olunaraq icra edilmişdir [https://azertag.az/xeber/mıllı_tahlukasızlık_haqqındaazarbaycan_respublıkasının_qanunu-317420].

Azərbaycanda informasiya cəmiyyətinin inkişafı, rabitə və informasiya tex-

nologiyalarının, eyni zamanda "İKT-nin inkişafı üzrə Milli Strategiya"nın qarşısında dayanan vəzifələrin tam yerinə yetirilməsi hazırda həyata keçirilən dövlət siyasətinin mühüm vəzifələrindən biri hesab olunur. Bunu nəzərə alaraq, ölkə Prezidenti 2 aprel, 2014-cü il tarixində "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Beləliklə, ölkədə sayca ikinci milli fəaliyyət proqramı qəbul olunmuşdur ["Azərbaycan" qəzeti., 2014]. Qeyd etmək lazımdır ki, bundan əvvəl qəbul olunmuş Milli Strategiya 2003–2012-ci illəri əhatə edir və bu sahə üzrə milli fəaliyyət proqramının əsas vəzifə və istiqamətlərini, həyata keçirilməsinin əsas prinsiplərini və prioritetlərini müəyyənləşdirmişdir.

İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, həmçinin xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır. Ölkə başçısının imzaladığı sərəncama əsasən, Milli Strategiyanın əsas məqsədi ölkədə informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsi, ölkənin davamlı və dayanıqlı tərəqqisi, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi, habelə sosial-iqtisadi və mədəni sahələrin inkişafına təkan verən iqtisadi sektor kimi inkişaf etdirilməsidir [https://president.az/articles/11312].

Hüquqi sənəd haqqında ölkə başçısının çıxışında qeyd olunur ki, "İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır.

Yuxarıda qeyd olunan məsələlər bir tərəfdən ölkəmizdə söz, mətbuat və informasiya azadlığını təmin edirsə, digər tərəfdən dövlətin informasiya təhlükəsizliyi probleminə medianın münasibətini və dəstəyini şərtləndirir. Bu kontekstdə dövlətin informasiya siyasəti və informasiya təhlükəsizliyi məsələləri ətrafında elmi təhlillərə ciddi ehtiyac yaranır. Əsas strateji əmtəəsinin informasiya olduğu müasir informasiya cəmiyyəti, bu sahədə mövcud və potensial münasibətləri, habelə fəaliyyətləri tənzimləmək məqsədilə müvafiq institutların və nəzəri-konseptual sənədlərin hazırlanmasına önəm verir. Dövlətin informasiya siyasətinin formalaşması da məhz belə bir zərurətdən irəli gəlir.

Dövlətin informasiya siyasəti dedikdə, dövlət orqanlarının informasiya sektorunun inkişafına yönəlmiş tənzimləyici fəaliyyəti başa düşülür. İnformasiya sektoru telekommunikasiyanı, informasiya sistemlərini və kütləvi informasiya vasitələrini (KİV), habelə hər növ (işgüzar, əyləncəli, elmi-tədris, xəbər və s.) informasiyaların yaradılması, mühafizəsi, işlənilməsi, nümayişi, ötürülməsi ilə bağlı istehsal və münasibətlərin məcmusunu əhatə edir [Azərbaycan Respublika-

sında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası., 2008].

Bu gün Azərbaycan, eyni zamanda dünyada sülh və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verməyə çalışır, sivilizasiyalararası dialoq təşəbbüslərində fəal iştirak edir. Müasir dövrdə bütün dünyada insanlar üçün obyektiv, qərəzsiz və vicdanlı informasiyanın açıq olması, nəticə etibarilə, dünyada sülhün, təhlükəsizliyin möhkəmlənməsinə, ölkələr və xalqlar arasında əməkdaşlığın, həmçinin sivilizasiyalararası dialoqun genişlənməsinə xidmət edir.

Hazırda Azərbaycan vətəndaşlarının qarşılaşdığı problemlər yalnız ekoloji məsələlərlə bağlı deyil, həm də neqativ enerjili, qeyri-real informasiyaların qəbulu ilə bağlıdır. Belə neqativ informasiyaların insan səhhətinə təsiri, ümumilikdə, havanın, suyun və ətraf mühitin çirklənməsindən yaranan zərərlərdən heç də az deyil. Bəzi vətəndaşlar sakit həyat tərzi keçirmək, stress, kəskin emosiya, depressiya, frustrasiya kimi mənfi psixoloji hallardan uzaq olmaq üçün özlərini KİV-dən təcrid edirlər. Obyektiv və qərəzsiz informasiya mübadiləsinin vacibliyi ilə bağlı fikirlər də məhz bu reallıqlardan qaynaqlanır.

KİV sahəsində informasiya siyasətinin əhatə etdiyi məsələlərdən biri də milli təhlükəsizliyin tərkib hissəsi olan informasiya təhlükəsizliyinin təmin olunmasıdır. Dövlətin milli təhlükəsizlik siyasəti ilə bağlı Müstəqil Jurnalistlər Liqasının hazırladığı "Mətbuatda dövlət siyasətinin təbliğinə dəstək" adlı bülletendə göstərilir ki, dövlətlərin milli təhlükəsizlik siyasətləri bir-birindən fərqlənsə də, onlar ən azı üç əsas məsələni əhatə etməlidir: beynəlxalq sistemdə dövlətin rolu; dərk olunmuş yerli və beynəlxalq problemlərə qarşı iştirakçı aktorların həyata keçirməli olduqları öhdəliklər.

İnformasiya təhlükəsizliyinin müasir texnogen, vətəndaş və informasiya cəmiyyətindəki rolu, anlayışı, məqsəd və vəzifələri barədə bəhs etməzdən əvvəl, onun siyasi sistemdəki, multidisiplinar və institutlararası rolu müəyyənləşdirilməlidir.

İnformasiya siyasətinin məqsədi – vətəndaşların və ölkənin informasiya-psixoloji təhlükəsizliyini təmin etmək üçün bilgilər sisteminin əldə olunması, dövlət siyasətinin informasiya-analitik müşayiəti həmçinin idarəçiliyin əsas subyekti kimi dövlət tərəfindən qəbul edilmiş qərar və proqramların əhaliyə çatdırılmasıdır.

İnformasiya müharibəsi və informasiya qarşıdurması da məhz bu kontekstdə özünü qabarıq şəkildə ifadə edir. Bütün bu proseslərin həyata keçirilməsində və müəyyən nəticələrin əldə olunmasında KİV-in üzərinə böyük missiya düşür. Çünki yuxarıda qeyd olunan proseslərin reallaşmasında obyekt və subyekt olaraq media vasitələri əhəmiyyətli funksiyalar yerinə yetirirlər. İlk növbədə, ona görə ki, dövlətin informasiya siyasətinin yerli, regional və qlobal miqyasda özünü

göstərməsi və bunun hansı sürətlə baş verməsi məhz mediadan asılıdır. Media özü də bu prosesdə iştirak etməklə həmin siyasətin cəmiyyət tərəfindən qəbul olunma formasına birbaşa təsir göstərir. Eyni zamanda medianın siyasiləşməsi hallarının mövcudluğu artıq onu siyasətin ayrılmaz tərkib hissələrindən birinə çevirmişdir.

Milli təhlükəsizliyin iqtisadi, siyasi, hərbi, sərhəd və digər sahələri xarici və daxili təhdidlər, həmçinin onların qarşısının alınması metodları informasiya təhlükəsizliyində əsas məsələlərdəndir. Onların təhlükəsizliyinin təmin olunması metodları bir-birindən fərqləndiyi üçün Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunmasında yalnız yuxarıda adları çəkilən qanunlar kifayət etməyə bilərdi. Bu zərurətdən irəli gələrək sonralar bir çox məsələlər – ölkənin informasiya təhlükəsizliyinə təhdidlər ümumi və qısa formada – həm Milli Təhlükəsizlik Konsepsiyasında və Azərbaycan Respublikasının “Milli Təhlükəsizlik haqqında” Qanununda öz əksini tapmışdır. Milli Təhlükəsizlik Konsepsiyasında qeyd olunur ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunması, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir. Burada bildirilir ki, Azərbaycan Respublikasının milli maraqları xalqımızın fundamental dəyər və məqsədlərini, insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi və sosial tələbatların məcmusundan ibarətdir ki, onlar da konsepsiyada punktlar şəklində öz əksini tapmışdır [Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası., 2007]. Konsepsiyada da əks olunduğu kimi, milli maraqlara:

- dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
- Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;
- Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi; dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi və s. kimi məsələlər daxildir [Əhmədov, E., 2012].

İnformasiya təhlükəsizliyi siyasəti, Azərbaycan Respublikasının informasiya sahəsində əsas milli maraqları “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununda aşağıdakı sahələr üzrə təsnif olunur:

- məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi;
- informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi;
- informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi;

- dünya rabitə və informasiya sistemlərinə daxil olma [https://president.az/articles/11312].

Qanunun 15-ci maddəsində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsas sahələri qismində iqtisadi, hərbi, sosial, informasiya, ekoloji, elm, mədəniyyət, mənəviyyat və digər sahələr göstərilir.

Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər Qanunda aşağıdakı kimi təsnif edilir:

- Azərbaycan Respublikasında informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;
- dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanılması;
- informasiya strukturunun inkişaf etdirilməsi;
- kompüter informasiyası sahəsində cinayətkarlığa qarşı mübarizə;
- informasiya təhlükəsizliyinin və informasiya azadlığının təmin olunması [“Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu., 2004].

Qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsi informasiya təhlükəsizliyi məsələsinin aktuallığını bir daha gündəmə gətirmiş oldu. Cəmiyyətə aydın oldu ki, müharibə yalnız silahla deyil, həm də informasiya sahəsində, informasiya təhlükəsizliyi səviyyəsində aparılan mübarizələrdə müşayiət olunmalıdır. Bunun isə ən asan yolu təbii ki, mediadır. Media bütün dövrlərin ən güclü təbliğat silahı olmuşdur. Məhz bu səbəbdəndir ki, bütün dünyada olduğu kimi, Azərbaycanın da bir dövlət kimi həm yerli, həm də beynəlxalq səviyyədə apardığı informasiya təhlükəsizliyi sahəsindəki siyasətində məhz medianın – televiziya, radio, mətbuat, onlayn və sosial media vasitələrinin rolu böyükdür və danılmazdır.

## Nəticə / Conclusion

Biz informasiya əsrində, internet və informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə yaşayırıq. Azərbaycan əhalisinin 60 faizindən çoxu internetdən istifadə edir. Bu, sevindirici hal kimi qiymətləndirilməlidir. Lakin unutmaq olmaz ki, dünyada ən təhlükəsiz bir alət belə doğru əllərdə olmayanda təhlükəli silaha çevrilə bilər. İnformasiya məkanında internet və digər informasiya vasitələri insanların informasiya ehtiyaclarını ödəməklə yanaşı, bəzən təxribat vasitəsi kimi də istifadə olunur. Məhz bu yolla ayrı-ayrı xalqlara, dövlətlərə və insanlara qarşı böhtan xarakterli kampaniyalar aparılır.

Prezident İlham Əliyevin fikirlərindən də göründüyü kimi, informasiya təhlükəsizliyi Konsepsiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişə-

si ilə bağlı həyata keçiriləcək informasiya siyasətinin əsas istiqamətləri və bu sahədə qarşıda duran vəzifələr ayrıca əks etdirilməlidir. Ölkə Prezidentinin 2012-ci ildə Nazirlər Kabinetinin iclasında səsləndirdiyi fikirlərə diqqət yetirək: "Hazırda Azərbaycana qarşı həyata keçirilən informasiya müharibəsində Ermənistan xüsusi canfəşanlıq göstərir. Etiraf etmək lazımdır ki, erməni lobbisi Avropada və başqa dünya dövlətlərində, xüsusən böyük ölkələrdə kifayət qədər güclüdür. Onlar onilliklər, yüzilliklər boyu bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərmiş, ciddi şəkildə təşkilatlanmış, çox aqressiv və mənfi bir şəbəkə yaratmışlar. Azərbaycana qarşı əksər mənfi informasiyaların təkanverici qüvvəsi məhz erməni lobbisidir. Erməni diasporu müxtəlif ölkələrin informasiya vasitələrində Azərbaycanın dünyada gündən-günə artan nüfuzuna, siyasi, iqtisadi, mədəni sahələrdə əldə etdiyi uğurlarına kölgə salmağa çalışır. Ermənilərin və onlara himayədarlıq edən siyasi dairələrin əsas məqsədi nəyin bahasına olursa-olsun beynəlxalq ictimai rəydə Azərbaycanla bağlı mənfi fikir formalaşdırmaqdır" [Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında İlham Əliyevin yekun nitqi., 2012].

"Azərbaycanın informasiya təhlükəsizliyi siyasətinin əsas vəzifələrindən biri, həm özünün, həm də tərəfdaş region dövlətlərinin, transmilli informasiya vasitələrinin imkanlarından maksimum bəhrələnərək, beynəlxalq ictimaiyyətə çıxış kanalları və təsir mexanizmləri yaratmaqdan ibarətdir. Mütəxəssislərin fikrincə, hazırda ABŞ və digər böyük dövlətlərin mövcud informasiya-kommunikasiya texnologiyaları onlara bütün dünya ərazilərinə geosiyasi, hərbi-strateji və informasiya nəzarəti etmək imkanı verir. Yaxud transmilli peyk, kompüter və informasiya texnologiyaları, mobil telefon şəbəkələri həm beynəlxalq ictimaiyyətin, həm də bilavasitə dövlətlərin əhalisinin lazımi istiqamətə yönəldilməsi və idarə edilməsinin həlledici amilinə çevrilmişdir. Əlbəttə, Azərbaycan tipli dövlətlər dünya informasiya məkanında lazım olan səviyyədə iştirak etmək imkanlarına malik deyildir. Lakin hər bir müstəqil dövlət kimi, Azərbaycanın da milli informasiya siyasətinin formalaşdırılması, ölkənin informasiya məkanının kənar qüvvələrin təsirindən və müdaxiləsindən maksimum qorunması, milli informasiya maraqlarının təmin edilməsi, dünyanın qlobal və virtual informasiya məkanına müxtəlif yollar tapılması, dünya ictimai rəyinə təsir imkanları yaradılması günün vacib vəzifələri sırasına daxildir" [Həsənov, Ə., 2015].

Azərbaycan Respublikasının informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindəndir. Ölkə Prezidenti İlham Əliyev 2023-cü il, 28 avqust tarixli Sərəncamında "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyasını təsdiq etmişdir [https://president.az/az/articles/view/].

**Məqalənin aktuallığı.** Qloballaşan dünyada informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyin təmin olunması, istər milli, istərsə də beynəlxalq səviyyədə prioritet məsələyə çevrilmişdir. Bu sahədə başlıca məqsəd insan, cəmiyyət və dövlət maraqlarının qorunmasıdır. Kibertəhlükəsizlik sahəsində milli ekosistemin formalaşdırılması və inkişafı istiqamətində aparılmış əməli tədbirlər ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına səbəb olmuşdur. Belə ki, Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının tərtib etdiyi "Qlobal Kibertəhlükəsizlik İndeksi 2020" (Global Cybersecurity Index, GCI) reytinqində 15 pillə irəliləyərək, 194 ölkə arasında 89.31 xalla 40-cı yerdə qərarlaşmışdır. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası" dövlətin, cəmiyyətin və insanların müasir İKT-dən təhlükəsiz istifadəsinin təmin edilməsi üçün milli informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə, dövlət və özəl şəbəkələrin, kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasına aid tədbirlərin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin təşkilinə, həmçinin fərdi məlumatların mühafizəsinə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməsinə daha əlverişli şəraitin yaradılmasına xidmət edir. Strategiya Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına, o cümlədən "Milli təhlükəsizlik haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il, 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"na, habelə informasiya təhlükəsizliyi üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsaslanır.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatda günümüzün aktual mövzularından olan informasiya, informasiya cəmiyyəti və informasiya təhlükəsizliyi anlayışlarına aydınlıq gətirilir. Eyni zamanda informasiya cəmiyyəti mühitində informasiya təhlükəsizliyinə yönəlmiş təhdid mənbələrindən, informasiya təhlükəsizliyinin pozulma hallarının əsas kateqoriyalarından bəhs edilir. İnformasiya təhlükəsizliyinin təmin edilməsi metodları – informasiyanın hüquqi, təşkilati, texnoloji metodlarla mühafizəsi və mənəvi-etik metodları məqalənin elmi yeniliklərindən biridir.

**Məqalənin praktik əhəmiyyəti.** Göründüyü kimi, müstəqillik illərində Azərbaycan Respublikasında yeni informasiya fəaliyyətinin təşkili, fikir, söz və məlumat azadlığı sahəsində qazanılmış uğurlar milli dövlət quruculuğu siyasətinin və əldə olunmuş demokratik nailiyyətlərin mühüm tərkib hissəsi olmuşdur. Azərbaycan hökuməti bundan sonra da demokratiyanın inkişaf etdirilməsi sahəsində üzərinə düşən vəzifələri yerinə yetirmək əzmindədir. Tədqiqat işi informasiya

texnologiyaları, kibertəhlükəsizlik və jurnalistika sahəsində çalışan mütəxəssislər üçün metodik vəsait kimi əhəmiyyət kəsb edir. Əldə edilən nəticələr media etikası, dezinformasiya ilə mübarizə və kibermühafizə sahəsində maarifləndirmə tədbirlərinin təşkili zamanı tətbiq oluna bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Əhmədov, E. (2012). Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika. (1998–2011). Bakı: "Letterpress".
2. Əliquliyev, R. (2014). İnformasiya cəmiyyətinin formalaşmasının multidissiplinar elmi-nəzəri problemləri və onların ölkəmizdə araşdırılması vəziyyəti. AMEA-nın "Xəbərlər" məcmuəsi, 1(1), s. 30–35.
3. Əlizadə, M., Bayramov, H., Məmmədov, Ə. (2016). İnformasiya təhlükəsizliyi. Bakı, İqtisad Universiteti.
4. Əliyev, İ. (2010). Mən jurnalistləri vətənpərvərliyə çağırıram. Bakı: "Apastrof".
5. Əliyev, İ. (2012). Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqi. Azərbaycan qəzeti.
6. Əliyev, V. (2017). Media korporasiyaların fəaliyyətində informasiya ilə manipulyasiya problemləri. Müasir medianın yaradıcılıq prinsiplərinin milli mətbuata tətbiqi yolları: III beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı.
7. Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası. (2008). Azərbaycan qəzeti.
8. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. (2007). Azərbaycan qəzeti.
9. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2009). Azərbaycan qəzeti.
10. Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (1998). Azərbaycan qəzeti.
11. Heydər Əliyev və mətbuat (4 cilddə, IV cild). (2003). Bakı: "Nurlar".
12. Həsənov, Ə. (2011). Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: "Letterpress".
13. Həsənov, Ə. (2015). Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD".

14. Həsənov, Ə. (2016). Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: "Zərdabi LTD".
15. İctimai televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu. (20075). Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 6, maddə 601.
16. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu. (2005). Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 12, 3200–3226.
17. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu. (1998). Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 6, 1214–1222.
18. Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya. (2003). Azərbaycan qəzeti.
19. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu. (2000). Azərbaycan qəzeti, № 34.
20. Mazanlı, İ. (2005). Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Terminlər və anlayışlar. Bakı: "UniPrint".
21. Mehdiyev, R. (2003). XXI əsrdə milli dövlətçilik. Bakı: "XXI – Yeni Nəşrlər Evi".
22. Mehdiyev, R. (2009). Mətbuatda dövlət siyasətinin təbliğinə dəstək: reallıqlar, problemlər, vəzifələr. Bakı: "Şəms".
23. Məmmədli, C. (2012). Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Bakı: "Zərdabi LTD".
24. Niyazov, X. (2016). Dövlət informasiya siyasəti. Bakı: "Elm və Təhsil".
25. Piriyev, A. (2005). Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, Bakı Universiteti.
26. Qasımov, E. (2012). İnformasiya təhlükəsizliyinin qorunmasında dövlət siyasətinin prinsipləri. Respublika qəzeti.
27. Rüstəmov, A. (2017). İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti. Azərbaycan qəzeti.
28. Şəymən. (2015). İnformasiya təhlükəsizliyinin texniki və yaradıcılıq tərəfləri... Şərq qəzeti.
29. Televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu. (2002). Retrieved from http://e-qanun.az
30. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. (2004). Azərbaycan qəzeti.
31. "Azərbaycan" qəzeti. (2014).
32. "Şərq" qəzeti. (2018).
33. www.president.az

34. https://azertag.az/xeber/Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu317420
35. http://www.aznews.az/news/cemiyyet/114276.html
36. https://president.az/articles/11312
37. https://president.az/az/articles/view/60949.

# PEDAGOGICAL CONTENT STRATEGY OF THE "AZERBAIJAN JOURNAL OF EDUCATIONAL STUDIES": AN ANALYSIS IN THE CONTEXT OF LEADING SCHOLARS' SCIENTIFIC HERITAGE

**Elnara Mammadova**

Senior Lecturer, Department of General Pedagogy
Azerbaijan State Pedagogical University, Ph.D. in Pedagogy
E-mail: e-mail: elnare_mammadova@yahoo.com
https://orcid.org/0000-0002-8472-7703

**Abstract.** The article examines the significance of the journal "Azerbaijan Journal of Educational Studies", which has played a crucial role in the history of Azerbaijani pedagogical thought and in the development of educational and scientific-pedagogical discourse. The journal has occupied a leading position both in shaping independent pedagogical ideas and in studying Azerbaijani, Western, and Russian pedagogical heritage. Its contribution to the dissemination of pedagogical thought and the consolidation of rich intellectual traditions is particularly emphasized. A central focus of the article is the comprehensive analysis of the contributions of distinguished educators—Ahmad Seyidov, Mehdi Mehdizade, and Mardan Muradkhanov—whose scholarly and theoretical works published in the journal, innovative perspectives on education, and significant contributions to the development of national pedagogical thought are highlighted. As a periodical publication, the journal has consistently responded promptly and adequately to innovations in school life, fostering teachers' creative and scholarly inquiry.

**Keywords:** scientific-pedagogical press, history of Azerbaijani pedagogical thought, "Azerbaijan Journal of Educational Studies" , pedagogical thinking, systematic analysis.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5017
**To cite this article:** Mammadova E. (2025). Pedagogical content strategy of the "Azerbaijan journal of educational studies": an analysis in the context of leading scholars' scientific heritage. *Journal of Preschool and Primary Education*, Special issue – "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 99-116.
**Article history:** received – 14.10.2025; accepted – 19.11.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# "AZƏRBAYCAN MƏKTƏBİ" JURNALININ PEDAQOJİ MƏZMUN STRATEGİYASI: APARICI ALİMLƏRİN ELMİ İRSİ KONTEKSTİNDƏ TƏHLİL

**Elnarə Məmmədova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Ümumi pedaqogika kafedrasının baş müəllimi,
Pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: e-mail: elnare_mammadova@yahoo.com
https://orcid.org/0000-0002-8472-7703

**Annotasiya.** Məqalədə Azərbaycan pedaqoji fikir tarixində mühüm rol oynamış "Azərbaycan məktəbi" jurnalının təhsil və elmi-pedaqoji düşüncənin inkişafındakı əhəmiyyəti təhlil olunur. Jurnal, həm müstəqil pedaqoji ideyaların formalaşmasında, həm də Azərbaycan, Qərb və rus pedaqoji irsinin tədqiqində aparıcı mövqe tutmuşdur. Burada pedaqoji fikrin yayılmasında və zəngin ideyaların toplanmasında bu nəşrin rolu xüsusi vurğulanır. Məqalənin diqqət çəkən məqamlarından biri də "Azərbaycan məktəbi" jurnalının formalaşmasına və inkişafına misilsiz töhfələr vermiş görkəmli pedaqoqlar – Əhməd Seyidov, Mehdi Mehdizadə və Mərdan Muradxanovun fəaliyyətinin geniş təhlilidir. Bu pedaqoqların jurnal səhifələrindəki elmi-nəzəri yazıları, təhsil sahəsindəki yenilikçi baxışları və milli pedaqoji fikrin inkişafına verdikləri töhfələr xüsusi olaraq qeyd edilir.

Dövri mətbuat orqanı kimi jurnal məktəb həyatında baş verən yeniliklərə çevik və həssas münasibət göstərmiş, müəllimlərin yaradıcılıq axtarışlarını stimullaşdırmışdır.

**Açar sözlər:** elmi-pedaqoji mətbuat, Azərbaycan pedaqoji fikir tarixi, "Azərbaycan məktəbi" jurnalı, pedaqoji düşüncə, sistemli təhlil.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5017
**Məqaləyə istinad:** Məmmədova E. (2025). "Azərbaycan məktəbi" jurnalının pedaqoji məzmun strategiyası: aparıcı alimlərin elmi irsi kontekstində təhlil. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində", səh. 99-116.
**Məqalə tarixçəsi:** göndərilib – 14.10.2025; qəbul edilib – 19.11.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

XX əsrin əvvəllərindən etibarən Azərbaycan cəmiyyətində təhsilin inkişafı məsələsi strateji prioritetlərdən birinə çevrilmişdir. Sovet hakimiyyətinin qurulmasından sonra bu sahədə ciddi islahatlar aparıldı və genişmiqyaslı savadsızlığın ləğvi, təhsilin dövlət nəzarətinə keçməsi, vahid məktəb sisteminin yaradılması, eləcə də müəllim hazırlığı işinə xüsusi önəm verilməsi təhsil siyasətinin əsas istiqamətlərini təşkil etdi. Lakin bu inkişaf prosesi, eyni zamanda ideoloji çərçivələr daxilində həyata keçirilirdi. Təhsil vasitəsilə sovet vətəndaşı yetişdirmək, sinfi şüur formalaşdırmaq və siyasi loyallığı təmin etmək məqsədi daşıyan bu model pedaqoji sahəyə də təsirsiz ötüşmədi.

Bununla belə, həmin dövr pedaqogika elminin inkişafı baxımından da mühüm mərhələ sayılır. Pedaqoji mətbuat, xüsusilə 1924-cü ildən nəşrə başlayan “Azərbaycan məktəbi” jurnalı, yalnız ideoloji vasitə kimi deyil, həm də elmi-nəzəri fikir mübadiləsi platforması kimi fəaliyyət göstərərək pedaqoji fikrin təşəkkülündə müstəsna rol oynadı. Jurnal səhifələrində dövrün tanınmış alimləri – Əhməd Seyidov, Mehdi Mehdizadə, Mərdan Muradxanov və başqaları pedaqoji nəzəriyyə və təcrübənin müxtəlif aspektlərinə toxunaraq Azərbaycanın milli təhsil sisteminin elmi əsaslarla formalaşmasına töhfə verdilər.

**Problemin qoyuluşu**

“Azərbaycan məktəbi” jurnalı Azərbaycan pedaqoji fikrinin inkişafında və təhsil sisteminin formalaşmasında mühüm rol oynamışdır. Jurnalın fəaliyyətinin, pedaqoji ideyaların formalaşmasında və inkişafında oynadığı rolu əhatəli şəkildə təhlil edən, elmi-nəzəri əhəmiyyətini, xüsusən də müasir dövrdəki mövqeyini müəyyənləşdirən sistemli və fundamental tədqiqatlara ehtiyac duyulur.

Əsas tədqiqat problemi “Azərbaycan məktəbi” jurnalının nəşr olunduğu dövrdən bu günə qədər Azərbaycan pedaqoji fikir tarixinin inkişafında və milli təhsil sisteminin təkmilləşdirilməsində oynadığı rolu və əhəmiyyətini, eləcə də onun məzmun təhlilini aparmaqla gələcək inkişaf perspektivlərini müəyyənləşdirməkdir.

Əsas problemdən çıxış edərək, tədqiqat aşağıdakı suallara cavab axtarır:

- “Azərbaycan məktəbi” jurnalı hansı dövrlərdə Azərbaycan pedaqoji fikrinin əsas istiqamətlərini müəyyən etmişdir?
- Jurnalın səhifələrində nəşr olunan məqalələr təhsilin hansı aktual problemlərini əks etdirmiş və onların həllinə necə töhfə vermişdir?
- Müasir dövrdə jurnalın elmi-nəzəri, təhsil sahəsindəki yenilikləri tədqiq və təbliğ etmək funksiyası hansı səviyyədədir?

**Tədqiqat metodları**

Məqalədə qoyulmuş problemlərin həlli və tədqiqat suallarına cavab tapılması üçün aşağıdakı keyfiyyət və kəmiyyət metodlarının sintezindən istifadə edilmişdir:

- **Tarixi təhlil.** Nəşrə başladığı dövrdən jurnalın fəaliyyəti xronoloji ardıcıllıqla öyrənilmiş, müxtəlif tarixi mərhələlərdəki pedaqoji ideyalar, mövzu və müəllif dəyişmələri müəyyənləşdirilərək aşkarlanmışdır.
- **Məzmun təhlili.** Jurnalın seçilmiş dövrlərdəki buraxılışlarında məqalələr mövzu, problem, yanaşma və müəllif heyəti baxımından sistemli şəkildə təhlil edilmişdir (Bu metod, pedaqoji fikrin əsas axınlarını və aktual problemləri müəyyən etməyə imkan verir).
- **Müqayisəli təhlil.** "Azərbaycan məktəbi" jurnalının fəaliyyəti və məzmununun digər yerli və xarici pedaqoji nəşrlərlə müqayisəli təhlili həyata keçirilmiş, onun spesifik xüsusiyyətləri və beynəlxalq pedaqoji fikirlə inteqrasiya səviyyəsi müəyyənləşdirilmişdir.
- **Sənədlərin öyrənilməsi.** Jurnalın redaksiya heyətinin sənədləri, təhsil nazirliyinin qərarları və məqalələrdə istinad edilən ədəbiyyat dərindən araşdırılmışdır.

Bu metodların tətbiqi "Azərbaycan məktəbi" jurnalının Azərbaycan təhsil tarixindəki roluna dair hərtərəfli və obyektiv bir mənzərə əldə etmək məqsədi daşıyır.

## Əsas hissə / Main part

**Pedaqoji jurnalistikanın inkişaf tarixi**

"Azərbaycan məktəbi" jurnalı işıq üzü görmüş bir çox pedaqoji jurnallarımız kimi pedaqoji fikrin inkişafına müəyyən təsirlər göstərmişdir. İlk pedaqoji jurnallarımız "Dəbistan" (1906–1907), "Rəhbər" (1906–1907), "Məktəb"(1911–1920) XX əsrin əvvəllərində fəaliyyətə başlamışdır. Azərbaycanda pedaqoji fikrin formalaşmasına aparan yolun başlanğıcı XIX əsrə təsadüf etsə də, A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, F.Köçərli, N.Nərimanov, C.Məmmədquluzadə kimi mütəfəkkirlərimizin bu yolda ardıcıl səylərinə baxmayaraq, həmin dövrdə elmi-pedaqoji jurnal nəşrinə icazə verilməmişdir. Ehtimal olunur ki, rus mədəniyyətinə bələd olan maarifçilərimiz XIX əsrdə Rusiyada nəşr edilən "Uchitel" (1864–1870), "Pedagogicheskiy sbornik" (1864), "Yasnaya Polyana" (1861–1862) və digər pedaqoji jurnallarda dərc edilən təlim-tərbiyə məsələlərinə dair fikirlərlə tanış olmuşlar. Azərbaycan maarifçiləri, xüsusilə K.D.Uşinskinin pedaqoji irsinə daha çox diqqət yetirmiş, S.M.Qənizadə, A.O.Çernyayevski, R.Əfəndiyev, F.Köçərli, N.Nərimanov

görkəmli pedaqoqun irsindən, onun dərsliklərindən və ideyalarından geniş şəkildə faydalanmışlar. 1907-ci ildə nəşr olunan müəllim və tələbələrin həyatına, məktəb ideyalarının təbliğinə həsr edilmiş “Shkola i zhizn” (“Məktəb və həyat”) jurnalı da pedaqoji fikrin və xalqın maarifçiliyinin inkişafında mühüm rol oynamışdır [“Azərbaycan məktəbi”, 1986]. 1920-ci ildən sonra Azərbaycanda yaranan pedaqoji mətbuatın qarşısında yeni yaranmış ictimai-siyasi şəraitin tələblərinə xidmət məqsədi qoyulmuşdur. “Xalq maarifi” (1920), “Maarif və mədəniyyət” (1923), “Maarif işçisi” (1924), “Xalq müəllimi” (1924) jurnalları pedaqoji mətbu orqan kimi bu sahədə işlər görmüşlər. Lakin həmin jurnalların bir qismi dövrün çətin şəraitinə və zamanın tələbinə tab gətirə bilmədiyi üçün nəşri dayandırılmış, bəziləri isə, fəaliyyət istiqamətlərini dəyişdirmişdir. Bununla belə, pedaqoji mətbuatın zəruriliyi gündəmdən düşməmiş və nəticədə, “Azərbaycan məktəbi” jurnalının ilk nömrəsi “Yeni məktəb” adı ilə 1924-cü ildə nəşrə başlamış və 1930-cu ilə qədər fəaliyyət göstərmişdir. “Yeni məktəb” jurnalı ilk nömrəsində öz məqsədini belə bəyan etmişdir: “Yeni məktəb”də bizim bütün maarif ocaqlarının, ali və ibtidai məktəblərimizin bütün həyatı əks edilməlidir, məcmuə hər bir pedaqoqun yaxın yardımçısı olmalıdır”. “Yeni məktəb” “Bir yandan böyük mürəbbiləri, mütəxəssis müəllimləri tanımaq, bir yandan da tərbiyə tariximizdə böyük işlər görən, ciddən çalışmış, yeni pedaqoq və müəllimlərin çalışma üsullarını öyrənmək, onların yaratdıqları yenilikləri göstərmək və onların zəhmətini geniş müəllimlik kütləmizə örnək olaraq təqdim edə bilmək üçündür” [Quliyev, M., 1924].

1930–1941-ci illərdə “Yeni məktəb” jurnalını əvəz edən “Müəllimə kömək” nəşri pedaqoji fikrin inkişafına mühüm töhfələr verdi. İki illik fasilədən sonra isə “Azərbaycan məktəbi” jurnalı oxucularının görüşünə gəldi və 1943-cü ildən fəaliyyətə başlayaraq bu gün də öz işini davam etdirir. Jurnal sonrakı illərdə də öz funksiyasını yüksək peşəkarlıqla yerinə yetirərək müəllimlərə nəzəri, metodik və praktik cəhətdən faydalı materiallar təqdim etmişdir. “Azərbaycan məktəbi” öz sələfləri ilə müqayisədə daha çox inkişaf edərək pedaqoji biliklərin, tədqiqatların və elmi diskussiyaların aparıldığı əsas mərkəzə çevrilmişdir. Təsadüfi deyildir ki, “Uchitelskaya qazeta” nəşrində belə qeyd edilirdi: “Azərbaycan məktəbi” jurnalı pedaqoji nəşrlər sırasında layiqli yer tutur. Eləcə də “Narodnoye obrazovaniye” yazırdı ki, “Azərbaycan məktəbi” şərəfli yol keçmişdir. Mərkəzi mətbu orqanlarında müxtəlif illərdə “Azərbaycan məktəbi”nin səhifələrində dərc olunan materiallar haqqında dəfələrlə müsbət fikirlər qeyd edilmişdir. Azərbaycan maarifinin, təlimin problemlərini əks etdirmək, onların həlli üçün böyük pedaqoq-alimlərin elm və maarifçi ideyalarını Azərbaycan pedaqoji ictimaiyyətinə çatdırmaq kimi şərəfli missiya məhz “Azərbaycan məktəbi” jurnalına nəsib olmuşdur. Akad. M.İbrahimov “Azərbaycan məktəbi” jurnalını

"idrak və ədəb çırağı", prof. Z.Qaralov "Azərbaycan maarifinin güzgüsü", prof. N.Kazımov "məktəb və xalq maarifinin inkişafını işıqlandıran bir məşəl" adlandırmışdır [Rüstəmov, F., 2016].

"Azərbaycan məktəbi"nin sələfləri hesab edilən "Yeni məktəb" və "Müəllimə kömək" jurnalları məzmun və mahiyyət etibarilə elmi-pedaqoji jurnallar olmuş, hər iki jurnal Azərbaycan müəllimlərinə xidmət edən xüsusi pedaqoji mətbu orqan kimi fəaliyyət göstərmişlər. Bu jurnallarda pedaqoji fikir tariximizin inkişaf mərhələlərinə, Azərbaycanda pedaqoji düşüncənin, məktəb və təhsilin inkişaf tarixinə, klassik, dünya və mütərəqqi rus pedaqoji irsinin təbliğinə geniş yer verilmişdir.

Jurnalda bu istiqamətlərdə çap olunan məqalələr klassik pedaqoji irsin səciyyəvi əhəmiyyət kəsb edən nümunələri pedaqogika sahəsində ilk addımlar atan tədqiqatçıların yetişməsinə yardımçı olmuşdur. Belə məqalələrin dərc edilməsi ilə "Azərbaycan məktəbi" jurnalı Azərbaycan pedaqoji fikrinin mərkəzinə, pedaqogika sahəsində qabaqcıl ideyaların təbliğatçısına çevrilmişdir. Beləliklə, bu aspektdə müxtəlif sahələri əhatə edən məqalələr pedaqoji fikrin yeni elmi materiallarını aşkara çıxarır, gənc tədqiqatçıların istinad etdiyi etibarlı mənbələr kimi tanınırdı. Jurnalın səkkiz əlavəsində Azərbaycan pedaqoji fikrinə dair elə məqalələr toplanmışdır ki, onlar nəinki bu gün, eyni zamanda gələcək zaman üçün də son dərəcə əhəmiyyətlidir. Bu məqalələrdə tərbiyə prosesinə kompleks yanaşma, təlim-tərbiyə metodlarının həyatın tələblərinə uyğunlaşdırılması kimi aktual məsələlər öz əksini tapmışdır. Azərbaycanın təcrübəli pedaqoqlarının yaxından iştirakı ilə jurnalın elmi-nəzəri səviyyəsi ildən-ilə yüksəlmiş, ən qabaqcıl təhsil işçiləri onun ətrafında toplanmışdır [Məmmədova, E., 2022].

Qeyd etmək olar ki, "Azərbaycan məktəbi" jurnalı nəşr olunana qədər Azərbaycan xalqının pedaqoji fikir tarixinin öyrənilməsinə çox az diqqət yetirilmişdir. Bu problemin tədqiqinə həsr olunmuş ayrı-ayrı işlərdə, əsasən, N.Gəncəvi, M.Füzuli, M.F.Axundzadə, H.Zərdabi, S.Ə.Şirvani, M.Ə.Sabir və digər mütəfəkkirlərin pedaqoji ideya və konsepsiyalarının araşdırılması yer alır. "Azərbaycan məktəbi" jurnalının materialları əsasında aparılmış bu tədqiqatlar, görkəmli maarifçilərin tərbiyə, təhsil və öyrənmə ilə bağlı fikirlərini sistemləşdirməyə yönəlmiş ilk cəhd kimi qiymətləndirilə bilər. Şübhəsiz ki, görkəmli alimlərimiz Azərbaycanın pedaqogika tarixi və pedaqoji fikrinin öyrənilməsinə, nəhayət pedaqogika elminin milli müstəvidə inkişafına mühüm töhfələr vermişlər [Seyidov, Ə., 1967].

**Dövrünün görkəmli pedaqoq alimləri və onların töhfələri**

Professor Ə.Seyidov, akad. M.Mehdizadə, prof. M. Muradxanov və digər alimlərin əsərləri böyük elmi dəyərə malikdir. Onların elmi işləri pedaqoji elmin inkişafına güclü təsir göstərmiş və məktəb təcrübəsini zənginləşdirmişdir.

1930-cu ilə qədər Azərbaycanda pedaqoji elmlər üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlayan müəssisə yox idi. 1931-ci ildə, ilk dəfə pedaqogika üzrə aspirantlar hazırlanmağa başlandı. Akad. M.Mehdizadə və prof. Ə.Seyidov da pedaqogika üzrə ilk aspirantlar sırasında yer almış, həmin dövrlərdə “Azərbaycan məktəbi” ilə müntəzəm əlaqə saxlamışlar. Maarif və pedaqoji fikrin inkişafına dair dissertasiyaların yazılması da bu dövrə təsadüf edir [Məmmədova, E., 2024].

30-cu illərin əvvəllərində Azərbaycanın aparıcı pedaqoq-alimləri bu məcmuədə ardıcıl çıxışlar edərək, Azərbaycan pedaqoji fikrinin yeni istiqamətdə inkişafına xidmət edən məqalələr yazır, jurnalın pedaqoji profilli olmasını təmin edirlər. Bu məqalələr vasitəsilə müəlliflər müəllimlərin təhsil haqqında təsəvvürlərini genişləndirir, həmçinin təlimin aktiv metodlarının tətbiq mexanizmlərini izah edir, müəllimlərin pedaqoji-psixoloji hazırlığının təkmilləşdirilməsinə, onların yaradıcılıq imkanlarının artırılmasına kömək edirdilər. Məlumdur ki,  XX əsrin ortalarına yaxın dövrdə pedaqoji mətbuat Azərbaycanda da təhsil sisteminin təkmilləşdirilməsinə müsbət təsir göstərən təsirli amillərdən biri olmuşdur.

İlk dəfə “Azərbaycan məktəbi”ndə pedaqoji fikrimizin öyrənilməsinə təşəbbüs göstərildi və bunlar da gələcək tədqiqatlar və araşdırmalar üçün zəmin hazırladı.

**Əhməd Seyidov** Azərbaycanın ilk pedaqoji elmlər namizədi, Zaqafqaziyanın ilk pedaqoji elmlər doktorudur. Onun milli pedaqoji fikrin tədqiqinə dair araşdırmaları bu istiqamətdə yeni dissertasiyaların müdafiəsinə yol açdı. Ə.Seyidovun “Abbasqulu ağa Bakıxanovun pedaqoji görüşləri” adlı namizədlik, “XIX əsrdə Azərbaycanda pedaqoji fikrin əsas nümayəndələri” mövzusunda doktorluq dissertasiyasında Azərbaycan mütəfəkkirlərindən A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, S.Ə.Şirvani, H.Zərdabi, M.Füzuli, F.B.Köçərli, M.Ə.Sabir, C.Məmmədquluzadə haqqında mötəbər tədqiqatlara dair məqalələri də məhz bu jurnalda dərc olunmuşdur. Ə.Seyidov yaradıcılığının ilk illərində Azərbaycan pedaqoji fikir tarixinin tədqiqində görkəmli nəzəriyyəçi kimi ən mürəkkəb tarixi-pedaqoji problemlər haqqında ümumiləşdirici fikirlər söyləmiş, Azərbaycan pedaqoji fikrinin keçmiş SSRİ miqyasında nüfuz qazanmasına əsas vermiş və onun təbliğinə səylə çalışmışdır [Əhmədov, H., 1988].

1930-cu illərdə “Azərbaycan məktəbi” jurnalı ilə 1920-ci ilə qədər maarifçilik yolunu keçmiş ziyalılarla (A.Şaiq, S.M.Qənizadə) yanaşı, yeni qüvvələr (M.Quliyev, P.Qasımov, A.O.Makovelski, B.B.Komarovski, M.Rəhimli, A.Hacızadə, N.M.Maqarik, S.Xəlilov, V.Mustafayev, A.Hüseynov, F.Qasımzadə), sonrakı dövrlərdə tanınmış istedadlı gənclər (A.Y.Seyidov, M.M.Mehdizadə, M.Muradxanov və başqaları) əməkdaşlıq etmişlər. Ümumiyyətlə, bu ziyalılar pedaqoji elmlərin əsas daşıyıcısı kimi jurnalın əsas müəlliflərindən olmuşlar. Pedaqoji elmlərlə əlaqədar olan tədqiqatların nəticələri, əsasən, bu jurnalda çap

edilirdi [Rüstəmov, F., 2016].

"Azərbaycan məktəbi"ndə çap olunan belə məqalələrdə Azərbaycan pedaqoji fikrinin inkişaf yoluna nəzər salan prof. Ə.Seyidov qeyd edirdi ki, Nizamidən başlayaraq C.Məmmədquluzadəyə, Sabirə qədər olan dövrə aid pedaqoji fikirlərin dərindən öyrənilməsi işinə XX əsrin 20-ci illərindən sonra başlanmışdır. Müəllif onu da əlavə edirdi ki, Azərbaycanın pedaqoji fikir tarixini, mütərəqqi və maarifpərvər şəxslərin təlim-tərbiyə haqqındakı görüşlərini öyrənmək pedaqoji elmimizin qarşısında duran mühüm vəzifələrdəndir.

Qeyd etmək lazımdır ki, Azərbaycan pedaqoji fikrinin inkişaf tarixində özünəməxsus yeri və mühüm xidmətləri olan professor Ə.Seyidovun elmi-pedaqoji fikirlərinin təbliğində "Azərbaycan məktəbi" jurnalı əsas pedaqoji orqanlardan biri kimi çıxış etmişdir. Onun araşdırmaları 40 il ərzində məhz bu jurnalda çap olunmuşdur.

Azərbaycan pedaqoji elminin inkişafında mühüm rol oynamış görkəmli alim, pedaqoji elmlər doktoru və əməkdar elm xadimi Əhməd Yusif oğlu Seyidov (1882–1977) 1930-cu ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (ADPİ) pedaqogika kafedrasında çalışmış və 40 ildən artıq müddətdə bu kafedraya rəhbərlik etmişdir. Ə.Seyidov, 1939-cu ildə "Abbasqulu ağa Bakıxanovun pedaqoji görüşləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, Azərbaycanın pedaqoji fikir tarixində ilk mükəmməl elmi tədqiqat işini təqdim etmişdir [Rüstəmov, F., 1998].

**Pedaqoji ideyaları və elmi fəaliyyəti:**

- ***Milli pedaqoji irsin tədqiqi.*** Ə.Seyidov Azərbaycan maarifçiləri və mütəfəkkirləri — A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, S.Ə.Şirvani, H.Zərdabi, M.Füzuli, F.Köçərli, M.Ə.Sabir, C.Məmmədquluzadə və başqalarının pedaqoji görüşlərini araşdıraraq, milli-mənəvi dəyərlərin təhsildə əhəmiyyətini vurğulamışdır və əsərləri ilk dəfə "Azərbaycan məktəbi" jurnalında dərc edilmişdir.
- ***Pedaqogika tarixi və nəzəriyyəsi.*** O, pedaqogikanın tarixi, nəzəri aspektlərini tədqiq etmiş, bu sahədə 100-dən artıq əsər və məqalə yazmışdır. Onun "Pedaqogika tarixi" dərsliyi, Avropa, Qərb, Şərq və Rusiya pedaqoji fikir tarixini əhatə etməklə yanaşı, Azərbaycan məktəb və pedaqoji fikir tarixini də geniş şəkildə təqdim edir.
- ***Elmi kadrların yetişdirilməsi.*** Ə.Seyidov, elmi rəhbər kimi 100-dən artıq elmlər namizədi və doktorunun yetişməsində mühüm rol oynamışdır. Onun yetirmələri sırasında akademik Hüseyn Əhmədov və professor, əməkdar elm xadimi Nurəddin Kazımov da vardır.
- ***Pedaqoji fikrin yayılması.*** Ə.Seyidovun elmi-pedaqoji fikirlərinin təbliğində "Azərbaycan məktəbi" jurnalı mərkəzi yerlərdən birini tutur. Onun ən yaxşı

araşdırmaları məhz bu jurnalda çap olunmuşdur.

**Əsas əsərləri.** “Pedaqogika tarixi” dərsliyində Avropa, Qərb, Şərq və Rusiya pedaqoji fikir tarixi ilə yanaşı, Azərbaycan məktəb və pedaqoji fikir tarixi də geniş şəkildə təqdim olunur.

Ə.Seyidovun namizədlik dissertasiyası olan “Abbasqulu ağa Bakıxanovun pedaqoji görüşləri” əsəri Azərbaycanın pedaqoji fikir tarixində ilk mükəmməl elmi tədqiqat işi kimi qiymətləndirilir.

Əhməd Seyidovun tədqiqat obyekti kimi Abbasqulu ağa Bakıxanovu seçməsi heç də təsadüfi deyildi. XIX əsrin çox mürəkkəb ictimai-siyasi şəraitində A.Bakıxanov Qərb və Şərq mədəniyyətinin mahiyyətinə bələd olan, yeniliklərə açıq ziyalı kimi tanınırdı. O, geniş mütaliəsi sayəsində dərin elmi-fəlsəfi biliklərə yiyələnmiş və bu biliklərə dərindən bələd olmuş mütəfəkkirlərdən idi. O dövr üçün çətin hesab edilən problemləri A.Bakıxanov bir neçə dil bilməsi sayəsində xalqının mənafeyi nöqteyi-nəzərindən izah etməyə təşəbbüs göstərmişdi. Gənclik illərində kitablardan oxuduğu Avropa ilə real Avropa arasındakı fərqi görür və daha düzgün nəticələr çıxara bilirdi. Müasirləri M.F.Axundov və Mirzə Kazımbəydən fərqli olaraq o, qurtuluş yolunu islam dinində, müsəlmanlıqda, ümumiyyətlə, Şərq mədəniyyətində görürdü. A.Bakıxanov öz soykökündən heç vaxt ayrı düşmək niyyətində olmamışdır. Bütün fəaliyyəti təsdiq edir ki, o, Avropa əxlaqını, Avropa mədəniyyətini olduğu kimi qəbul etmirdi. Filosof kimi yaxşı anlayırdı ki, yeni dövrdə Avropada meydana çıxan əxlaqi dəyərlərdə, insan və qadın azadlığına, sevgi-məhəbbət münasibətlərində və ümumilikdə, insanların həyat tərzində təbiilikdən çox sünilik üstünlük təşkil edir. Bütün bunlar onun düşüncəsində belə bir qənaət formalaşdırırdı: “Şərq mədəniyyətinin dəyərləri itirilməməli, əksinə, yenidən dirçəldilməli, islam qayda-qanunları öz layiqli yerini tutmalıdır”. Onun fikrincə, islam dünyası yalnız dini deyil, dünyəvi elmləri də əxz etməklə əvvəlki əzəmətini bərpa edə bilər. Böyük filosof əmin idi ki, Qərb mədəniyyətini olduğu kimi islam ölkələrinə tətbiq etmək mümkün deyil, çünki bu mədəniyyətin kökü və mahiyyəti İslam-Şərq mədəniyyəti ilə uzlaşmır. Lakin bu fikir heç də Bakıxanovun Qərb mədəniyyətinin müsbət cəhətlərini görmədiyi anlamına gəlmir. O, məsələyə daha geniş müstəvidə yanaşır, milli özünəməxsusluğu unutmadan müsəlmanları Qərb mədəniyyətinə daha həssas olmağa çağırırdı.

**Mehdi Mehdizadə** Azərbaycan təhsil sisteminin inkişafında və pedaqoji fikrin formalaşmasında mühüm rol oynamışdır. Onun didaktik konsepsiyası, dərs nəzəriyyəsi və təlim-tərbiyə məsələlərinə dair fikirləri “Azərbaycan məktəbi” jurnalında geniş şəkildə əks olunmuşdur. Mehdizadə təhsil prosesində şəxsiyyətin inkişafını, təhsilin fasiləsizliyini və milli dəyərlərin qorunmasını ön planda tutmuşdur. Onun rəhbərliyi və fəaliyyəti dövründə jurnal pedaqoji yeniliklərin və

elmi-pedaqoji fikirlərin yayılmasında əhəmiyyətli rol oynamışdır.

Akademik Mehdi Mehdizadə (1903–1984) Azərbaycan pedaqogikasının inkişafında xidmətləri olan görkəmli alim, pedaqoji elmlər doktoru və ictimai-siyasi xadimdir. Onun pedaqoji ideyaları və elmi fəaliyyəti təhsilin təşkili, təlim-tərbiyə prosesi və pedaqoji fikrin inkişafı sahələrində dərin izlər buraxmışdır.

**Pedaqoji ideyaları və elmi fəaliyyəti:**

- **Təlim və tərbiyə prosesi.** M.Mehdizadə təlim-tərbiyə prosesinin elmi əsaslarla qurulmasının vacibliyini vurğulayırdı. O, təhsilin məzmununun və təlim metodlarının təkmilləşdirilməsi, dərs prosesinin səmərəliliyinin artırılması və məktəbli şəxsiyyətinin hərtərəfli inkişafı məsələlərinə xüsusi diqqət yetirmişdir. Bu sahədəki araşdırmaları pedaqoji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.
- **Milli pedaqoji irsin tədqiqi.** M.Mehdizadə Azərbaycan pedaqoji fikir tarixinin öyrənilməsinə böyük önəm vermiş, milli-mənəvi dəyərlərin təhsildə əhəmiyyətini vurğulamış, müstəqil olaraq Şərq pedaqogikasına tez-tez müraciət etmiş və bu sahədə dəyərli tədqiqatlar aparmışdır.
- **Elmi kadrların yetişdirilməsi.** M.Mehdizadə elmi rəhbər kimi bir çox elmlər namizədi və doktorunun yetişməsində mühüm rol oynamışdır. Onun yetirmələri sırasında tanınmış alimlər və pedaqoqlar yer alır.
- **Təhsil idarəçiliyi və islahatlar.** Görkəmli alim təhsil idarəçiliyində inzibati-amirlik üslubunun əleyhinə çıxaraq, elmi-metodik əsaslarla idarəetməyə üstünlük verirdi. Onun bu istiqamətdəki fikirləri və təklifləri təhsil sistemində islahatların həyata keçirilməsində mühüm rol oynamışdır.

**Əsas əsərləri.** “Pedaqogika” (1941) dərsliyi pedaqogikanın əsasları və təlim-tərbiyə prosesinin təşkili məsələlərini əhatə edir.

“Məktəb və məktəbli şəxsiyyətinin hərtərəfli inkişafı” adlı əsərində məktəblilərin şəxsiyyətinin inkişafı və təlim-tərbiyə prosesinin səmərəliliyi məsələləri araşdırılır.

“Azərbaycanda məktəb təhsilinin və pedaqogikanın inkişafı” kitabında Azərbaycan təhsil sisteminin inkişaf mərhələləri və pedaqoji fikrin formalaşması məsələləri təhlil olunur.

İdarəetmə elmi yetişməkdə olan nəslin təlim-tərbiyəsi sahəsində kəmiyyət və keyfiyyətcə əsaslı irəliləyişləri, bütün təlim-tərbiyə müəssisələrinə, o cümlədən məktəbəqədər və məktəbdənkənar uşaq tərbiyə ocaqlarına rəhbərliyi və onların idarəolunmasının təkmilləşdirilməsini tələb edir. Müasir mərhələdə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi strategiyası elmi-texniki tərəqqi əsasında istehsalın təkmilləşdirilməsini zəruriləşdirir. Çünki iqtisadiyyatın inkişafına, onun səmərəliliyinin yüksəlməsinə, bilavasitə kadrların savad səviyyəsi təsir göstərir.

Pedaqoji ədəbiyyatda idarəetməyə bir sıra təriflər verilmişdir. 70-ci illərdə “Sovetskaya pedaqogika” jurnalında deyilirdi: “Dövləti idarəetmə idarəedici-sərəncamverici bütün qanuni dövlət orqanlarının fəaliyyətidir” yaxud “Dövlət idarə orqanlarının təsərrüfat və ictimai-mədəni quruculuq işlərinə rəhbərin fəaliyyətinə icraedici və sərəncamverici fəaliyyət deyilir. Daha münasib tərifdə isə: “İdarəetmə-qarşıya qoyulmuş məqsədə insanların birgə fəaliyyəti prosesində nail olmağı təşkil edən təşkilati funksiyaların həyata keçirilməsidir” və ya “İdarəetmə-məqsədəyönəldilmiş təşkiledici fəaliyyətdir, yəni insanların birgə əmək və birgə yaşayışlarını təmin edən ənənələrin yaradılması və ya dəyişdirilməsi üzrə fəaliyyətdir” [Mehdizadə, M., 1976].

İdarəetməyə dair digər təriflər də irəli sürülürdü. Azərbaycanın görkəmli pedaqoqu, akad. M.Mehdizadə əldə olan materialları təhlil və şərh etdikdən sonra idarəetməyə dair bir sıra təkliflər verməyi də düzgün hesab etmişdir.

Görkəmli sovet alimlərinin idarəetməyə dair məqalələrində idarəetmənin müxtəlif aspektlərinə toxunulmuşdur. Akademik M.Mehdizadə isə birbaşa məsələnin mahiyyətindən başlamış və onu zamanın ruhundan pedaqogika elminin əsasını təşkil edən məsələlərlə bağlı izah etmişdir. Akademik M.Mehdizadəyə görə, təlim metodu müəllim və şagirdlərin qarşılıqlı fəaliyyət qaydaları sistemidir və müxtəlif vasitələrdən istifadə etməklə təlim prosesində didaktik vəzifələrin həllinə xidmət edir.

Müəllif onu da etiraf etmişdir ki, təlim metoduna verilən bu təriflər, ilk növbədə, M.N.Skatkinə və professor İ.Y.Lernerə mənsubdur.

Bu problemlərin içərisində elmi idarəetmə metodu daha aktual görünür. Təsadüfi deyildir ki, akad. M.Mehdizadənin idarəetməyə dair “Sovetskaya pedaqogika” jurnalında çap olunan aktual məzmunlu məqaləsi digər respublikalarda rezonans doğurmuşdur. Müttəfiq respublikalar arasındakı qarşılıqlı əlaqələr imkan verirdi ki, pedaqoqlarımız öz tədqiqatlarının nəticələrini nəinki kitab və məqalələr şəklində, habelə mühazirə və məruzələr vasitəsilə geniş təbliğ etsinlər. Onların bir çoxları öz axtarışlarının nəticələrinə dair müxtəlif şəhərlərdə keçirilən elmi sessiya və konfranslarda elmi nailiyyətlərini yazılı şəkildə təqdim etmişlər. Məsələn, bu məqsədlə M.Mehdizadə Moskvada, Ə.Seyidov Kiyevdə, Muradxanov İrəvanda aktual pedaqoji mövzular haqqında məruzələr oxumuşlar.

Maarif sistemində elmi idarəetmə metodunun qoyuluşunda müəllimin və digər maarif işçilərinin elmi-pedaqoji səviyyəsinin yüksəldilməsi, tədqiqat işlərinin nəticələrinin təbliği və pedaqoji fikrin inkişafında qarşıya çıxan problemlərin yeni yolları axtarılır, idarəetmə metodları ilə aktuallaşdırılması, elmi dərəcələrə yüksəldilməsi meydana çıxır. Bütün bunlar isə, Azərbaycanda pedaqoji elmin geniş vüsət almasına, onun inkişafına xüsusi qayğı və diqqətin göstərilməsinə

imkan verirdi. Bütün bunlar, əsasən, idarəetmənin səmərəli təşkili ilə bağlı və ondan asılı şəkildə formalaşırdı. Maarif sistemində elmi idarəetməyə dair bir sıra təriflər verilmişdir. Aydın məsələdir ki, təhsil sisteminin, daha geniş mənada isə bütünlükdə, maarifin intensiv inkişafı və onun köklü şəkildə yaxşılaşdırılması, ilk növbədə, idarəetmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədardır. Hər şeydən əvvəl müasir elmdə idarəetmənin üç əsas növü xatırlananda, ilk növbədə, insanlar birliyinin idarə olunmasının əsasını təşkil edən ictimai idarəetmə yada düşür. Qeyd etməliyik ki, idarəetmənin bu növünə dair pedaqogikada müxtəlif yanaşmalar mövcud olmuş və hər bir yanaşmada özünəməxsus uyğunluq və qanunauyğunluqlar müşahidə edilmişdir. Məsələn, idarəetməyə dair aşağıdakı fərqli fikirlər səsləndirilib: "Dövləti idarəetməyə sərəncamverici fəaliyyət deyilir". Başqa sözlə: "İdarəetmə qarşıya qoyulmuş məqsədə insanların birgə fəaliyyəti prosesində nail olmasını təmin edən təşkilati funksiyaların həyata keçirilməsidir". Həmçinin belə bir yanaşma da mövcuddur: "İdarəetmə məqsədəyönəldilmiş təşkiledici fəaliyyətdir, yəni insanların birgə əmək və birgə yaşayışlarını təmin edən əlaqələrin yaradıcısı və ya dəyişdirilməsi üzrə fəaliyyətidir" ["Azərbaycan məktəbi"., 1976].

**Mərdan Muradxanov** (1909–1979) Azərbaycan pedaqogikasının inkişafında mühüm rol oynamış görkəmli alim, pedaqoji elmlər doktoru və Əməkdar elm xadimidir. Onun pedaqoji ideyaları və elmi fəaliyyəti təhsilin təşkili, təlim-tərbiyə prosesi və pedaqoji fikrin inkişafı sahələrində dərin izlər buraxmışdır.

**Pedaqoji ideyaları və elmi fəaliyyəti**

**1. Təlim prinsiplərinin sistemləşdirilməsi:**

Mərdan Muradxanov təlim prosesinin səmərəliliyini artırmaq məqsədilə təlim prinsiplərini sistemləşdirərək aşağıdakı kimi qruplaşdırmışdır:

- əyanilik prinsipi;
- şüurluluq və fəallıq prinsipi;
- sistematiklik prinsipi;
- biliklərin möhkəmləndirilməsi prinsipi;
- münasiblik prinsipi.

Bu prinsiplər M.Mehdizadənin təlim prinsipləri ilə oxşarlıq təşkil etsə də, M.Muradxanov bəzi fərqliliklərə də yer vermişdir. Məsələn, o, biliklərin möhkəmləndirilməsini ayrıca prinsip kimi təqdim etmiş, təlimin tərbiyəvi xarakterini isə prinsip kimi ayrıca qeyd etməmişdir.

**2. Müstəqil öyrənmə bacarıqlarının inkişafı**

M.Muradxanov şagirdlərdə müstəqil öyrənmə bacarıqlarının inkişafını təhsilin əsas məqsədlərindən biri kimi qiymətləndirmişdir. O, şagirdlərdə müşahidə, təhlil və müqayisə aparmaq kimi bacarıqları inkişaf etdirməklə, onların öz üzərlərində

işləmə və biliklərini artırma imkanlarını genişləndirməyi tövsiyə etmişdir.

**3. Pedaqoji ədəbiyyatın inkişafına töhfələri**

M.Muradxanovun redaktorluğu və rəhbərliyi ilə hazırlanan “Pedaqogika” dərs vəsaiti (1964) 30 ildən artıq müddətdə respublikanın ali pedaqoji və orta ixtisas məktəblərində istifadə olunmuşdur.

**Əsas əsərləri**. “A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri” (1965) “Ailədə uşağın əmək tərbiyəsi” (1952), “50 sual – 50 cavab” (1981) adlı əsərlərində M.Muradxanov ailədə tərbiyə, əmək tərbiyəsi və pedaqoji irsin tətbiqi kimi mövzuları əhatə etmişdir.

**“Azərbaycan məktəbi” jurnalı ilə əməkdaşlığı**

Azərbaycan pedaqoji fikir tarixinin araşdırılmasında elə tədqiqatçı alimlər var ki, onların fəaliyyəti çoxcəhətlidir. Belə alimlərdən biri də pedaqoji elmlər doktoru, prof.Mərdan Muradxanovdur. O, respublikamızda pedaqogika elminin əsas yaradıcılarından biri kimi qəbul olunur. Zəngin pedaqoji irsi, ensiklopedik xarakter daşıyan əsərləri, orijinal fikirləri ilə Azərbaycan pedaqoji fikrinin inkişafı tarixində özünəməxsus yer tutan Mərdan Muradxanovun həyatında “Azərbaycan məktəbi” jurnalı xüsusi yer tutur. O, bu jurnaldakı fəaliyyəti ilə şərəfli bir yol keçmişdir. “Azərbaycan məktəbi” jurnalının öz nüfuzunu, səviyyəsini, klassik pedaqoji irsinin qorunmasında, saxlanılmasında və daha da inkişaf etdirilməsində M.Muradxanovun danılmaz xidmətləri vardır [Rüstəmov, F., 1999]. O, özünün çoxsaylı yazıları ilə, ciddi elmi-pedaqoji əsərləri ilə jurnalın pedaqoji mətbuat tarixində öndə gedən jurnallar sırasına, keçmiş SSRİ-də sayılıb-seçilən mətbu orqan olmasına kömək etmişdir. Elmi tədqiqatının əhatə dairəsi geniş olan alim klassik dünya pedaqogikasının, həmçinin müasirlərinin mütərəqqi fikir və ideyalarına laqeyd qalmamış, gərgin və səmərəli əməyi ilə Azərbaycanda pedaqoji fikrin formalaşmasına əhəmiyyətli təsir göstərmiş, pedaqogika elminin inkişafına öz töhfələrini vermişdir. Azərbaycan pedaqoji fikrinin aparıcı simalarından biri olan Mərdan Muradxanlı öz missiyasını ləyaqətlə başa vurmuşdur. Hələ ötən əsrin 40-cı illərində “Nizaminin pedaqoji görüşləri” adlı namizədlik dissertasiyası ilə pedaqoji elmin zirvələrinə doğru addımlamaqda olan Şərq mütəfəkkirlərinin pedaqoji irsini təfəkkür süzgəcindən keçirmiş, bu sahədə tədqiqat aparanların çağırışlarına yeni istiqamət vermişdir. O, Qərb və Şərq pedaqoji fikrinin tədqiqinə ciddi əhəmiyyət vermiş, dərin elmi-pedaqoji araşdırmaları ilə gənclərin bu sahəyə meyillənməsinə maraq oyatmışdır. Görkəmli alim məhsuldar əməyini “Azərbaycan məktəbi” jurnalı ilə sıx bağlayırdı. Bir çox tanınmış alimlər kimi onun da püxtələşməsində, təhsil işçilərinə tanıdılmasında jurnal böyük rol oynamışdır. O, 40-cı illərdən başlayaraq, ardıcıl olaraq jurnalla əməkdaşlıq etmiş, 24 il “Azərbaycan məktəbi” jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Jurnalda mübahisə doğuran məsələlərdə prof. Mərdan Muradxanovun sözü

həmişə həlledici sayılırdı. Onun 1931-ci ildən 1970-ci ilə qədər 468 çap vərəqi həcmində 38 kitabı, 134 jurnalı və 255 qəzet məqaləsi dərc olunmuşdur. Mərdan Muradxanovun ilk məqalələri "Azərbaycan məktəbi" jurnalında ("Müəllimə kömək"də) dərc olunmuşdur. "Məktəb illərində ekskursiya" (1931, №4), "Məktəb illərinin uçotu" (1932, №1), "Yeni tədris kitabları haqqında" (1932, №6-7), "Sinfin komplektləşdirilməsi" (1935, №6-7), "A.S.Makarenkonun pedaqoji sistemində uşaq kollektivi" (1940, №11-12) də bu qəbildəndir. Bu məqalələr böyük alimin nəhəng pedaqoji areala giriş qapısı kimi qiymətləndirilir. 30-cu illərdən başlayaraq pedaqoji mətbuatda çıxış edən M.Muradxanov bir sıra dərsliklərin də (S.Rəhmanla birlikdə "Qızıl bayraq altında" – 1931 və Ə.Hüseynlə birlikdə "Gənc kolxozçu" – 1932) müəllifi olmuşdur. Müasirləri onun kəskin təfəkkürə, güclü hafizəyə və nitq mədəniyyətinə malik olmasının elmi yaradıcılıq diapazonunun daha geniş olması ilə nəticələnməsini qeyd etmişlər.

Nizaminin müdrik fikirlərindən qiymətli pedaqoji nəticələr çıxaran Mərdan Muradxanov dahi şairin fikirlərini ondan VI əsr sonra yaşamış J.J.Russonun "Elm" əsərindəki fikirləri ilə müqayisə edir, Nizaminin qədim yunan elminə bələd olduğunu tutarlı dəlillərlə sübut edirdi. O illərdə hələ Nizami yaradıcılığı ilə yaxından tanış olmayan Azərbaycan oxucuları üçün bu məqalələr çox əhəmiyyətli və aktual idi. "Pedaqoji tariximizdən" rubrikası altında dərc olunan "Nizaminin ağıl və müdriklər haqqında fikirləri" adlı məqaləsi pedaqoji irsimizin inkişafına dair yazılmış ən sanballı məqalələrdən sayılmışdır. Hələ o zaman Nizami əsərlərinin  tərcüməsi çap olunmadığından əsərdən nümunələr prof. Bertelsin redaktorluğu altında farscadan ruscaya edilmiş sətri tərcümələrdən götürülərək Azərbaycan dilinə tərcümə edilmişdir. Ümumiyyətlə, 40 kitab və kitabçanın, monoqrafiyanın, xeyli elmi-pedaqoji, publisistik yazıların müəllifi olan Mərdan Muradxanovun "Azərbaycan məktəbi" ilə yaradıcılıq əlaqəsi onun 1945-ci ildə ordu sıralarından təxris olunduğu vaxtdan başlamışdır. "Nizami Gəncəvinin təhsil haqqındakı fikirləri" adlı məqaləsi "Azərbaycan məktəbi" jurnalının 1945-ci il, 5-ci nömrəsində dərc olunmuşdur. 1941-ci ildə "Nizaminin pedaqoji görüşləri" mövzusunda yazdığı dissertasiyasını 1943-cü il, dekabrın 30-da əsgər palatalarında müdafiə edən Mərdan Muradxanovun bu əsərini şərqşünas Y.E.Bertels, prof.E.A.Tolant, prof. V.V.Komarovski, akad. A.O.Makovelski yüksək qiymətləndirmiş, onu bacarıqlı tədqiqatçı kimi xarakterizə etmişlər.

Prof. M.Muradxanovun pedaqoji fikir və məktəb tarixi haqqında yaratdığı sanballı əsərləri onu məhsuldar alim kimi tanıtmışdır. "Azərbaycan məktəbi" jurnalında "Alimin yolu" adlı məqalədə (1970, №6) deyilirdi: "İşgüzar alim, tələbkar müəllim olan prof. M.Muradxanov həm də fəal ictimaiyyətçidir. O, fasiləsiz olaraq  "Azərbaycan məktəbi" jurnalının redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərmişdir. 30 ildən artıqdır ki, Azərbaycan ali məktəblərində fasiləsiz

pedaqoji mühazirə aparır. O, bu mühazirələri o qədər hərarətli daxili məhəbbət və məntiqi inam hissi ilə oxuyur ki, tələbələr müttəfiq şərəfli tarixi vəzifəsini bütün aydınlığı ilə hiss və dərk edirlər”.

M.Muradxanov, Azərbaycanda A.S.Makarenko irsinin öyrənilməsinə və təbliğinə xüsusi fikir vermişdir. O, Makarenkonun irsinə aid monoqrafik tədqiqat əsəri yazmış, böyük pedaqoji əsərlərin Azərbaycan dilinə tərcüməsində yaxından iştirak etmişdir. M.Muradxanov “A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri” (1965) adlı monoqrafik tədqiqat əsərlərinin müəllifidir. Makarenkonun: “İnsana mümkün qədər çox hörmət etmək, ondan çox da tələb etmək” kimi başlıca müddəası Mərdan müəllimin də pedaqoji prinsipi olmuşdur. O, “Müasir dövrdə müəllimin üç mühüm vəzifəsi haqqında” məqaləsində (1977, №6) göstərdi ki, müəllimlik bu üç mühüm vəzifədən birini öyrətmək və təmin etməkdir.

M.Muradxanovun bu jurnaldakı fəaliyyəti onun pedaqoji ideyalarının geniş auditoriyaya çatdırılmasında mühüm rol oynamışdır.

**“Azərbaycan məktəbi” jurnalının rolu**

Bir əsrə yaxın fəaliyyət göstərdiyi müddətdə “Azərbaycan məktəbi” jurnalı təhsil sistemi işçilərinin yaxın köməkçisi olmuş, təlim-tərbiyə işlərinin təşkilində böyük rol oynamışdır. Jurnal müəllimlərin intellektual mənəvi potensialını fəallaşdırmağa kömək etmiş, onları yaradıcılıq axtarışlarına cəlb etməklə təlim-tərbiyə prosesinin optimallaşdırılmasına, müəllimlərin pedaqoji-psixoloji biliyinin yüksəldilməsinə yardımçı olmuşdur. Jurnal dövri mətbu orqan kimi məktəb həyatında baş verən yeni hadisə və proseslərə dərhal və həssas münasibət bildirmişdir.

“Azərbaycan məktəbi” jurnalı Azərbaycan təhsilinin, məktəb və pedaqoji fikir tarixinin inkişafına əməli töhfə vermiş ən dəyərli dövrü mətbu orqanlarından biri sayılır. Azərbaycan pedaqoji mətbuatının ən uzunömürlü nəşri olan bu jurnal elmi pedaqogikanın, pedaqoji psixologiyanın, fənlərin tədrisi metodikasının formalaşması, inkişafı və təbliği işində mühüm rol oynamışdır. Jurnalda ölkənin məktəb, təhsil və pedaqoji fikir tarixinə dair zəngin materiallar toplanmışdır. Dövrün ictimai-pedaqoji hadisələrini əks etdirən bu jurnal, bir əsrə yaxın fəaliyyəti dövründə XX əsrdə nəşr olunmuş Azərbaycan pedaqoji jurnallarının layiqli davamçısı kimi tanınmış, böyüməkdə olan nəslin təlim-tərbiyəsində mütərəqqi pedaqoji ideyaların təbliğində əvəzsiz rol oynamışdır. Azərbaycanda maarif və pedaqoji fikir tarixini araşdıran mütəxəssislərin mühüm elmi nəticələri, həmçinin müasir təhsilin aktual problemləri məhz bu jurnalda vurğulanmış, pedaqoji jurnalistikanın ölkəmizdəki təsir gücü məhz bu nəşrin nümunəsində öz əksini tapmışdır. Jurnal pedaqoji sahədə fəaliyyət göstərən yaradıcı ziyalılar üçün bir tribuna, yaradıcılıq laboratoriyası funksiyasını yerinə yetirmiş, bu sahənin

bütün istiqamətləri üçün zəruri olan nəcib və faydalı təşəbbüslərin dəstəkçisi olmuşdur. Ziyalılarımız da jurnalın fəaliyyətinə daim həssaslıqla yanaşmış, onun fundamental elmi-pedaqoji biliklərin xəzinəsinə çevrilməsi üçün var gücləri ilə çalışmışlar. Uzun illər ərzində formalaşmış ənənələrə hər zaman sadiq qalmış jurnalda məktəb, təhsil və maarif tarixinə dair zəngin materiallar toplanmışdır.

Odur ki, “Azərbaycan məktəbi”, eyni zamanda Azərbaycanda pedaqoji elmin təşəkkülünün və inkişaf tarixinin ayrılmaz hissəsi kimi qəbul edilmişdir.

## Nəticə / Conclusion

Elmi-pedaqoji jurnalın təşəkkül tarixini araşdırarkən onun Azərbaycanda pedaqoji fikrin formalaşmasında və inkişafında nə qədər mühüm rol oynadığı aydın şəkildə tədqiqatda əks olunur. Hələ XX əsrin 60–70-ci illərindən etibarən “Azərbaycan məktəbi” jurnalı pedaqoji məsələlərə sistemli şəkildə müraciət etmiş, yalnız Azərbaycan klassiklərinin deyil, ümumilikdə, pedaqogika elminin görkəmli nümayəndələrinin bu sahəyə dair dəyərli mülahizələrinə geniş yer vermişdir.

Sovet dövründə pedaqoji fikrin inkişaf mərhələlərini izləmək baxımından da jurnal əvəzsiz mənbə rolunu oynamışdır. “Azərbaycan məktəbi” jurnalının səhifələrində öz ideyaları ilə çıxış edən, maarifçilik ənənələrini davam etdirən müəlliflər məhz həmin dövrün pedaqoji axtarış və nailiyyətlərini sənədləşdirmişlər. Bu baxımdan jurnal, bütöv bir dövrün təhsil tarixini izləmək üçün əhəmiyyətli tədqiqat mənbəyinə çevrilmişdir.

Jurnal fəaliyyəti dövründə mövcud çətinliklərə baxmayaraq, öz dövrünün qəhrəman pedaqoqları kimi adlandırılmağa layiq olan dəyərli Azərbaycan pedaqoqlarının irsini yaşatmış və onların milli pedaqoji fikir tariximizdə əbədi iz qoymasını təmin etmişdir. Bu gün də “Azərbaycan məktəbi” jurnalı öz nüfuzunu qoruyub saxlayan, etibarlı elmi mənbə kimi tədqiqatçılar və pedaqoji ictimaiyyət tərəfindən geniş şəkildə istifadə olunan nəşrlərdəndir. Klassik pedaqoji fikir nümayəndələrinin əsərləri, eləcə də XX əsrdə alim-pedaqoqların dəyərli tədqiqatları məhz bu jurnal vasitəsilə yayılmış və elmi ictimaiyyətə çatdırılmışdır.

“Azərbaycan məktəbi” jurnalının Azərbaycan təhsilinə və elmi fikir tarixinə verdiyi töhfələr zaman-zaman dövlət səviyyəsində də yüksək qiymətləndirilmişdir. Son olaraq, jurnalın təntənəli şəkildə qeyd olunan 100 illik yubileyi münasibətilə Elm və Təhsil Nazirliyi tərəfindən təşkil olunmuş mərasimdə bu nəşr ölkənin ən uzunömürlü pedaqoji jurnalı kimi təqdim edilmiş və Azərbaycan Respublikasının Fəxri Fərmanı ilə təltif olunmuşdur.

**Məqalənin aktuallığı.** Azərbaycan təhsil tarixinin sovet dövrü, xüsusilə

pedaqoji mətbuatın bu tarixdəki rolu indiyə qədər tam şəkildə araşdırılmamış sahələrdən biridir. Təhsil tariximizin bu mərhələsinin hərtərəfli təhlili, müasir pedaqoji problemlərə və islahatlara daha dolğun tarixi kontekst vermək üçün zəruridir. Mövzu müasir dövrdə pedaqoji fikrin keçmişinə nəzər salmaq və bu ənənələri qiymətləndirmək baxımından xüsusi aktuallığa malikdir. Jurnalın təhlili, milli təhsil sisteminin təməl prinsiplərinin haradan gəldiyini anlamağa kömək edir. Keçmiş sovet məkanında milli təhsilin yenidən qurulması prosesində, “Azərbaycan məktəbi” kimi aparıcı nəşrlərin təcrübəsi sovet təhsil sisteminin uğurlarını və nöqsanlarını ayırd etmək üçün dəyərli bir mənbə təşkil edir, bu da müasir kurikulum islahatları üçün strateji əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq “Azərbaycan məktəbi” jurnalının sovet dövründə həm ideoloji alət, həm də pedaqoji elmi fikir platforması kimi ikili funksiyası elmi əsaslarla təhlil olunur. Əvvəlki tədqiqatlar, adətən, jurnalın ya təkcə təbliğat roluna, ya da sırf elmi məzmununa diqqət yetirmişdir. Bu tədqiqat, jurnalın bir tərəfdən sovet rejiminin təhsil siyasətini yeritməsi, digər tərəfdən isə aparıcı azərbaycanlı pedaqoqların cəsarətli elmi-nəzəri fikirlərinin çatdırılması üçün bir körpü rolunu oynaması arasındakı ziddiyyətli dinamikanı ortaya qoyur. Jurnalın ayrı-ayrı müəlliflər və məqalələr üzərindən konkret nümunələrlə pedaqoji təfəkkürə təsiri araşdırılır. Bu nümunəvi təhlil, dövrün ən nüfuzlu pedaqoqlarının – Seyidov, Mehdizadə, Muradxanov və başqalarının – hansı metodoloji və nəzəri problemləri müzakirəyə çıxardığını və bu müzakirələrin milli pedaqoji təcrübənin formalaşmasına necə təsir etdiyini dəqiq şəkildə göstərir.

**Məqalənin praktik əhəmiyyəti.** Tədqiqat nəticələri pedaqoji fikir tarixinin öyrənilməsi, təhsil üzrə metodiki və elmi-nəzəri işlərin hazırlanması zamanı istifadə edilə bilər. Məqalə, xüsusilə Azərbaycanın pedaqoji irsinə aid mənbə materialı təmin edir. Həmçinin bu nəticələr müəllim hazırlığı, kurikulum tərtibatı və pedaqoji təlimlərin tarixə əsaslanan tərtibi baxımından dəyərlidir. Pedaqoji ixtisaslarda dərs deyən müəllimlər və tələbələr üçün materiallar təklif edən bu tədqiqat, müasir müəllim hazırlığı proqramlarına Azərbaycan pedaqoji fikrinin klassik irsini inteqrasiya etməyə imkan verir. Tədqiqatın gəldiyi nəticələr, həmçinin gələcək pedaqoji jurnalların redaksiya siyasətinin və onların milli təhsilə təsir mexanizmlərinin müəyyənləşdirilməsi üçün də praktiki tövsiyələr verə bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Ağayev, Ə., Sadıqov, F. (1990). Pedaqogika: problemlər və mülahizələr. Azərbaycan məktəbi, № 8.
2. Əhmədov, H. (1988). Pedaqogika elminin görkəmli tədqiqatçısı. Azərbaycan məktəbi, № 1.
3. Quliyev, M. (1924). Baş məqalə. Yeni məktəb.
4. Məmmədova, E. (2019). "Azərbaycan məktəbi" jurnalının nəşri tarixindən (1924-1991). Bakı.
5. Məmmədova, E. (2022). "Azərbaycan məktəbi" jurnalının yubileyləri. Bakı.
6. Məmmədova, E. (2024). "Azərbaycan məktəbi": Pedaqoji fikir tarixindən səhifələr", Bakı.
7. Mehdizadə, M. (1976). "Sovetskaya pedagogika", "Azərbaycan məktəbi", № 11.
8. Muradxanov, M. (1977). "Müasir dövrdə müəllimin üç mühüm vəzifəsi haqqında" məqaləsində, № 6.
9. Məruzələr ətrafında qurultay nümayəndələrinin çıxışlarından. (1946) Azərbaycan məktəbi, № 6, s.28.
10. Muradxanov, M.N. (1943). N.Gəncəvinin pedaqoji görüşləri. Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. Bakı, ADU.
11. Rüstəmov, F. (1999). Pedaqogika kafedrasının tarixi: sələflər və xələflər. Bakı.
12. Rüstəmov, F. (1998). Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920–1991). Bakı Universiteti nəşriyyatı, s.486
13. Rüstəmov, F. (2010). Pedaqoji oçerklər: sələflərim və müasirlərim. Bakı: "Elm və təhsil", s.344
14. Rüstəmov, F. (2016). Azərbaycan pedaqogikaşünaslığı. Bakı: "Elm və təhsil", s.888
15. Seyidov, Ə. (1967). Həsən bəy Zərdabinin maarifçilik-pedaqoji fəaliyyəti. Azərbaycan məktəbi, № 12.
16. Seyidov, Ə. (1968). Pedaqogika tarixi. Bakı: "Maarif", s.420
17. Talıbov Y., Ağayev, Ə., Eminov, A., İsayev, İ. (2003). Pedagogika. Bakı, "Maarif", s. 140

# THE DEVELOPMENT HISTORY OF CHILDREN'S PRESS IN AZERBAIJAN

**Laman Mammadova**

Baku Girls' University
E-mail: lamanmammadli08@gmail.com
https://orcid.org/0009-0003-1917-5871

**Annotation.** The study examines children's press not merely as an informative medium but as a strategic field with psychological, pedagogical, and cultural significance, exploring its influence on children's intellectual, emotional, and social development. The analysis demonstrates that children's periodicals are not only tools for information dissemination but also play a fundamental educational role in shaping a child's personality, enriching their worldview, and fostering national and moral values. Instilling a love of reading from an early age, developing analytical and creative thinking skills, and cultivating healthy communication with the surrounding environment constitute the core objectives of children's media. The article provides a comprehensive examination of Azerbaijani children's press, which emerged during the Enlightenment period and possesses deep historical roots. It also analyzes the realities of the 21st century—characterized by rapid technological development and the dominance of digital platforms—which require a re-evaluation of both the content and format of children's press.

**Keywords:** children's press, enlightenment, national identity, patriotic education, children's journals, post-independence period.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5034
**To cite this article:** Mammadova L. (2025). The development history of children's press in Azerbaijan. *Journal of Preschool and Primary Education*, Special issue – "Scientific-pedagogical press: in the dimension of historicity and modernity", pp. 117-129.
**Article history:** received – 27.10.2025; accepted – 28.11.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# AZƏRBAYCANDA UŞAQ MƏTBUATININ İNKİŞAF TARİXİ

**Ləman Məmmədova**

Bakı Qızlar Universiteti
E-mail:lamanmammadli08@gmail.com
https://orcid.org/0009-0003-1917-5871

**Annotasiya.** Tədqiqatda uşaq mətbuatı təkcə informativ deyil, həm də psixoloji, pedaqoji və mədəni əhəmiyyət daşıyan strateji bir sahə kimi təhlil edilir, uşaqların intellektual, emosional və sosial inkişafına təsirləri araşdırılır. Təhlillər göstərir ki, uşaq mətbuatı yalnız informasiya ötürən vasitə deyil, eyni zamanda uşağın şəxsiyyət kimi formalaşmasında, dünyagörüşünün zənginləşməsində, milli və mənəvi dəyərlərə yiyələnməsində əsas tərbiyəvi rol oynayır. Erkən yaşlardan uşaqlarda oxumağa marağın formalaşdırılması, analitik və yaradıcı düşüncə tərzinin inkişafı, ətraf aləmlə sağlam ünsiyyət bacarığının yaranması uşaq mətbuatının əsas məqsədlərindəndir. Məqalədə maarifçilik dövründə formalaşmağa başlayan, dərin tarixi köklərə malik Azərbaycan uşaq mətbuatı geniş aspektdən izah olunur, məqsədyönlü fəaliyyəti təhlil edilir. Bununla belə, informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi, rəqəmsal platformaların gündəlik həyatın bir hissəsinə çevrildiyi XXI əsrdə uşaq mətbuatının məzmun və forma baxımından yenidən düşünülməsini zəruri edən reallıqlar təhlil olunur.

**Açar sözlər:** uşaq mətbuatı, maarifçilik, milli kimlik, vətənpərvərlik tərbiyəsi, uşaq jurnalları, müstəqillik dövrü.

**DOI:** https://doi.org/10.30546/2709-2488.2025.5034
**Məqaləyə istinad:** Məmmədova L. (2025). Azərbaycanda uşaq mətbuatının inkişaf tarixi. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Elmi-pedaqoji mətbuat: tarixilik və müasirlik müstəvisində", səh. 117-129.
**Məqalə tarixçəsi:** göndərilib – 27.10.2025; qəbul edilib – 28.11.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Mətbuatın inkişafı bir ölkənin mədəni, ictimai və maarifçilik proseslərinin əsas göstəricilərindən biridir. Azərbaycan milli mətbuatı isə zəngin tarixi və dərin ənənələri ilə ümumi cəmiyyətin, xüsusilə gənc nəslin formalaşmasında əvəzsiz rol oynamışdır. Uşaq mətbuatı uşaq və yeniyetmələrin bilik və dünyagörüşünün formalaşması, milli və əxlaqi dəyərlərlə tanış olması, intellektual inkişafı və sosiallaşması baxımından önəmli bir platforma kimi daim diqqət mərkəzində olmuşdur.

1875-ci il, iyul ayının 22-də Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşr edilən "Əkinçi" qəzeti ilə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur. "Əkinçi", ilk növbədə, elm, maarif, mədəniyyət və incəsənətlə bağlı məsələləri işıqlandırır, yeni tipli maarifçi məktəblərin zəruriliyini vurğulayırdı. Qəzetin nəşrində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa tanınmış ziyalıların iştirakı maarifçilik ideyalarının mətbuata verdiyi önəmin göstəricisi idi [Aşırlı, A., 2009].

Azərbaycan mətbuatının ən vacib istiqamətlərindən biri uşaq mətbuatıdır. Uşaq mətbuatının meydana gəlməsinə XIX–XX əsrlərdə uşaqlar üçün ədəbi əsərlərin yaranması təkan vermişdi. Azərbaycanda yeni üsullu məktəblərdə dərsliklərdə uşaqların yaşına uyğun şeir və hekayələrə, tarixi mövzulu oçerklərə geniş yer verilirdi. Bu dövrün görkəmli ziyalıları – N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq, Ü.Hacıbəyov, S.S.Axundov, M.Mahmudbəyov və başqaları uşaq nəsrinin və uşaq mətbuatının təşəkkülündə böyük rol oynamışlar. Onlar yazıçı və müəllim kimi fəaliyyət göstərməklə yanaşı, dərslik və dərs vəsaitləri hazırlayır, dövri mətbuatda uşaq mövzusuna həsr olunmuş məqalələr dərc etdirirdilər.

**Problemin qoyuluşu**

Uşaq mətbuatı, Azərbaycan mədəniyyətinin və maarifçilik tarixinin mühüm tərkib hissəsidir. Uşaqların mənəvi-estetik tərbiyəsində, intellektual və emosional inkişafında uşaq jurnalları və qəzetlərinin rolu danılmazdır. Lakin müasir mərhələdə uşaq mətbuatının tarixi kökləri, ideoloji istiqamətləri, cəmiyyətin sosial-siyasi dəyişikliklərinə uyğunlaşması və yeni informasiya texnologiyalarının təsiri məsələlərini daha dərindən araşdırılmağa ehtiyac duyulur. Qloballaşma şəraitində, uşaqların informasiya məkanına çıxışı artdıqca, milli ruhlu və pedaqoji cəhətdən sağlam mətbuat nümunələrinin qorunması və inkişafı zəruri hal alır. Buna görə də tədqiqatın əsas məqsədi Azərbaycan uşaq mətbuatının tarixi inkişaf mərhələlərini, onun ideya-estetik istiqamətini və müasir dövrdə qarşısında duran pedaqoji vəzifələri müəyyənləşdirməkdir.

**Tədqiqat metodları**

Məqalənin hazırlanmasında tarixi-təhlil, müqayisəli-analitik və sistemli yanaşma metodlarından istifadə olunmuşdur. Tarixi-təhlil metodu vasitəsilə uşaq mətbuatının "formalaşma və inkişaf mərhələləri" araşdırılmış, müxtəlif dövrlərin sosial-siyasi və mədəni şəraiti ilə əlaqələndirilmişdir. Müqayisəli-analitik yanaşma uşaq mətbuatının "ideoloji və məzmun xüsusiyyətləri"nin müxtəlif dövrlərdə necə dəyişdiyini ortaya çıxarmağa imkan vermişdir. Sistemli yanaşma metodu isə uşaq mətbuatını pedaqoji, ədəbi və ictimai hadisə kimi bütöv şəkildə dəyərləndirməyə, onun "maarifçilik və tərbiyəvi funksiyaları"nı müəyyənləşdirməyə xidmət etmişdir.

## Əsas hissə / Main part

Azərbaycanda Əlisgəndər Cəfərovun təşəbbüsü sayəsində 1906-cı ildə "Dəbistan" adlı uşaq jurnalının nəşri ilə ilk uşaq mətbuatının əsası qoyulmuşdur. Jurnalın əsas məqsədi uşaqları maarifləndirmək, onlarda biliyə maraq oyatmaq, elmin müxtəlif sahələri və Azərbaycan – dünya ədəbiyyat nümunələri ilə tanış etmək olmuşdur. "Dəbistan" az sayda çap olunurdu, rəngli şəkillər və tapmacalarla zəngin idi. Jurnalda uşaqlar üçün nəzərdə tutulmuş hekayə və şeirlərlə yanaşı, tanınmış ziyalıların yazıları və elmi-populyar məzmun da dərc olunurdu. Hər sayının sonunda sözlük və tapmaca verilir, doğru cavab yazanlar isə mükafatlandırılırdı. Cəmi 27 nömrəsi işıq üzü görən jurnalın səhifələrində pedaqoji məsələlər, uşaqların təlim-tərbiyəsinə dair bədii əsərlər, görkəmli şəxslərin həyatı, elm və texnika yenilikləri, fizika, riyaziyyat, coğrafiya və digər mövzular haqqında yazılar dərc edilirdi. Jurnalın işində dövrün ziyalıları – N.Nərimanov, A.Şaiq, M.Hadi, S.M.Qənizadə, R.Əfəndiyev və başqaları fəal iştirak etmişlər. Azərbaycan yazıçıları ilə yanaşı, jurnalda uşaqlar üçün Krılovun, Hötenin, Lermontovun, Puşkinin tərcümə edilmiş uşaq şeirləri, təmsilləri dərc olunurdu ki, bu da jurnalın oxunaqlı olmasına kömək etmişdir [Mübarizqızı, A., 2024]. Qısa müddət fəaliyyət göstərən "Dəbistan"dan sonra, qismən davamçı kimi 1906–1907-ci illərdə "Rəhbər", 1911–1920-ci illərdə isə "Məktəb" jurnalları nəşr olunmuş, onlarda da pedaqoji və təhsilyönümlü yazılara geniş yer verilmişdir. Xüsusən Qafqaz mütəfəkkiri Mirzə Cəlil Məmmədquluzadənin nəşri olan "Rəhbər" jurnalının məqsəd və məramı yeniyetmələrin təlim-tərbiyəsinə xidmət idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan "Məktəb" jurnalı, o dövrün maarifçilik ruhunu daşıyan, uşaqların demokratik düşüncə tərzi ilə tərbiyə olunmasına xidmət edən mühüm mətbuat orqanlarından biri olmuşdur. Cəmi 95 nömrəsi işıq üzü görən bu jurnalın ilk nömrəsində görkəmli maarifçi və dövlət xadimi Nəriman Nərimanov "Əziz balalar" sərlövhəli müraciətində uşaqların təhsilə cəlb olun-

ması məsələsini xüsusi vurğulamışdır. O, qeyd edirdi ki, son illər məktəblərin sayı artsa da, uşaqlara həsr olunmuş xüsusi bir jurnalın çatışmazlığı hiss olunmaqdadır. Bu ehtiyacın qarşılanması isə cəmiyyətin, valideynlərin, müəllimlərin və maarifpərvər ziyalıların üzərinə düşən vacib bir vəzifədir. Nərimanov bu işdə özlərini yalnız vasitə hesab edir, əsas yükü isə təhsil ictimaiyyətinin daşıdığını bildirirdi. Jurnalın "Məktəbə dəvət" rubrikasında məktəb haqqında belə deyilirdi: Məktəb insan üçün ən qiymətli sərvətlərdən biridir. Orada keçirilən illər həyatın ən gözəl dövrüdür. "İnsan məktəbə gələndə hələ dünyanı tanımır, amma buradan çıxarkən artıq gözləri açıq, biliklə dolu bir fərd kimi formalaşır" [Məcidova, N., 2013].

Sovet hakimiyyəti qurulduqdan sonra uşaq mətbuatı sürətlə inkişaf etməyə başladı. Mətbuat tarixi üzrə tədqiqatçı, tarix elmləri üzrə fəlsəfə doktoru və "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı "Azərbaycan mətbuat tarixi" (II hissə, 1920–1990) adlı əsərində sovet dövrü Azərbaycan uşaq mətbuatı ilə bağlı bir sıra diqqətəlayiq məqamlara toxunur. Onun fikrincə, sovet hakimiyyətinin ilk illərində partiya ideologiyasına uyğun uşaq mətbuatının yaradılması qarşıya məqsəd kimi qoyulmuşdu. Bu istiqamətdə "Qırmızı günəş", "Qızıl gənclik", "Məktəb yıldızı" kimi jurnallar nəşr olunsa da, 1920–1926-cı illər arasında yalnız bir neçə nömrəsinin buraxılışı həyata keçirildi və onların fəaliyyəti qısa zamanda dayandırıldı. Bunun əsas səbəblərindən biri geniş oxucu kütləsinin formalaşmaması, xüsusilə də əhali arasında savadsızlığın hələ də ciddi problem olaraq qalması idi. Digər mühüm amil isə maddi-texniki çatışmazlıqlar, maliyyə imkanlarının məhdudluğu, kağız və mətbəə xərclərinin yüksək olması idi ki, bu da uşaq mətbuatının davamlı inkişafına mane olurdu.

1926-cı ilin payızında gənc nəslin təlim-tərbiyəsi ilə bağlı dövlət səviyyəsində tədbirlər planı hazırlanaraq icraya yönəldildi. Bu çərçivədə məktəbəqədər təhsil müəssisələrinin və məktəblərin açılması ilə yanaşı, uşaq mətbuatının yaradılması da zəruri sayıldı. Həmin ilin payızında Bakı şəhər komsomol təşkilatının keçirdiyi konfransda bir qrup fəal məktəblinin əl yazması ilə hazırlanmış və üzərində "Pioner" yazısı olan 28 səhifəlik jurnal təqdim olundu. Cəmi 50 nüsxədə hazırlanan bu nümunəvi jurnal konfrans iştirakçıları tərəfindən müsbət qarşılandı və gələcəkdə çap versiyasının əsasını qoydu. Nəticə etibarilə 1927-ci ilin fevral ayında Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin orqanı kimi "Pioner" jurnalı nəşr olunmağa başladı. İlk sayı 3000 tirajla çap edilən bu jurnalın əsas məqsədi əmək fəaliyyəti ilə məşğul olan ailələrin övladlarını maarifləndirmək, onları cəmiyyətə və ictimai həyata erkən yaşlardan alışdırmaq idi.

"Pioner" jurnalı sovet ideologiyasının tələblərinə uyğun olaraq, uşaqların vətənpərvərlik ruhunda yetişdirilməsinə və dövlət əmlakına hörmət ruhunda

tərbiyə olunmasına xidmət edirdi. Jurnal öz səhifələrində savadsızlığın aradan qaldırılması məsələsinə xüsusi önəm verir, bu istiqamətdə maarifləndirici materiallar dərc edirdi. 1929-cu ilin fevral ayında nəşr olunan sayında Azərbaycan pionerlərinə ünvanlanan müraciətdə belə bir çağırış yer alırdı: “Pionerlər! Dairələrdə, kəndlərdə, həyətlərdə savadsız uşaqları tapın və onlara yazıb-oxumağı öyrətməyə çalışın. Səkkiz yaşlı savadsızları məktəblərə cəlb edin! Yeni həyat, sağlamlıq və mədəniyyət uğrunda birgə mübarizə aparın”. Həmin dövrdə jurnal “Hər bir pioner manqası bir savadsıza oxumağı öyrətməlidir” şüarını irəli sürərək, gənc nəslin maarifləndirilməsində fəal iştirakını təşviq edirdi. Lakin 1920-ci illərin sonlarından etibarən ölkədə milli-mənəvi dəyərlərə və dini inanca qarşı sərt tədbirlər görülməyə başlandı. Akif Aşırlının araşdırmalarına görə, bu proses cəmiyyət arasında ciddi narazılıqlar doğururdu. Hətta elə hallar müşahidə olunurdu ki, əvvəlcədən təlimatlandırılmış uşaqlar qadınların çadrasını, ağsaqqalların papağını zorla başlarından çıxarırdılar. Bu tip davranışlar getdikcə cəmiyyətdə narazılığa səbəb olduğundan, sovet rəhbərliyi bu sahədə idarəçiliyi nəzarətə götürmək məqsədilə yeni tədbirlər planı hazırladı. Bu kontekstdə “Pioner” jurnalı da öz təbliğat funksiyasını həyata keçirməyə başladı. Jurnalda “Mövhumata qarşı mübarizə düzgün aparılmalıdır” adlı yazıda pionerlərə müraciət edilərək belə deyilirdi: “Pionerlər! Partiya və komsomol təşkilatları dini mövhumat və köhnə adət-ənənələrlə ciddi mübarizə aparır. Siz də bu mübarizədən kənarda qala bilməzsiniz. Məscidlərin mədəniyyət ocaqlarına çevrilməsi, çadra və papaq kimi atributların götürülməsi, savadsızlığın aradan qaldırılması, sərxoşluq, xuliqanlıq və pintiliklə mübarizə bunun bariz nümunələridir. Lakin bəzi uşaqlar küçədə çadralı qadınlara hücum edir, mollalara sataşır – bu isə pioner adına yaraşmayan hərəkətlərdir və yolverilməzdir”.

Sovet hakimiyyəti dövründə, təxminən 70 il ərzində “Pioner” jurnalı rəsmi ideoloji xəttə uyğun şəkildə fəaliyyət göstərmiş və partiya qərarlarını dəstəkləmişdir. Xüsusilə 1930-cu illərdə kənd təsərrüfatının kollektivləşdirilməsi prosesi zamanı uşaqların bu təşəbbüslərdə iştirakı da jurnalın gündəmində yer almışdır. Jurnalın rəhbərliyində tanınmış yazıçılar, o cümlədən Qılman İlkin və Hüseyn Abbaszadə kimi qələm sahibləri fəaliyyət göstərmişdir. “Pioner”, həmçinin bir çox istedadlı gənc ədiblər üçün yaradıcılıq meydanı olmuşdur. Xəlil Rza Ulutürk, Sabir Əhmədov, Nəriman Həsənzadə kimi müəlliflərin ilk ədəbi nümunələri məhz bu jurnalda çap olunmuşdur. Bundan başqa, tanınmış rəssamlar Mikayıl Abdullayev, Oqtay Sadıqzadə, Davud Kazımov, Elmira Şaxtaxtinskaya, Həsənağa Ağayev və başqaları jurnalın bədii tərtibatına töhfə vermişlər. Qara Qarayevin “Sülh”, Səid Rüstəmovun “Dəstə rəhbəri”, Qəmbər Hüseynlinin “Ana məktəb”, həmçinin Ağabacı Rzayeva və Cahangir Cahangirov kimi bəstəkarların bir sıra mahnıları da ilk dəfə bu jurnalda dərc olunmuşdur [Aşırlı, A., 2010].

Azərbaycan uşaq mətbuatının parlaq nümunələrindən biri olan "Göyərçin" jurnalı, onilliklər boyunca neçə-neçə nəsli maarifləndirmək və tərbiyə etmək missiyasını uğurla yerinə yetirmişdir. Jurnal səhifələrində dərc olunan şeirlər, hekayələr, nağıllar, tarixi məlumatlar və milli dəyərlərə dair yazılar uşaqların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynamış, onların vətənpərvər və məsuliyyətli vətəndaş olaraq yetişməsinə töhfə vermişdir. "Göyərçin" yalnız bir uşaq jurnalı deyil, eyni zamanda təlim-tərbiyə vasitəsi, mədəni irsin daşıyıcısı və təhsil ilə ədəbiyyat arasında körpü rolunu oynamışdır. Bu təsadüfi deyil: jurnalın səhifələrində dərc olunan əsərlərə məktəb dərsliklərində, o cümlədən "Əlifba", "Ana dili" və "Oxu" dərsliklərində istinad olunması onun pedaqoji əhəmiyyətini təsdiqləyir. Jurnalın ilk baş redaktoru görkəmli yazıçı, dramaturq və jurnalist Yusif Əzimzadə olmuşdur. Onun təşəbbüsü ilə "Göyərçin" uşaq mətbuatında fərqli nəfəs və orijinal üslub yaranmışdır. Sonrakı illərdə bu missiyanı Hüseyn Abbaszadə, Xalidə Hasilova, Tofiq Mahmud və başqa peşəkar qələm sahibləri davam etdirmişdir. Onların hər biri jurnalın ideya-estetik dəyərinin qorunub saxlanmasına və inkişafına öz töhfəsini vermişdir. Hazırda jurnalın baş redaktoru Əməkdar mədəniyyət işçisi, professor, şair Rafiq Yusifoğludur. "Göyərçin" jurnalı yalnız nostalji nəşr deyil, milli uşaq mətbuatımızın canlı yaddaşı və ənənəvi dəyərlərin daşıyıcısı kimi qiymətləndirilir. Onun uğuru bir daha göstərir ki, uşaqlara yönəlmiş keyfiyyətli mətbuat düzgün idarəçilik və peşəkar redaksiya heyəti ilə uzunömürlü və təsirli ola bilər.

Azərbaycan müstəqillik qazandıqdan sonra uşaq mətbuatı və ədəbiyyatı milli dəyərlərə əsaslanan yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Bu dövrdə nəşr olunan uşaq yazılarında azərbaycançılıq ideologiyası, vətənə bağlılıq, azadlıq və milli kimlik anlayışları ön plana çıxdı. Uşaq mətbuatı yalnız maarifləndirmə funksiyasını yerinə yetirməklə kifayətlənməyib, milli şüurun formalaşmasına xidmət edən ideoloji və tərbiyəvi platformaya çevrilmişdi. Bu dövrün uşaq ədəbiyyatında yeni dil, fərqli bədii-estetik yanaşmalar və müasir dünyagörüşü özünü göstərdi. Yazıçı və şairlər əsərlərində üçrəngli bayrağımızı, dövlət himnimizi, milli qəhrəmanlarımızı və müstəqil dövlətçilik ruhunu təbliğ edən məzmunlara yer verdilər. Əsas məqsəd uşaqlara milli özünüdərk, vətənə sevgi və azərbaycanlı kimi qürur hissinin aşılanması idi. Bu mərhələdə uşaq ədəbiyyatının inkişafına töhfə verən tanınmış qələm sahibləri arasında Zahid Xəlil, Rafiq Yusifoğlu, Məmməd Namaz, Ələmdar Quluzadə, Sevinc Nuruqızı, Qəşəm İsabəyli, Qəşəm Nəcəfzadə, Reyhan Yusifqızı, Mina Rəşid, Ələsgər Əlioğlu, İnqilab İsaq, İbrahim Yusifoğlu kimi yazıçıların adları xüsusi qeyd olunmalıdır. Bu müəlliflərin bəziləri sovet dövründə də fəaliyyət göstərmiş, lakin müstəqillik şəraitində ədəbi istiqamətlərini daha sərbəst və milli ruhda davam etdirmişlər. Eyni zamanda bu ideoloji və ədəbi tendensiyalar uşaq mətbuatında da aydın şəkildə öz əksini

tapmışdır. Uşaq jurnalları və qəzetləri uşaqlarda milli mənsubiyyət hissinin inkişafına, vətəndaş məsuliyyətinin formalaşmasına, mədəni irsimiz və tariximizlə fəxr etməyə yönəlmiş məqalə və materiallarla çıxış edirdilər. Bu nəşrlər uşaqların yalnız oxu bacarıqlarını deyil, həm də ictimai-mənəvi dünyagörüşünü inkişaf etdirmək məqsədi daşıyırdı. Yazıçı və şairlər əsərlərində üçrəngli bayrağımızı, dövlət himnimizı, milli qəhrəmanlarımızı və müstəqil dövlətçilik ruhunu təbliğ edən məzmunlara yer verirdilər. Əsas məqsəd uşaqlara milli özünüdərk, vətənə sevgi və azərbaycanlı kimi qürur hissinin aşılanması idi [Əhmədov, N., 2010].

2020-ci ildə yaradılan "Mücrü" jurnalı məktəbəqədər və ibtidai sinif yaşlı uşaqlar üçün nəzərdə tutulub. Jurnalda hekayə, şeir, oyun, bilik yarışması kimi bölmələr, müxtəlif ölkələr və heyvanlar barədə məlumatlar yer alır. Uşaqlar bu jurnala öz yazı və rəsmlərini göndərə, müəlliflərə məktub yaza bilər, həmçinin jurnalda sınaq tapşırıqlarını həll edərək özünüqiymətləndirmə imkanı əldə edə bilərlər. Hazırda uşaqlar üçün "Bala Zirvə" qəzeti və "Cırtdan" kimi ayrıca milli qəzetlər də nəşr olunur.

Müasir dövrdə həm çap, həm də rəqəmsal formatda yeni uşaq nəşrləri dərc olunur. Yuxarıda qeyd olunan "Mücrü" nümunəsi göstərir ki, Azərbaycan uşaq mətbuatı məktəbəqədər və ibtidai sinif yaşlı uşaqları hədəfləyir. Jurnalın hər nömrəsində uşaqlar üçün hekayə, şeir və oyun bölmələri, həmçinin ölkələr, heyvanlar və quşlar haqqında məlumatlar yer alır. Bundan əlavə, hər sayda bilik yarışması sualları verilir; uşaqlar cavablarını mövzuya uyğun şəkildə qiymətləndirə bilirlər. Jurnal, həmçinin uşaqların yazı və rəsm əsərləri üçün tribuna rolunu oynayır: istedadlı şagirdlərin əsərləri dərc edilir, onlar müəlliflərə məktub yaza və jurnalda öz yaradıcılıqları ilə çıxış edə bilirlər. Bu xüsusiyyətlər "Mücrü" jurnalının əsas məqsədini – uşaqları maarifləndirmək, onlarda oxumaq və yaradıcılığa maraq oyatmaq vəzifəsini gücləndirir [Kulis.az]. Digər bir nümunə kimi, beynəlxalq layihə çərçivəsində hazırlanan "National Geographic Kids" jurnalının Azərbaycan dilində nəşr olunması da diqqətçəkicidir. Onun formatı, rəngli tərtibatı və yaşa uyğun məzmunu uşaq auditoriyasının diqqətini cəlb edir. Ümumilikdə, müasir uşaq jurnalları rəngarəng qrafika, sadə dil, qısa mətnlər və müxtəlif rubrikaları (tapmacalar, eksperimentlər, viktorinalar) özündə birləşdirir. Məqsəd auditoriyanın səviyyəsinə uyğun şəkildə mənimsənilə bilən biliklər və əyləncəli məzmun təqdim etməkdir. Azərbaycan uşaq mətbuatı da bu tendensiyanı izləyir: nəşrlər elektron versiyalarla zənginləşdirilir, sosial mediada uşaq seqmentləri üçün əlavələr hazırlanır [Aydınlar.az].

Uşaq mətbuatı uşaqların mənəvi-intellektual inkişafında, şəxsiyyətlərinin formalaşmasında və cəmiyyətə uyğunlaşmasında mühüm rol oynayır. Belə nəşrlər erkən yaşlardan uşaqları biliklə tanış edir, onların idrak imkanlarını genişləndirir, dil və nitq bacarıqlarını inkişaf etdirir, düşünmək və öz fikrini ifadə etmək

vərdişi qazandırır. Uşaqlar üçün nəzərdə tutulan qəzet və jurnallar sadə və anlaşıqlı dildə yazılır, onların maraqlarına və yaş xüsusiyyətlərinə uyğun olaraq tərtib olunur. Bu isə uşaqlarda oxumağa marağı artırır, davamlı mütaliə vərdişinin formalaşmasına şərait yaradır. Eyni zamanda uşaq mətbuatında yer alan şeirlər, nağıllar, kiçik hekayələr, tapmacalar, oyunlar və informativ yazılar, uşaqların həm emosional inkişafına, həm də məntiqi təfəkkürünə təsir göstərir. Mətnlərin bədii və tərbiyəvi əhəmiyyətli olması uşaqlarda əxlaqi keyfiyyətlərin – xeyirxahlıq, ədalətlilik, əməksevərlik, vətənpərvərlik kimi dəyərlərin erkən yaşlardan aşılanmasına xidmət edir. Bununla yanaşı, uşaq mətbuatı sosiallaşma prosesində, yəni uşağın cəmiyyətə inteqrasiyasında da əhəmiyyətli vasitə rolunu oynayır. Buradakı materiallar onlarda sual vermə, cavab tapma, müşahidə aparma kimi düşünmə bacarıqlarını aktivləşdirir. Digər tərəfdən, uşaq mətbuatı ailə və məktəb arasında körpü rolu oynayaraq valideynlərə və müəllimlərə dəstək olur. Bu nəşrlər həm də uşaqları mədəni irsimiz, milli dəyərlərimiz, tarixi şəxsiyyətlər və folklorla tanış edir. Uşaqlar, beləliklə, öz milli kimliklərini dərk etməyə başlayır, Azərbaycan sevgisi, dövlətçilik anlayışı və azərbaycançılıq ideologiyasını mənimsəyirlər. Uşaq mətbuatı sadəcə bir oxu vasitəsi deyil, o, həm də tərbiyə məktəbi, mədəniyyət daşıyıcısı, milli ruh tərbiyəçisi və gələcək vətəndaşın formalaşma platformasıdır.

Uşaq mətbuatı gələcəyin vətəndaşını formalaşdıran böyük bir məktəbdir. Tarixin müxtəlif dövrlərində dəyişən siyasi və sosial şərtlərə baxmayaraq, bu sahə öz missiyasını qoruyub saxlamış, istər sovet ideologiyasının təzyiqləri altında, istərsə də müstəqillik dövrünün çağırışları fonunda uşaqların tərbiyəsində mühüm rol oynamışdır.

Tarixdən bu günə qədər Azərbaycan uşaq mətbuatı həm tərbiyəvi, həm maarifləndirici, həm də milli ruhda böyüməyi təşviq edən vəzifələr daşıyıb. XIX əsrdə ilk maarifçi ziyalıların təşəbbüsü ilə formalaşan bu sahə, XX əsrin əvvəllərində "Dəbistan", "Məktəb", "Pioner" kimi jurnallar vasitəsilə daha sistemli və məqsədyönlü hal almışdır. Sovet dövründə uşaq mətbuatı ideoloji xarakter daşısa da, onun tərkibində uşaqlar üçün nəzərdə tutulmuş dəyərli ədəbi-bədii materiallar, savadsızlıqla mübarizə, kollektiv əmək tərbiyəsi və ictimai vətəndaşlıq şüurunun formalaşdırılması kimi müsbət istiqamətlər də yer almışdır.

Müstəqillik dövründə isə Azərbaycan uşaq mətbuatı yenidən öz ruhunu tapmağa başladı. Bu mərhələdə yalnız forma və məzmun deyil, həm də məqsəd dəyişdi: artıq məqsəd sovet vətəndaşı deyil, azərbaycanlı kimliyini formalaşdırmaq, vətən sevgisi, ana dilinə bağlılıq, dövlətçilik şüuru, milli rəmzlərimizə hörmət, mədəni irsimizə sədaqət kimi dəyərləri uşaqlara aşılamaq idi. Uşaq mətbuatı bu mərhələdə həm tərbiyə, həm maarif, həm də milli ideoloji yönümlü informasiya mənbəyinə çevrildi. "Göyərçin", "Günəş", "Bala dili", "Yuva", "Elli", "Şəfəq"

və digər jurnallar bu dövrün məhsullarıdır. Bu mətbuat orqanları uşaqlarda oxu vərdişi yaratmaqla yanaşı, onların dil bacarıqlarını, bədii-estetik zövqünü, əxlaqi dəyərlər sistemini formalaşdırmağa yönəlmişdir. Onlar məktəblə ailə arasında bir növ vasitəçi funksiyası daşıyaraq uşaqların gündəlik həyatına mədəni, maarifçi və emosional məzmun qatmışlar. Buradakı yazılar vasitəsilə uşaqlar yalnız yazıb-oxumağı deyil, düşünməyi, analiz etməyi, müqayisə aparmağı – bir sözlə, fəal vətəndaş olmağı öyrənmişlər. Bununla belə, bu gün uşaq mətbuatının qarşısında yeni, daha mürəkkəb çağırışlar durur. İnformasiya bolluğu, rəqəmsallaşma, sosial media və texnoloji asılılıq, ənənəvi oxu mədəniyyətini ciddi şəkildə zəifləbeing. Əvvəllər uşaqlar üçün nağıl, tapmaca, hekayə oxumaq təbii bir tələbat idisə, bu gün bir çox uşaq kitabdan daha çox planşetə və mobil telefona maraq göstərir. Bu isə uşaq mətbuatını həm məzmun, həm də struktur baxımından yenilənməyə məcbur edir.

Uzun illərin təcrübəsi sübut edir ki, uşaq mətbuatı pedaqoji xarakter daşıdığı üçün gənc nəslin tərbiyəsində əvəzsiz rol oynayır. Bu səbəbdən də ölkədə istənilən yeni uşaq qəzet və jurnalının nəşri zamanı bu amillərə xüsusi həssaslıqla yanaşılır. Uşaqlara istiqamət verə bilən, onların dünyasına uyğun, pedaqoji baxımdan dəyərli mətbuat nümunələri hazırlamaq üçün bu sahədə ixtisaslaşmış peşəkarların yetişməsi mühüm əhəmiyyət daşıyır. Uşaqların kitaba və oxuya marağını artırmağın əsas yollarından biri, məhz onlara xitab edən mətbuat vasitələrinin mövcudluğudur. Hazırda ölkəmizdə dövlət dəstəyi ilə nəşr olunan üç uşaq mətbuat orqanı fəaliyyət göstərir. Digər jurnallar isə müstəqil şəkildə çap olunur və oxucu rəğbətini qazanmaq üçün rəqabət şəraitində öz keyfiyyətini daim təkmilləşdirməyə çalışır. Məsələn, "Xurcun" uşaq və mədəniyyət jurnalı rəngarəng məzmunu və dizaynı ilə seçilir. Jurnalın "Xurcunumuzdakı xəbərlər" adlı səhifəsində uşaqlar üçün maraqlı mədəni hadisələr işıqlandırılır, "İzlə" rubrikasında teatr tamaşalarına dair məlumat və afişalar yer alır. "Təqvim yarpağı" adlı bölmədə isə həmin ayda doğulan məşhur şəxslər tanıdılır. "Can Vətən", "Əziz və şanlı məktub", "Musiqi", "Folklor", "Səyahət", "Mən bir turist", "Dirədöymə" və digər rubrikalar da uşaqlarda geniş maraq doğurur. Balaca oxucular bu jurnalın hər yeni sayını səbirsizliklə gözləyirlər. Digər mühüm nəşrlərdən biri "Tumurcuq" qəzetidir. Bu qəzet 1996-cı ildən bəri nəşr olunur və Azərbaycanın latın qrafikasında çap olunan ilk uşaq qəzeti hesab edilir. Qəzetin çapına Xalq şairi Bəxtiyar Vahabzadə və Xalq yazıçısı Anar dəstək vermişlər. Əsas auditoriyası aşağı sinif şagirdləri olsa da, böyüklər də onu maraqla oxuyurlar. "Tumurcuq" digər uşaq mətbuat orqanlarından həm yaşı, həm də məzmun baxımından fərqlənir. Burada türk, ingilis və rus dillərində uşaq ədəbiyyatından maraqlı nümunələr dərc edilir. Dərsliklərdə yer almayan hekayə, nağıl və ədəbi parçalar uşaqlara sinifdənxaric oxu üçün təqdim olunur. Qəzetin əsas məqsədi uşaqlarda milli-mənəvi dəyərləri

formalaşdırmaq, vətənə, təbiətə və ailəyə sevgi aşılamaqdır. Bunun üçün türk xalqlarının folkloruna da tez-tez müraciət edilir. Mütəxəssislərin fikrincə, uşaqlar üçün yazmaq olduqca məsuliyyətli və çətin bir işdir. Bu yaş qrupunun psixoloji xüsusiyyətlərini bilmək, onların maraq və qavrama səviyyəsini nəzərə almaq yazı prosesində vacib şərtlərdəndir. Təəssüf ki, bu sahədə yazan müəlliflərin sayı hələ də kifayət qədər deyil, lakin keyfiyyətli uşaq mətbuatının inkişafı üçün belə müəlliflərə ciddi ehtiyac duyulur [Qocayev, İ., 2017] .

Hər bir cəmiyyətin gələcəyini formalaşdıran uşaqlardır. Elə bu səbəbdən, uşaq mətbuatı təkcə bir informasiya vasitəsi deyil, ölkənin gələcək vətəndaşına yazılmış böyük və məsuliyyətli bir məktubdur.

## Nəticə / Conclusion

Zaman dəyişir, dövrlər bir-birini əvəz edir, texnologiyanın inkişafı cəmiyyətdə bütün sahələrə təsir göstərir. Müasir dövrün reallıqları uşaq mətbuatının məzmun və forma baxımından müasir tələblərə uyğunlaşdırılmasını şərtləndirir. Müasir dövrdə uşaqları rəqəmsal mediadan uzaq tutmaq çox çətindir, artıq onlar ənənəvi qəzet və jurnallardan daha çox ekranla təmasda olurlar. Bu səbəbdən uşaq mətbuatı da rəqəmsallaşmalı, elektron versiyalarla, audio məzmunlar, interaktiv nağıl və hekayələrlə zənginləşdirilməlidir. Çünki uşaqların diqqətini cəlb etmək üçün yalnız doğru məzmun deyil, uyğun təqdimat forması da vacibdir. Digər tərəfdən, məzmunun özü də dəyişməlidir. Bu gün uşaq jurnalları yalnız nağıl və tapmaca ilə kifayətlənə bilməz. Uşaqlara ekologiya, texnologiya, kibertəhlükəsizlik, emosional zəka və empatiya kimi mövzularda da bilik və bacarıqlar aşılanmalıdır. Ənənəvi milli dəyərlərlə yanaşı, müasir dünyanın tələbləri də nəzərə alınmalıdır. Bu sahədə müəlliflərin rolu danılmazdır. Uşaqlar üçün yazmaq, onların psixologiyasına uyğun düşünmək xüsusi hazırlıq tələb edir. Buna görə də uşaq mətbuatında uşaq psixologiyasını bilən, yaş səviyyəsinə uyğun yazı dili ilə çıxış edən maarifçi yazıçıların üstünlük təşkil etməsi vacibdir. Təbii ki, valideyn və müəllim də bu prosesin bir parçasıdır. Evdə və məktəbdə uşaq mətbuatına yer verilməli, uşaqlar bu nəşrlərlə tanış edilməlidir. Onların mütaliə vərdişinin formalaşması üçün bu təcrübə vacibdir. Digər tərəfdən, dövlət bu sahəyə laqeyd qalmamalıdır. Müsabiqələr, qrant proqramları, nəşr dəstəkləri ilə uşaq mətbuatının inkişafına şərait yaradılmalıdır. Çünki uşaq mətbuatı yalnız uşaqlar üçün deyil, bütövlükdə, cəmiyyətin sabahı üçündür.

**Məqalənin aktuallığı.** Məqalə müasir dövrdə uşaq mətbuatının rolunun artırılması və onun yeni texnoloji çağırışlara uyğunlaşdırılması məsələlərini araşdırır. İnformasiya cəmiyyətinin sürətlə inkişaf etdiyi, uşaqların rəqəmsal məzmunlara artan maraq göstərdiyi müasir dövrdə uşaq mətbuatının həm tərbiyəvi, həm

də maarifləndirici funksiyalarının daha səmərəli həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Məqalə, uşaqların mənəvi və intellektual inkişafına töhfə verən, keyfiyyətli və yaş xüsusiyyətlərinə uyğun mətbuat nümunələrinin hazırlanmasının vacibliyini vurğulayaraq, bu sahədə mövcud çağırışlara cavab vermək baxımından xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə Azərbaycan uşaq mətbuatının tarixi inkişaf mərhələləri geniş və sistemli şəkildə araşdırılır, onun milli maarifçilik və tərbiyəvi funksiyaları yalnız sovet dövrü ilə məhdudlaşmır, həm də müstəqillik dövründəki inkişaf xüsusiyyətləri ilə birlikdə təqdim olunur. Məqalədə ənənəvi uşaq mətbuatının formalaşması, eləcə də müasir dövrdə rəqəmsallaşma və yeni pedaqoji yanaşmaların tətbiqi kontekstində uşaq mətbuatının funksiyalarına dair yeni baxışlar irəli sürülür. Eyni zamanda uşaq mətbuatının cəmiyyətin milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətindəki rolu, həmçinin bu sahədə müəlliflərin məsuliyyəti elmi şəkildə təhlil olunur.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə uşaq mətbuatının inkişafında mövcud problemlər və imkanlar təhlil edilir, müəllif və peşəkar kadrların hazırlanmasının vacibliyi vurğulanır. Bu, uşaq mətbuatının məzmununun zənginləşdirilməsi və formalaşdırılması istiqamətində praktik tövsiyələrin hazırlanmasına imkan yaradır. Eyni zamanda dövlətin, təhsil müəssisələrinin və valideynlərin uşaq mətbuatına dəstəyinin artırılması istiqamətində siyasətlərin formalaşdırılması üçün nəzəri baza təqdim edir. Məqalənin nəticələri, uşaq mətbuatının müasir tələblərə uyğun inkişafını təmin edəcək tədbirlər planlarının hazırlanması və tətbiqi baxımından da faydalı ola bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Aşırlı, A. (2009). Azərbaycan mətbuat tarixi I hissə, s.13-26. Bakı: “Elm və Təhsil”.
2. Aşırlı, A. (2010). Azərbaycan mətbuat tarixi II hissə, s.26. Bakı: “Elm və Təhsil”.
3. Əhmədli, B. (2010). Azərbaycan ədəbiyyat tarixi. Bakı: “Qanun Nəşriyyatı”.
4. Əhmədov, N. (2010). Azərbaycan mətbuatı yeni inkişaf dövrünü yaşayır. Xalq qəzeti.
5. Məcidova, N. (2013). Göyərçin jurnalının 55 illik yubileyi münasibətilə (metodik vəsait), s.3-4
6. Namazov, Q. (2005). Azərbaycan uşaq ədəbiyyatı antologiyası III cild, s.4-14. Bakı: “Öndər Nəşriyyat”

7. Qocayev, İ. (2017). Uşaq mətbuatı inkişaf etməlidir. Şərq qəzeti. https://anl.az/down/meqale/sherq/2017/may/543130.htm
8. Aydınlar.az. "National Geographic Kids" jurnalı Azərbaycan dilində nəşr ediləcək. https://aydinlar.az/index.php?newsid=148
9. Kulis.az. (2020). https://kulis.az/xeber/media/azerbaycanda-yeni-u-saq-jurnali-fealiyyete-baslayir-30112